# Xalq qəzeti

Xalqın qəzeti!

№ 229 (30923) 25 oktyabr 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


## Azərbaycan–Rusiya dialoqu davam etdiriləcək



**Oktyabrın 24-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Azərbaycan və Rusiya prezidentləri Düşənbədə MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində oktyabrın 9-da keçirdikləri görüşün davamı olaraq ikitərəfli gündəliyin bir sıra aktual məsələlərini müzakirə ediblər.

Dövlət başçıları iqtisadi-ticari əlaqələrin daha da inkişaf etdirilməsinə, həmçinin enerji və nəqliyyat-logistika sahələrində birgə layihələrin həyata keçirilməsinə qarşılıqlı maraqlarını təsdiqləyiblər.

Telefon söhbəti zamanı regional əməkdaşlığın bəzi aspektlərinə və beynəlxalq vəziyyətə toxunulub.

Müxtəlif səviyyələrdə təmasların davam etdirilməsi barədə razılıq əldə olunub.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan “yaşıl enerji” ölkəsinə çevrilir

*2 yaşı tamam olan “Qaradağ” GES-də 1 milyard 9 milyon kilovat-saat enerji hasil edilib*



**Azərbaycanın zəngin bərpaolunan enerji potensialının beynəlxalq miqyasda təqdimatı sayılan “Qaradağ” Günəş Elektrik Stansiyanın (GES) istismara verilməsindən 2 il ötür. 230 meqavat gücündə olan bu nəhəng “yaşıl enerji” məkanı bir neçə gün əvvəl öz hesabına ilk milyardıncı kilovat-saat elektrik enerjisini daxil edib.**

ardı səhifə ➩ 7

## Kreativ liderliyin İlham Əliyev nümunəsi: konseptual yanaşma



Səhifə ➩ 5

## Sülhün ictimai platforması



Səhifə ➩ 3

## Avropada yenə bir kabus dolaşır



Səhifə ➩ 4

## Qareginin qara günləri başladı



Səhifə ➩ 6

## Azərbaycan avtomobil istehsalını da mənimsəyir



Səhifə ➩ 13

## Ərdoğan Tramp və Putini Türkiyəyə dəvət edib



Səhifə ➩ 6

## Ermənistanın hücumlarının faciəli nəticələri araşdırılıb



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə, müharibə və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin başlıq iclası oktyabrın 24-də davam etdirilib.**

*(ardı 8-ci səhifədə)*

## Azərbaycan 1 əsr əvvəl Türk dünyasının mərkəzi ölkəsi rolunda



Səhifə ➩ 9

## Dövlət xadiminin sənət hesabatı



Səhifə ➩ 14

## Milli kinomuz Azərbaycan coğrafiyasını əhatə edə bilirmi?




Səhifə ➩ 15

# “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Tacikistan Respublikasının Prezidenti yanında Statistika Agentliyi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nun təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikasi Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2025-ci il sentyabrın 26-da Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Tacikistan Respublikasının Prezidenti yanında Statistika Agentliyi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 oktyabr 2025-ci il**

# Yardımlı rayonunun Yardımlı–Deman–Arvana avtomobil yolunun təmiri ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** İki min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Yardımlı–Deman–Arvana avtomobil yolunun dağılmış hissəsinin bərpası və istinad divarlarının tikintisi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 2,0 (iki) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 oktyabr 2025-ci il**

# S.S.Səfərovun Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Sərdar Süleyman oğlu Səfərov Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 oktyabr 2025-ci il**

# S.S.Səfərova “general-mayor” ali hərbi rütbəsinin verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi Sərdar Süleyman oğlu Səfərova “general-mayor” ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 oktyabr 2025-ci il**

# İ.R.Abbasovun Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi vəzifəsindən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** General-mayor İlqar Rza oğlu Abbasov Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 oktyabr 2025-ci il**

# Bakı Arbitraj Mərkəzində beynəlxalq konfrans





**Bakıda Bakı Arbitraj Mərkəzinin açılışına həsr olunmuş beynəlxalq konfrans təşkil edilib.**

Tədbirin məqsədi dünyanın müxtəlif regionlarında arbitraj sahəsində fəaliyyət göstərən peşəkar hüquqşünaslar arasında bilik mübadiləsini təşviq etmək, dövlət və özəl sektorda çalışan hüquqşünaslar arasında əməkdaşlığı gücləndirmək, eləcə də Azərbaycanda arbitraj sektorunun inkişafı istiqamətində müzakirələr üçün dinamik platforma yaratmaqdır.

Konfransda 600-dən çox iştirakçı, o cümlədən 70-dən artıq dövlət rəsmisi, hüquqşünas, xarici qonaq iştirak edib.

Tədbirdə Bakı Arbitraj Mərkəzinin sədri Kəmalə Mehdiyeva çıxış edərək bildirib ki, mərkəz yüksək beynəlxalq standartlara uyğun olaraq yaradılıb. Digər arbitraj mərkəzləri kimi Bakı Arbitraj Mərkəzinin də müvafiq qərarları olacaq: "Arbitraj qaydaları hazırdır. Bu qaydalar rus, fransız və türk dillərində də tərtib olunacaq”.

Ali Məhkəmənin sədri İnam Kərimov çıxışında qeyd edib ki, məhkəmələr və arbitraj bir-birinə rəqib deyil. Azərbaycan arbitrajı əsas beynəlxalq müqavilələrin, o cümlədən 1958-ci il Nyu-York Konvensiyasının iştirakçısıdır: “Arbitrajın yaxşı işləməsi üçün bizə güclü institutlar, qanunları ardıcıl və dürüst şəkildə tətbiq edən məlumatlı hakimlər lazımdır. Bu, arbitraja olan etimadı artıracaq və Azərbaycanda qanunun aliliyini daha da möhkəmləndirəcək”.

Ədliyyə naziri Fərid Əhmədov vurğulayıb ki, Azərbaycanda beynəlxalq arbitraj proseslərinə dərindən bələd olan, bu sahədə ixtisaslaşmış yeni nəsil gənc hüquqşünaslar formalaşıb: “Bakı Arbitraj Mərkəzinin yaradılması Azərbaycanın hüquq sisteminin beynəlxalq arenaya inteqrasiyası və ədalətli mübahisə həlli mexanizmlərinin qurulması istiqamətində mühüm addımdır”.

Avropa İttifaqı Şurasının keçmiş prezidenti Şarl Mişelin sözlərinə görə, arbitraj dövlətlərə, şirkətlərə və beynəlxalq investorlara sakit, etibarlı və ədalətli mühitdə fikir ayrılıqlarını həll etmək imkanı verir: “Vasitəçilikdən və barışdırmadan fərqli olaraq, arbitraj məhkəmə qüvvəsinə malik bağlayıcı qərar çıxarır. Bu, hüquqi aydınlıq və sabitlik yaradır. Daimi məhkəmələrdən fərqli olaraq, arbitraj prosesi çevikdir. Tərəflər öz arbitrlərini seçə, qaydalarını müəyyənləşdirə və nəticənin obyektivliyinə inanaraq bu prosesi şəffaf şəkildə idarə edə bilirlər. Bu baxımdan, arbitraj yalnız hüquqi mexanizm deyil, həm də etimadın, sülhün və hüququn üstünlüyünün simvoludur”.

Xüsusi Hüququn Unifikasiyası üzrə Beynəlxalq İnstitutun keçmiş prezidenti Maria Chiara Malaguti deyib ki, regionda iqtisadi inteqrasiyanın, ticarət və investisiya əməkdaşlığının inkişafı üçün etibarlı hüquqi mühitin yaradılması vacibdir. Bu baxımdan, Bakıda Beynəlxalq Arbitraj Mərkəzinin təsis edilməsi çox mühüm və vaxtında atılmış addımdır“.

Çıxışlardan sonra tədbir panel müzakirələrlə davam edib.

***XQ***

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2025-ci ilin noyabr ayında vətəndaşların qəbulu

## C Ə D V Ə L İ

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | **3** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | **4** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | **5, 19** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | **6** |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | **7, 21, 28** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | **7** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | **12** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | **13** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | **14** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | **17** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | **17** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | **18** |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** | **18** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | **18** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | **20** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | **21** |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | **4** |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | **5** |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | **5** |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | **6** |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | **6** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | **28** |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | **28** |
| * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | **7** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Sahib Ələkbərovun vətəndaşlarla görüşü



**İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov Salyan şəhərində vətəndaşlarla görüşüb.**

Görüşə gələn vətəndaşlar əmlak, vergi, sahibkarlığın inkişafı və s. məsələlərlə bağlı müraciət ediblər.

İqtisadiyyat Nazirliyinin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş görüşdə vətəndaşların müraciətləri dinlənilib, sorğu xarakterli müraciətlərlə bağlı vətəndaşlara əsaslandırılmış cavab və izahat verilib. Araşdırma tələb edən müraciətlər qanunvericiliyə uyğun tədbirlərin görülməsi üçün aidiyyəti strukturlara yönləndirilib.

***XQ***

# Sülhün ictimai platforması

**2025-ci il oktyabrın 21–22-də Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələrindən ibarət 5 nəfərlik heyətin İrəvana səfəri Cənubi Qafqazda sülh gündəliyinin yeni və mühüm mərhələsinə keçidin rəmzi hesab oluna bilər. Səfər ictimai şüurun və humanitar qarşılıqlı etimadın bərpası baxımından strateji əhəmiyyət daşıyır.**

Cənubi Qafqaz regionunda baş verən son hadisələr bir daha sübut etdi ki, sülhün davamlılığı yalnız siyasi sazişlərin imzalanması ilə təmin edilmir. Siyasi sənədlər prosesin hüquqi çərçivəsini müəyyənləşdirir, lakin sabit və etibarlı barış mühiti cəmiyyətlərin düşüncə tərzində, ictimai münasibətlər sistemində və kollektiv psixologiyada formalaşmalıdır.

Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlar məhz bu məntiqi əks etdirir. Rəsmi səviyyədə danışıqlar paralelində vətəndaş cəmiyyətlərinin birbaşa təması yeni mərhələnin əsas xüsusiyyətinə çevrilir. Rəsmi Bakı tərəfindən Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin İrəvana səfərinin dəstəklənməsi dövlətin sülh strategiyasının çoxmərhələli və çoxsəviyyəli xarakter daşıdığını nümayiş etdirir. Azərbaycan rəhbərliyi anlayır ki, siyasi sənədlər imzalanmaqla münaqişənin rəsmi mərhələsi bitir, amma sosial sülhün başlanğıcı bundan sonra gəlir.



İctimai diplomatiya – yəni xalq diplomatiyası – bu prosesin emosional və mənəvi dayaqlarını formalaşdırır. Dövlət səviyyəsində imzalanan sülh razılaşması cəmiyyətin içində qəbul olunmadıqca, onun davamlılığı təhlükə altında qalır. Məhz bu baxımdan, vətəndaş cəmiyyəti nümayəndələrinin İrəvana səfəri dövlət diplomatiyasının "yumşaq güc" aləti kimi strateji mahiyyət kəsb edir.



* * *

Sülh prosesində "ictimai platforma" anlayışı sülhün sosial arxitekturasını ifadə edir. Bu platforma, mahiyyət etibarilə, dövlətlərin deyil, cəmiyyətlərin bir-birinə doğru addımlaması üçün yaradılan kommunikativ məkandır. Burada məqsəd siyasi razılaşmanı sosial müstəviyə keçirmək, yəni diplomatik qərarların cəmiyyətlərdə psixoloji qəbulunu təmin etməkdir. Əgər klassik diplomatiya dövlətlərin rəsmi nümayəndələri arasında aparılan danışıqlar və sənədlərlə məhdudlaşırsa, ictimai diplomatiya fərqli bir səviyyədə işləyir. Burada vətəndaş cəmiyyəti institutlarının, qeyri-hökumət təşkilatlarının, ekspert və ziyalı çevrələrinin fəaliyyəti ilə formalaşan "paralel diplomatik mühit" nəzərdə tutulur. Onun üstünlüyü ondan ibarətdir ki, diplomatiyanın bu növü emosional sədri və tarixi qorxuları aradan qaldıra bilir. Yəni, rəsmi diplomatiyanın toxuna bilmədiyi sahədə işləyir.

Azərbaycan bu mexanizmi sistemli və məqsədyönlü şəkildə hərəkətə gətirir. Çünki dövlət səviyyəsində imzalanacaq sülh müqaviləsi əgər cəmiyyətlərdə inam mühiti yaranmasa, kağız üzərində qalmaq riski daşıyır. Belə bir reallığı rəsmi Bakı çox aydın görür və buna görə də diplomatiyanın "sərt güc" mərhələsindən "yumşaq güc" mərhələsinə keçidi strateji xətt kimi qəbul edib.

Belə bir kontekstdə "sülhün ictimai platforması" anlayışı yeni siyasi funksiyaya malikdir: o, postmünaqişə dövrünün psixoloji bərpa mexanizmi kimi çıxış edir. Yəni cəmiyyətin yaddaşında formalaşmış qarşıdurma stereotiplərini yumşaldır, emosional gərginliyi azaldır, sosial təmasları mümkün edir.

Əslində, bu platforma həm də dövlət diplomatiyasının dayanıqlılığını təmin edən təhlükəsizlik amilidir. Çünki sülhün qorunması artıq yalnız orduların və ya sərhədlərin deyil, cəmiyyətlərin qarşılıqlı anlayışının gücündən asılıdır.

* * *

Xalq diplomatiyası – yəni xalqdan xalqa ünsiyyət və mədəni təmaslar – siyasi sərhədlərin yumşalması və etimad mühitinin bərpası üçün ən təsirli mexanizmlərdən biridir. Tarix sübut edib ki, xalq diplomatiyası olmadan siyasi barış uzunömürlü olmur. Münaqişə və gərginlik dövrlərindən sonra cəmiyyətlər arasında yaranan psixoloji divarları insanlar aradan qaldıra bilir.

Bunun ən parlaq nümunələrindən biri İkinci Dünya müharibəsindən sonra Almaniya və Fransa arasında qurulan dialoq modelidir. Onların münasibətləri yüzillərlə düşmənçilik üzərində qurulmuşdu. Lakin məhz 1950–60-cı illərdə ziyalılar, gənclər, alimlər və media nümayəndələri arasında aparılan sistemli əməkdaşlıq qarşılıqlı anlaşma və etimad mühitinin bərpasına gətirib çıxardı. Bu dövrdə yaradılan "Alman–Fransız Gənclər Ofisi" sonradan Avropa inteqrasiyasının sosial dayağına çevrildi. Həmin institut vasitəsilə minlərlə gəncin bir-biri ilə tanışlığı, ortaq layihələrdə iştirakı keçmiş düşmən xalqları tərəfdaşa çevirdi.

Bu tarixi nümunə bir daha göstərir ki, ictimai münasibətlərin istiləşməsi olmadan siyasi sabitlik davamlı olmur. Diplomatik sazişlər formal çərçivə yaradır, amma sülhün reallığa çevrilməsi emosional və mədəni anlaşma tələb edir.

Azərbaycan və Ermənistan arasında bu istiqamətdə atılan addımlar da məhz belə bir yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. İrəvan səfəri, əslində, Cənubi Qafqaz üçün "xalq diplomatiyası" rolunu oynayır. Burada artıq əsas məqsəd qarşı tərəfi siyasi rəqib kimi deyil, insani reallıq kimi qəbul etmək, yəni, birgə gələcəyin mümkünlüyünü ictimai şüurda formalaşdırmaqdır. Azərbaycan və Ermənistan arasında yaranmağa başlayan bu birbaşa təmaslar, əgər ardıcıl davam etdirilərsə, yeni regional düşüncə modelinin formalaşmasına zəmin yaradacaq.

* * *

Azərbaycanın sülh strategiyası regionun ictimai-siyasi transformasiyasını da hədəfləyir. Prezident İlham Əliyevin son çıxışlarında səsləndirdiyi "sülh müqaviləsi imzalanmaq üzrədir" fikri bu səfərlərlə paralel oxunmalıdır. Dövlət başçısının bu bəyanatı onu göstərir ki, Azərbaycan sülhü yalnız siyasi sənəd kimi deyil, həm də sosial reallığa çevrilməli olan proses kimi dəyərləndirir. Məhz buna görə də rəsmi Bakı diplomatik razılaşmanın arxasınca gedən ictimai inam mühitinin yaradılmasını prioritet sayır.

Azərbaycanın sülh konsepsiyası üç əsas sütun üzərində qurulub. Birincisi, suverenlik və ərazi bütövlüyünün tanınması – bu, hüquqi baza kimi sülhün legitimliyini təmin edir. İkincisi, kommunikasiyaların açılması və iqtisadi əməkdaşlıq – bu, praktik baza kimi dövlətlərarası qarşılıqlı asılılığı və maraqlar balansını formalaşdırır. Üçüncüsü isə, cəmiyyətlərarası etimadın bərpası – yəni sosial baza, sülhün dayanıqlığını təmin edən mənəvi dayaqlardır. İrəvan görüşü məhz bu üçüncü komponentin aktivləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Prosesin davamlı formatda planlaşdırılması onu göstərir ki, Bakı və İrəvan arasında artıq "epizodik diplomatiya"dan "sistemli dialoq mexanizminə" keçid baş verir. Əgər ilkin mərhələdə cəmiyyətlərarası təmaslar müsbət nəticələr versə, növbəti mərhələdə Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin Bakıya səfəri reallaşa bilər. Qarşılıqlı səfərlər sülhün sosial dərinliyini artırmaqla yanaşı, iki mühüm təsir yarada bilər: Birincisi, informasiya manipulyasiyalarının təsirini azaldacaq. İndiyə qədər tərəflər bir-biri haqqında əsasən media və siyasi ritorika vasitəsilə fikir formalaşdırırdı. Birbaşa ünsiyyət isə stereotiplərin aradan qalxmasına, "digər tərəfi" real insan kimi tanımağa imkan verəcək. İkincisi, emosional sədləri zəiflədəcək. Qarşılıqlı empatiya — yəni bir-birinin qorxularını, ümidlərini anlamaq bacarığı — sülhün ən güclü silahıdır.

Beləliklə, Cənubi Qafqazda yeni bir paradiqma formalaşır: rəsmi diplomatiya ilə yanaşı, xalq diplomatiyası da regionun təhlükəsizlik memarlığının tərkib hissəsinə çevrilir. Tarix dəfələrlə sübut edib ki, sülhü dövlətlər imzalayır, amma onu xalqlar qoruyur. Azərbaycanın təşəbbüsü bu həqiqətin növbəti sübutudur: sülh davam edən bir mədəni prosesdir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Bahar Muradova Gədəbəydə qəbul keçirib

**Oktyabrın 24-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Gədəbəy rayonunda vətəndaşlarla görüşüb.**



Görüşdən əvvəl Ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq, önünə gül dəstələri qoyulub, əziz xatirəsi dərin ehtiramla yad edilib.

Görüşdə Gədəbəy və Şəmkir rayon sakinlərinin müraciətləri dinlənilib. Müraciətlər arasında alimentin ödənilməsi, hüquqi yardım, təhsilə sosial dəstəyin göstərilməsi və digər məsələlər yer alıb. Hər bir müraciət fərdi qaydada dinlənilib, qaldırılan məsələlərin qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verilib.

***XQ***

**Oktyabrın 20-21-də İrəvanda Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin görüşü baş tutub. Görüşdə iki ölkə arasında etimad mühitinin yaradılması prosesi müzakirə olunub. Otuz beş ildən sonra Bakı ilə İrəvan arasında çarter reysi həyata keçirilib, "Zvartnots" hava limanında Azərbaycan təyyarəsi eniş edib. Bu, şübhəsiz ki, tarixi hadisədir.**

# Uzun yolun başlanğıcı

## *Günün əsas məsələsi etimad mühitinin yaradılmasıdır*

Oxuculara xatırladaq ki, İrəvanda Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə "dəyirmi masa" keçirilib. Görüş bir qrup ictimai fəal və ekspert icmasının birgə təşəbbüsü və hər iki ölkənin rəsmi qurumlarının dəstəyi ilə təşkil olunub. "Dəyirmi masa"da Ermənistan tərəfdən Areq Koçinyan, Boris Navasardyan, Naira Sultanyan, Narek Minasyan və Samvel Meliksetyan iştirak ediblər. Azərbaycan tərəfini Fərhad Məmmədov, Rusif Hüseynov, Ramil İsgəndərli, Kəmalə Məmmədova və Dilarə Əfəndiyeva təmsil ediblər.

**İrəvanda olmuş Azərbaycan vətəndaş cəmiyyəti nümayəndə heyətinin 5 üzvündən biri, Topçubaşov adına Bakı Analitik Mərkəzinin direktoru və həmtəsisçisi Rusif Hüseynovla** söhbətimiz atılan ilk addımın yaratdığı təəssürat, eləcə də vətəndaş cəmiyyətlərinin sülh prosesinə verəcəyi töhfə ətrafındadır.

**– Rusif bəy, iki ölkəni sülhə aparan yolda vətəndaş cəmiyyəti institutlarının missiyasını necə dəyərləndirərdiniz?**

– Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin görüşünün baş tutması həqiqətən də tarixi bir mərhələnin başlanğıcı sayıla bilər. İndiyədək hər iki ölkədən müxtəlif ictimai-siyasi xadimlərin, jurnalistlərin, idmançıların, bəzi hallarda deputatların çeşidli formatlı tədbirlər çərçivəsində Azərbaycana və Ermənistana səfərləri baş tutmuşdu. Amma budəfəki səfər sırf ikitərəfli təşəbbüsün nəticəsi kimi bu formatda həyata keçirildi. Məhz bu baxımdan biz bu səfəri çox yüksək qiymətləndiririk. Səfərimizin məqsədi bu il avqustun 8-də Vaşinqtonda keçirilən tarixi görüşün və orada imzalanmış Birgə Bəyannamənin ruhuna uyğun olaraq, sülh prosesinə vətəndaş cəmiyyətlərinin verə biləcəyi töhfəni müəyyənləşdirmək və hər iki xalq üçün bu taleyüklü prosesdə yer almaqdır. Beləliklə, Vaşinqton Bəyannaməsinin ruhuna tam uyğun olaraq, Azərbaycan və Ermənistan arasında danışıqların təkcə siyasi müstəvidə deyil, həm də ictimai səviyyədə, etimad quruculuğu tədbirləri çərçivəsində dəstəklənməsi zərurətinin dərk edilməsi kontekstində bu görüşün böyük əhəmiyyəti var idi. Bir daha vurğulamaq istərdim ki, azərbaycanlı vətəndaş cəmiyyəti təmsilçilərinin birbaşa Ermənistana səfəri və orada erməni həmkarları ilə fikir mübadiləsi aparmaları yeni mərhələnin başlanğıcından xəbər verir.



**– Azərbaycan Prezidentinin Ermənistanla nəqliyyat dəhlizinin açılması ilə bağlı qərarı İrəvanda necə qarşılanıb?**

– Bu barədə bizə elə görüş zamanı məlumat verdilər və əlbəttə ki, dərhal müəyyən müzakirələrə səbəb oldu. Həm İrəvanda görüşdüyümüz erməni ekspertlər, həm də yerli mediada, sosial şəbəkələrdə paylaşılan rəylərdən belə qənaətə gəlmək olardı ki, Azərbaycan Prezidentinin bu qərarı cəmiyyətdə müsbət reaksiya doğurub. Onlar rəsmi Bakının atdığı bu addımı Ermənistan–Azərbaycan münasibətlərinin normallaşmasına verilən yeni ruh, təkan kimi dəyərləndirirlər. Bu ovqatı iştirakçısı olduğumuz ikitərəfli müzakirələr zamanı müşahidə edirdik. Nümayəndə heyətlərimiz ölkələrimizin cəmiyyətlərini narahat edən geniş spektrli mövzulara, o cümlədən Ermənistan və Azərbaycan arasında sülh prosesinin perspektivləri, humanitar məsələlər, normallaşmış münasibətlər kontekstində iqtisadi və logistik imkanlar, gələcək etimad quruculuğu tədbirləri kimi məsələlərə toxundular. Bu zaman tərəflər birgə fəaliyyət planlarının və perspektivlərinin işlənib hazırlanması məsələlərinə də xüsusi diqqət yetirdilər.

**– Görüşdüyünüz Ermənistan rəsmilərinin dilindən eşitdikləriniz rəsmi İrəvanın mövqeyi barədə sizdə hansı qənaəti formalaşdırdı?**

– Xəbərlərdən izlədiyiniz kimi, bizim Ermənistan Respublikası Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla görüşmək və onun fikirlərini eşitmək imkanımız oldu. Qeyd etməliyəm ki, bu, həm də bizim səfərimizin olduqca əhəmiyyətli məqamı idi. Çünki Azərbaycan nümayəndə heyəti üçün Ermənistan dövlətinin mövqeyini öyrənmək, rəsmi İrəvanın sülh prosesinə hansı bucaqdan baxdığını anlamaq, eləcə də bizi maraqlandıran digər məsələlərə toxunmaq, müəyyən suallara cavab almaq çox vacib idi. Onu deyə bilərəm ki, Armen Qriqoryan çıxışında və bizimlə söhbətində daha çox müsbət notlara kökləndi, əsasən nikbin mövzular üzərində dayandı. Yəni sülh prosesi ilə bağlı Qriqoryanın müsbət fikirdə olduğunu, onun simasında Ermənistan isteblişmentinin Azərbaycanla münasibətlərin tezliklə normallaşmasını istədiklərini hiss etməmək mümkün deyildi.

**– Qeyri-hökumət təşkilatlarının iki ölkə arasında etimad mühitinin yaradılmasında hakimiyyət strukturları ilə əməkdaşlığının daha hansı formalarını məqbul sayırsınız?**

– Bizim konkret məqsədlərimiz, planlarımız və ideyalarımız var. Ümid edirik ki, nəzərdə tutduğumuz çərçivədə Azərbaycan və Ermənistan liderləri tərəfindən həyata keçirilən dövlətlərarası sülh gündəliyinə öz töhfəmizi verə biləcəyik. Məqsədimiz bu prosesin ardıcıllığını və davamlılığını qoruyub saxlamaqdır. İrəvan görüşündə gördüklərimiz və eşitdklərimiz qarşı tərəfin də bu niyyətdə olduğunu deməyə əsas verir.

**– İki xalq arasındakı münasibətlərin Qarabağ münaqişəsinə qədərki səviyyəyə qayıdışını mümkün hesab edirsinizmi?**

– Bu, uzun bir yolun yalnız başlanğıcıdır. Qarşıda hər iki xalqı keçilməsi vacib sayılan bir mərhələ gözləyir. Unutmaq olmaz ki, bütöv bir nəsil müharibə şəraitində böyüyüb. Azərbaycan ərazilərinin işğalı keçmişdə bu cür təşəbbüslərin reallaşmasını mümkünsüz edib. Üstəlik, otuzillik münaqişənin travmatik fəsadları hələ də özünü göstərməkdədir. İstər Azərbaycanda, istərsə də Ermənistanda belə görüşləri xoş qarşılamayan, öz aralarında daş divar hörməyi üstün tutan insanlara rast gəlmək olar. Biz onları günahlandıra bilmərik. Sadəcə, onu qeyd etməliyik ki, həyat təsəvvür etdiyimizdən daha sadə və qiymətlidir. Əgər ölkələr öz aralarında sülhə nail olarsa, əmin-amanlıq hökm sürərsə, münasibətlərin normallaşması, insanların əminliklə yaxın əlaqələr qurması zaman məsələsidir.

* * *

İrəvan görüşü iki ölkənin hökumətləri və xalqları arasında sülhə nail olmaq üçün ümumi baxışın və vahid yanaşmanın formalaşması üçün açar rolunu oynayan tədbirlərdən bir kimi dəyərləndirilə bilər. Ermənistan və Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçilərinin İrəvan görüşünə hər ki tərəfin hakimiyyət qurumlarının hərtərəfli dəstək verməlari isə xüsusi qeyd olunmalıdır.

Rusif Hüseynov kimi biz də ümid edirik ki, ən müxtəlif formatlarda ikitərəfli təmaslar, birgə tədbirlər və Ermənistan hökumətinin bununla paralel olaraq revanşist-millətçi ideyalarla mübarizə səyləri hay cəmiyyətinə yeni reallığı daha yaxşı anlamasına və qəbul etməsinə imkan verəcək. Eyni zamanda, bütün sahələrdə əməkdaşlıq bir faktı da istisna etmir ki, Azərbaycan daim milli və dövlət maraqlarının keşiyində dayanmalıdır. Sonda Ermənistan ictimaiyyəti mütləq bu qənaətə gələcək ki, qonşu azərbaycanlılarla müharibə aparmaqdansa, onlarla sülh şəraitində yaşamaq, əməkdaşlıq etmək onların özləri üçün faydalıdır.

***Söhbəti qələmə aldı:***
***İmran BƏDİRXANLI***
***XQ***

**Oktyabrın 24-də Milli Məclisin növbəti plenar iclası keçirildi. İclas ənənəvi olaraq sədr Sahibə Qafarovanın hesabat xarakterli çıxışı ilə başladı. Milli Məclisin sədri son plenar iclasdan ötən vaxtdan bu yana gördüyü işlərdən bəhs etdi. Oktyabrın 21-də Ermənistan parlamentinin sədri Alen Simonyanla görüş keçirdiyini deyən Sahibə Qafarova bildirdi ki, görüşdə Vaşinqton sammitində əldə olunmuş razılaşmaların və münasibətlərin normallaşması üçün görülən tədbirlərin böyük əhəmiyyəti vurğulandı.**

# Milli Məclisin plenar iclası



Gündəliyə daxil olan məsələlərin müzakirəsindən əvvəl bir sıra deputatlar çıxış etdilər. Milli Məclisin deputatı Hikmət Babaoğlu Azərbaycanın 2020-ci ildən bəri sülhün bərqərar olunması istiqamətində atdığı addımları və bu prosesdə üzləşdiyi çətinlikləri təhlil etdi. Deputat qeyd etdi ki, Azərbaycan hazırda sülh prosesinin real mərhələsinə daxil olub: "İki əsrlik münaqişənin, xüsusilə də onun 90 il davam edən aktiv mərhələsinin ardından, 2020-ci ildən sonra yaranan yeni şərait sülhün bərqərar olması üçün real imkanlar açıb. Belə dərin və köklü qarşıdurmadan dərhal sonra tam sülhün təmin olunması təbii ki, mümkün deyildi. Buna görə də 2020-ci il 10 noyabr tarixindən etibarən Prezident İlham Əliyevin irəli sürdüyü sülh konsepsiyası ardıcıl və mərhələli şəkildə reallaşdırılmağa başlanıb".

Deputat Müşfiq Cəfərov isə çıxışını son günlərdə aktual bir məsələyə yönəltdi. Parlamentari bildirdi ki, son günlər kəndlərdə heyvanlar arasında dabaq xəstəliyinin yayılması ilə bağlı ciddi narahatlıq müşahidə olunur. Onun sözlərinə görə, sosial şəbəkələrdə də fermerlərin və heyvandarlıqla məşğul olan vətəndaşların bu məsələ ilə bağlı paylaşmaları, çağırışları artır: "Bu səbəbdən, dabaq xəstəliyinə qarşı profilaktika dövlət səviyyəsində prioritet məsələ kimi dəyərləndirilməlidir. Ən vacib addım mütəmadi vaksinasiya və peyvəndləmə işlərinin fasiləsiz aparılmasıdır. Riskli ərazilərdə bütün sağlam heyvanlar dövri şəkildə peyvəndlənməli, vaksin təminatı vaxtında və tam həcmdə həyata keçirilməlidir".

Əgər bu gün sülh bərqərar olarsa, yaxın 15 ildə region 16 milyon əhalisi olan vahid iqtisadi məkan kimi inkişaf edəcək, minlərlə yeni iş yeri yaranacaq və resurslar silahlanmaya deyil, rifaha yönələcək. Qarabağın azadlığı sülhün əsasını qoyub. İndi xalqların müharibədən yox, barışdan qazanmasının vaxtıdır".

*

Daha sonra gündəlikdə yer alan məsələlərin müzakirəsinə keçildi. İlk olaraq, məhkəmələr haqqında ilk 5 məsələ barəsində çıxışlar edildi. Bakı, Gəncə və Sumqayıt Apellyasiya məhkəmələrinə hakimlər təyin edildi. Ağalarov Həmid Azər oğlu, Hümbətov Fəhmin Zaur oğlu, Qasımov Vidadi Kamal oğlu, Mədətli Fərid İlham oğlu, Sevdimalıyeva Günel Arif qızının Bakı Apellyasiya Məhkəməsinə, Qəhrəmanov Əkrəm Sabir oğlu, Məmmədov Turan Nurulla oğlunun Gəncə Apelyasiya Məhkəməsinə, Ramin Xəlilov Adilxan oğlunun isə Sumqayıt Apellyasiya Məhkəməsinə hakim təyin edilməsi təklif olundu. Milli Məclis həmçinin Naxçıvan Ali Məhkəməsinin hakimi Fərman Abbasovun vəzifəsindən azad edilməsini təsdiqlədi. "Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında" məsələnin müzakirəsindən sonra Xəyalə Adil qızı Cəmilova və Zaur Nazim oğlu Hüseynovun Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək, Ali Məhkəmənin hakimi təyin olunması təklif edildi. Məsələlər səsverməyə çıxarılaraq hər biri ilk oxunuşda qəbul edildi.

Layihələrin müzakirəsi zamanı çıxış edən deputat Siyavuş Novruzov hakimlərin sayının artırılmasını təklif etdi: "Statistikanın bizə verdiyi məlumata görə, ildə 13 min adam boşanır. Demək olar ki, bir hakim bir gündə 7 boşanmaya baxır. Ona görə də hesab edirəm ki, hakimlərin sayı artırılmalıdır. Məhkəmə Hüquq-Şurası bəlkə də imtahanları yüngülləşdirməlidir ki, hakimlərin sayı çoxalsın ki, qərarların qəbul olunmasında vətəndaşlarımız əziyyət çəkməsin və düzgün olaraq qərarlar qəbul olunsun".

"İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanuna dəyişikliklər parlamentin plenar iclasında müzakirəyə çıxarıldı. Dəyişikliyə əsasən, sığorta hadisəsi nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunması barədə qərar verildi. Sənəd səsverməyə qoyularaq birinci oxunuşda qəbul edildi.

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə aparılan müzakirələrdən sonra əldə olunan nəticəyə əsasən, heç bir yerdə işləməyən, eləcə də sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan şəxslər 2026-cı ildən icbari tibbi sığortanın xidmətlərindən istifadəyə görə ödəniş edəcəklər. Hazırda minimum aylıq əməkhaqqının 400 manat olmasını nəzərə aldıqda sözügedən məbləğ illik 192 manat təşkil edəcək. Sənəd səsverməyə çıxarılaraq qəbul edildi.

Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul edildi. Layihəyə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən yaradılmış sənaye parklarında fəaliyyət göstərən rezidentlərin həmin parklardakı fəaliyyətdən əldə etdikləri mənfəət 2025-ci il yanvarın 1-dən etibarən 6 il müddətinə mənfəət vergisindən azad olunacaq.

Həmçinin, sənaye parklarında eyni fəaliyyətlə məşğul olan rezidentlər həmin fəaliyyət çərçivəsində istifadə etdikləri əmlaka görə də 2025-ci il yanvarın 1-dən başlayaraq 6 il müddətinə əmlak vergisini ödəməkdən azad ediləcəklər. Eyni güzəşt torpaq vergisinə də şamil olunur — sənaye parklarında fəaliyyət göstərən rezidentlər 2025-ci il yanvarın 1-dən etibarən 6 il ərzində sənaye parkı ərazisində istifadə etdikləri torpaqlara görə torpaq vergisindən azad ediləcəklər.



Həmçinin gündəlikdə olan "Dövlət xidmətləri haqqında", "Avtomobil nəqliyyatı haqqında", Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "İpoteka haqqında", Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında", Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, "Nəqliyyat haqqında" və "Avtomobil nəqliyyatı haqqında", "Ümumi təhsil haqqında" və digər qanun layihələri müzakirəyə çıxarılacaq qəbul edildi. "Ümumi təhsil haqqında" qanuna edilən dəyişikliyə əsasən, Milli Məclis müəllimlərin işə qəbulu ilə əlaqədar keçirilən müsabiqədə iştirakın ödənişli olması haqda təklifi ilk oxunuşda qəbul etdi. Lakin ödəniş ilk dəfə müsabiqədə iştirak edənlər, əlilliyi olan şəxslər, ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri, şəhid ailəsinin üzvləri və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslərə münasibətdə nəzərdə tutulmayıb.

***Tacir SADIQOV***
***XQ***

# Avropada yenə bir kabus dolaşır

## *Fransanın Makron böhranı, yaxud lidersiz ölkənin taleyüklü sualı*

**Avropa siyasətinin böyük səhnəsində bəzən ən parlaq ulduzlar belə sönməyə məhkumdur. Bir zamanlar qitənin gələcəyi üçün cəsarətli vizyonlar cızan, Sorbonna Universitetinin kürsüsündən "strateji muxtariyyət" manifestini elan edərək bütün qitəni silkələyən Fransa Prezidenti Emmanuel Makron Avropa Şurası iclasına tamamilə fərqli statusda qədəm qoydu. Artıq onun çiynində "Avropanın ideya adamı" və ya "baş vizioner" mantiyası yoxdur. Diplomatik koridorlarda pıçıldaşan yeni və amansız reputasiya var. Avropa İttifaqı (Aİ) liderləri ifrat sağçı qüvvələrin qitə miqyasında yüksəlişindən tutmuş qlobal iqtisadi rəqabətdə geridə qalmaq təhlükəsinə qədər mövcud "ekzistensial böhranlar" fonunda strategiyalar müəyyənləşdirmək üçün toplaşarkən bir zamanlar bütün müzakirələrin mərkəzində olan Makronun iddialı təkliflərinə və intellektual enerjisinə arxalana bilmirlər.**

Aİ-nin müxtəlif ölkələrindən olan onlarla diplomat və yüksək rütbəli rəsmilərlə aparılan və hamısının açıq danışa bilmək üçün anonimlik şərti ilə razılıq verdiyi söhbətlər kədərli mənzərəni bütün detalları ilə göstərir. Məlum olur ki, 47 yaşlı mərkəzçi liderin Fransadakı dərin siyasi çətinlikləri və ikinci müddətinin sonunda öz siyasi irsini qorumaq yönündəki həssas səyləri onu Avropa miqyasında irəliləyişin aparıcı qüvvəsindən çox tərəqqinin qarşısını alan maneəyə çevirib. Onun hər bir addımında, hər bir bəyanatında artıq "Qoca qitə"nin gələcəyinə yönəlik cəsarətli baxışlar yoxdur.



Bu yeni reallığın konkret təzahürləri göz qabağındadır. Məsələn, Avropa Komissiyasının sədri Ursula Fon der Lyayenin artan hibrid təhdidlərə qarşı Avropa səmasını qorumaq üçün təklif etdiyi cəsarətli "dron divarı" ideyası Makrona görə reallıqdan uzaqdır. Bəs Makronun özünün bir zamanlar şüara çevirdiyi "Planetimizi yenidən böyük edək" ideyası? Bəlkə bu, uzaq gələcəkdə mümkün olacaq. Amma indi nə Avropa şirkətlərinin qlobal təchizat zəncirlərində insan haqları və ekoloji pozuntulara nəzarət etməsini tələb edən "məsuliyyətlilik direktivi"nin, nə də 2040-cı il üçün müəyyən edilən iddialı iqlim hədəflərinin vaxtı çatıb.

Son aylar Makron Avropanın böyük strateji layihələrindən üz döndərərək daha ehtiyatlı, qapalı siyasət yürütməyə başlayıb. O, Fransada ictimai narazılıq doğura biləcək istənilən təklifə şiddətlə qarşı çıxır, özünün birbaşa rəhbərlik etmədiyi və ya təşəbbüskarı olmadığı beynəlxalq layihələrə qarşı rəqabətcil mövqe sərgiləyir. Fransa bunun əvəzində inzibati sədlərin azaldılması, bürokratiyanın yüngülləşdirilməsi kimi az mübahisəli məsələlərə diqqət yönəldib. Son həftələrdə Fransa lideri miqrasiya üzərində nəzarətin gücləndirilməsini təbliğ edir, uşaqların sosial şəbəkələrdən istifadəsinə sərt məhdudiyyətlər qoyulmasını təklif edir və Avropanın "yaşıl" siyasətinin bir hissəsi olan avtomobil istehsalçıları üçün ekoloji hədəflərlə bağlı ciddi güzəştlər qazanmağa çalışır. Bütün bunlar faydalı təşəbbüslər ola bilər, lakin heç biri bir zamanlar bütün qitə üçün "Avropa arzuları" toxuyan liderin miqyasına uyğun gəlmir. Yüksək rütbəli Aİ diplomatlarından birinin acı istehza ilə dediyi kimi: "Bu Makron daxili problemlər tərəfindən tamamilə udulub. Artıq o, əvvəlki kimi Avropanın çempionu missiyasını daşımır."

Bu vizionerliklə daxili siyasətin hesabları arasındakı ziddiyyətin ən kəskin və Fransa üçün ən xoşagəlməz təzahürü Makronun Cənubi Qafqaz siyasətində yaşandı. Bir tərəfdən Avropanın enerji təhlükəsizliyi üçün Azərbaycanın əhəmiyyətini dərk edən Aİ strategiyası mövcud ikən Makron Fransadakı daxili elektoratın hesabları və regionda Rusiyanın zəifləməsindən sonra yaranan boşluğu doldurmaq kimi illüziyalara qapılaraq açıq-aşkar Ermənistana birtərəfli dəstək siyasəti yürütdü. Bu, Azərbaycanın qətiyyətini və regionda formalaşdırdığı yeni güc balansını hesaba almayan geosiyasi avantüra idi. Parisin mövqeyi təkcə Bakı ilə münasibətləri gərginləşdirmədi, həm də Aİ-nin özünün Cənubi Qafqazda sülh və sabitlikdə maraqlı olan strateji hədəflərinə zidd getdi. Lakin Azərbaycan suverenliyini tam bərpa etdikdən və regionda dönməz reallıqlar yaratdıqdan sonra bu siyasətin tamamilə iflasa uğradığı aydın oldu. Məhz bundan sonra biz praqmatizmin ideologiya üzərindəki zəfərinin şahidi olduq: ASB-nin Brüsseldə keçirilən sammiti zamanı Emmanuel Makronun Prezident İlham Əliyevə yaxınlaşaraq onu tarixi qələbə münasibətilə təbrik etməsi, əslində, siyasi kapitulyasiya aktı, səhv siyasətin acı etirafı və reallıq qarşısında məcburi geri çəkilmə idi. Həmin epizod Makronun böyük ambisiyalarının daxili siyasətin kiçik hesabları və xarici siyasətdəki səhv proqnozlar nəticəsində necə əriyib getdiyinin bariz nümunəsinə çevrildi.

Lakin 2025-ci ilin oktyabrına gəldikdə aydın görünür ki, Makronun hesablamalarında amansız siyasət və şəxsi irs amili üstünlük təşkil edir. Bunun bariz və müttəfiqləri üçün anlaşılmaz nümunəsi məhz Aİ-nin genişlənmə siyasətindəki mövqeyidir. Makron uzun müddət Aİ-yə yeni üzvlərin, xüsusən də Ukrayna, Moldova və Qərbi Balkan ölkələrinin qəbulunun həm iqtisadi, həm də geosiyasi baxımdan zəruri olduğunu dəstəkləyirdi. Məhz o, 2022-ci ildə Avropa Siyasi İcmasını Aİ-yə namizəd ölkələr üçün bir növ "gözləmə otağı" rolunu oynayan platformanı yaratdı. Bir il sonra isə həmin namizəd ölkələrin "mümkün qədər tez" İttifaqa qəbul ediləcəyinə təntənəli şəkildə söz verdi. Bu, qitədəki geosiyasi boşluqları doldurmağa yönəlmiş strateji addım idi.

Məhz bu səbəbdən Makronun müttəfiqləri Fransa hökumətinin indi Aİ-nin qərar qəbuletmə mexanizmini islah etmək və Viktor Orban kimi liderlərin genişlənmə prosesinə daim veto qoymasının qarşısını almaq üçün yekdillik prinsipini ləğv etmək təşəbbüsünə niyə qarşı çıxdığını anlaya bilmirlər. Bu, texniki bir məsələ sayılmaz, çünki genişlənmənin praktiki olaraq mümkün olub-olmayacağını müəyyən edən əsas sualdır. Makronun Avropa Parlamentindəki "Yenilən" qrupundan olan yüksək rütbəli deputat bu addımı "Makronun əvvəlki bütün vədləri və bəyanatları ilə tam ziddiyyət təşkil edən" qərar adlandırdı. Həmin şəxs dərin məyusluqla deyib: "Bu, xüsusi nöqsandır və bizim bütün şərqli tərəfdaşlarımıza göndərdiyimiz çox pis siqnaldır."

Bəs bu kəskin dönüşün səbəbi nədir? Makronun yaxın müttəfiqinin etiraf etdiyi kimi, cavab olduqca sadə və bir o qədər də kədərlidir. Fransa prezidenti, sadəcə olaraq, ambisiyalarının bəzilərini, xüsusən də Fransa daxilində mübahisəli olanları həyata keçirmək üçün kifayət qədər siyasi kapitala malik deyil. Veto hüququndan imtina etmək kimi suverenliyin ötürülməsi ilə bağlı istənilən təklif Fransadakı skeptiklər, xüsusən də Marin Le Penin sağçı "Milli Birlik" partiyası üçün əvəzolunmaz siyasi silaha çevrilə bilər. Daxili siyasətdəki zəifliyi, parlamentdə mütləq çoxluğa malik olmaması və cəmiyyətdəki dərin parçalanmalar Makronu Avropa səhnəsində əli-qolu bağlı vəziyyətə salıb. O, bir zamanlar cəsarətlə formalaşdırdığı Avropa gündəminin girovuna çevrilib. Bu isə ölkə lideri üçün ən böyük faciədir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

*Replika*

# "Bolşevik" Rubendən "daşnak" Qeqama tərs şillə

**Nəhayət, Ermənistanda kimin kim olduğu, hansı məzhəbə qulluq etdiyi məsələsi gün işığına çıxmaqdadır. Ən azı, siyasi camedə fəallıq edənlərin, parlamentdə təmsil olunanların öz adları ilə çağırılması bizə bunu deməyə asas verir.**

Ermənistan Milli Assambleyasında müxalif "Ermənistan" blokunun üzvü, deputat Qeqam Manukyanın hakimiyyət təmsilçilərini "bolşeviklərin xələfləri" adlandırması ictimai-siyasi gündəmi məşğul edən mövzulardan biridir. Guya Paşinyan komandasının hakimiyyətə gəlməsində bolşeviklərin "danılmaz rolu" olub. Bütün cəbhələrdə məğlubiyyətə düçar olmuş, erməni ictimaiyyətinin gözündən düşmüş müxalifət nümayəndəsinin cavabı ən yüksək səviyyədə, həm də lazımi kəskinliklə verilmişdir.

Oktyabrın 23-də Dövlət Xidmətlərinin Tənzimlənməsi Komissiyasına üzvlərin seçilməsi ilə bağlı məsələnin müzakirələri zamanı hakim "Mülki Müqavilə" partiyasından parlamentin vitse-spikeri, baş nazirin Ermənistanın – Türkiyə danışıqları üzrə xüsusi nümayəndəsi Ruben Rubinyan daşnak Manukyanı ağzını açmağa peşman edib.

Ermənistan Milli Assambleyası sədrinin müavininin yerinə düşən məntiqi cavabına diqqət yetirin: "Müxalifətdə olan "Ermənistan" blokunun deputatı Qeqam Manukyan bizi, guya "Daşnaksütyun" partiyasına qarşı vuruşan bolşeviklərin nəslindən olmaqda ittiham edir. Bu sizin ciddi sözünüzdür? Onda sualıma cavab verin: Kommunist Partiyasının "görkəmli nümayəndəsi" Vardançik (Gümrünün həbs edilmiş meri Vardan Qukasyan nəzərdə tutulur -red.) kimin dəstəyi ilə Gümrü şəhərinin meri oldu? Bəlkə bizim dəstəyimizlə? Bütün bu biabırçılıqdan sonra hələ də bizi hər cür qanun pozuntularında ittiham etməyə özünüzdə cəsarət də tapırsınız. Tarixdə bolşevik-daşnak ittifaqından böyük bəla və təhrif yoxdur. Gün kimi aydındır ki, məhz bu cür ittifaqa keçid nəticəsində Vardançik kimi bir fırıldaqçı doğulmalı idi".

Bəli, bu, hay cəmiyyətinin "miatsum" adlı letargik yuxudan ayılmasının əlamətidir. Real Ermənistan qurmağa meyilli, tarixə və bu günə praqmatik yanaşma sərgiləməyə çalışan Paşinyan iqtidarı kimi, erməni cəmiyyəti də onu separatçılığa, revanşizmə sürükləyən daşnak tör-töküntüsünün maskasını yırtmağa qərarlı görünür. Məgər bir əsrdən çoxdur dünyanın təsəvvüründə öz qövmünün "məzlum və əzabkeş" kimi saxta obrazını formalaşdırmağa çalışan, utopik "böyük Ermənistan" tiryəki ilə neçə nəsillərin beynini zəhərləyən, torpaq iddiaları ilə xalqını qırğınlara verən, son 30 ildə azərbaycanlılara və öz xalqına olmazın məşəqqətləri



yaşadan "Daşnaksütyun" partiyasının ideoloqları olmayıbmı? İndi onlar bizim deyil, özlərinin arasından yetişmiş, amma ədalətin və həqiqətin gözünə dik baxmaqdan çəkinməyən Rubenin tərs şillə kimi naqolay suallarına cavab vesinlər görüm, necə verirlər...

**P.S.** *Ermənistan İstintaq Komitəsinin araşdırmasına görə, Gümrü şəhərinin meri Vardan Qukasyan və meriyanın baş memarı Qaregin Njde küçəsində yerləşən təxminən 1500 kvadratmetrlik qanunsuz tikilinin sökülməməsi barədə razılığa gələrək, sahibindən 4 milyon dram rüşvət almaqda təqsirli biliniblər.*

***İ.HƏSƏNQALA***
***XQ***

# Kreativ liderliyin İlham Əliyev nümunəsi: konseptual yanaşma

II MƏQALƏ



## Yaradıcı liderlik təcrübəsi

Hər bir yaradıcı liderlik təcrübəsinin daxili məntiqi vardır. Bu mövzuda I məqalənin sonlarında həmin kontekstlə yanaşı, başqa təcrübələrə də münasibətin vacibliyi vurğulanmışdı. Konkret nümunə kimi Prezident İlham Əliyevin aşağıdakı fikirləri göstərilmişdi: "Azərbaycan yeni bir dövrə qədəm qoyub. Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu. Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq".

Bu sitat təsadüfi seçilməmişdir. Orada ifadə edilən fikirlərdən iki istiqamətdə nəticələr çıxarılmasını aktual hesab edirik. Birinci istiqamətdə həmin fikirlərdəki tezislərdə İlham Əliyevin sürətlə dəyişən situasiyalara lider kimi yaradıcı yanaşmasının daxili məntiqi bağlılığı əks olunmuşdur. İkinci istiqamət Azərbaycanın siyasi və geosiyasi "cəzbetmə mərkəzi" olaraq hansı məqama transformasiya etdiyinin məntiqinə aiddir. Burada daxili məntiqi özəllik kontekstində "liderin şəxsiyyəti", "siyasi kurs ənənəsinə münasibət" və "praktiki nəticənin qiymətləndirilməsi" kimi parametrlərin qarşılıqlı münasibətləri prizmasında təhlil aparmaq lazım gəlir.

Konkret olaraq, yuxarıdakı sitatın daxili məntiqi təhlilinə nəzər salaq. Liderin fəaliyyəti kontekstində burada iki pillədə məntiqi dinamika mövcuddur. Onlardan biri cümlə fəlsəfəsinin məntiqi tərtibi ilə bağlıdır. Prezident İlham Əliyevin ifadəsində həmin məqam aşağıdakı cümlələrin bir-birini məntiqi tamamlamasında yer almışdır: "Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu".

Bu mətni tezislərin semantikası prizmasında strukturca düzsək, aşağıdakı maraqlı dinamik keçidlər şəbəkəsi alınır: "müharibəni udduq - işğala son qoyduq"+ "sülhü qazandıq - bərpa işlərinə başladıq"+ "suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu"+ "bu, müsbət təcrübədir". Belə bir təsnifin faydası ondan ibarətdir ki. onların sintezində ümumi məntiqi yekun mənzərəni almaq imkanı meydana gəlir.

Vurğulanan nümunə üçün həmin mənzərə belədir: "Ədalət zəfər çaldı"! Burada incə şəkildə Azərbaycan liderlik ənənəsində bir məqam təsbit edilmişdir: yaradıcı liderliyin son məqsədi siyasi dividenddən çox ədalətin üstün olmasını təmin etməkdən ibarətdir. Prezident İlham Əliyev detalları dəqiq tezislər formasında vurğulayaraq əldə etdiyi əsas nailiyyəti belə ifadə edir - ədalət qalib gəldi, biz onu təmin etdik, kimsədən qisas almaq niyyətimiz və ya hansısa siyasi dividend götürmək məqsədimiz yoxdu!

Bu mövqenin fəlsəfi anlamı Prezident İlham Əliyevin kreativ liderliyinin mahiyyətcə fəzilətli olması ilə bağlıdır! Müasir fəlsəfədə hətta elmi idrakda fəzilətliliyin fundamental rol oynadığı tezisi ciddi müzakirə olunur. Tədqiqatçılar XXI yüzildə elmi biliyin fəzilətli olmasını əsas şərt kimi qoyurlar və bu kontekstdə biliyin həqiqiliyi məsələsinə baxırlar. Deməli, müasir elmi idrak üçün həqiqət anlayışı, ümumiyyətlə, fəzilətliliklə sıx bağlıdır. Təbii ki, bu anlamın konkret siyasi kreativliyə proyeksiya edilməsi çox önəmli və praktiki mahiyyəti olan məsələdir. Buna görə də İlham Əliyevin siyasi kreativliyinin konkret hansı fəzilət faktorları ilə xarakterizə olunması məsələsi əhəmiyyətlidir. Çünki yuxarıda vurğulanan xüsusiyyətlər prizmasında fəzilətlilik dövlət quruculuğunun "həqiqət anı"dır!

İlham Əliyev liderliyinin fəzilətliliyini ədalətlilik, hüquq, mənəvi ləyaqətlilik və humanitarlıq təşkil edir. Bu faktorlar isə milli maraqların təmini üzərində bərqərar olmuşlar. Bu tezisin təsdiqi "ədalətin zəfər çaldığı bir prosesin yekun mənzərəsi nədən ibarətdir?" sualına Prezident İlham Əliyevin lakonik cavabıdır. O, sitatda belə ifadə olunmuşdur: "Azərbaycan yeni bir dövrə qədəm qoyub".

Bunların fonunda siyasi kreativlik üçün böyük əhəmiyyət kəsb edən digər məsələlərə nəzər sala bilərik.

## Geosiyasi "cəzbetmə mərkəzi"

Yuxarıda aparılan təhlildən ikinci istiqamətin maraqlı obrazı alınır. Azərbaycan xüsusi "cəzbetmə mərkəzi" olmaq statusuna transformasiya etmişdir. Bu transformasiyanın sərhədlərini ədalətlilik, hüquq və ləyaqət təşkil edir. Onların birgə təzahür formalarından biri də dövlət səviyyəsində humanitarlıqdır.

Bu nailiyyətin memarı Prezident İlham Əliyevdir. Avrasiya məkanında Azərbaycanın təkbaşına ərazi bütövlüyünü bərpa və tam suverenliyi təmin etməsi əsasında dövlət olaraq regional geosiyasi cəzbetmə mərkəzi statusuna yüksəltməsi İlham Əliyevin kreativ liderliyinin anatomiyasıdır. Burada siyasi-diplomatik aspektdə fəaliyyətin konseptuallığı ilə praktiki addımların mükəmməl sintezi mövcuddur. Başqa cür bu nailiyyəti əldə etmək mümkünsüzdür. Bu baxımdan Azərbaycan Prezidenti elə bir siyasi kreativ təcrübəyə malikdir ki, ranqından asılı olmayaraq istənilən dövlət ondan yararlana bilər. Bu məqam da Prezident İlham Əliyevin kreativ liderliyinin faydalılıq miqyasını ifadə edir!

İndi aldığımız bu nəticələrin prizmasında yuxarıda vurğuladığımız üç mühüm məntiqi məqam üzərində dayanaq. Onlardan biri kreativ liderlikdə özgüvəndir, digəri siyasi varislik və liderlikdə kreativlikdir, üçüncüsü isə kreativliklə innovativlik arasında əlaqədir. Bu parametrlər liderin şəxsi keyfiyyəti, siyasi mühitin təkamül dinamikası və hər iki faktorun konkret texnoloji mühitdə sinxronluğunun təmsilçiləridirlər.

## Kreativ lider varisliyində İlham Əliyev təcrübəsi

Prezident İlham Əliyevin yaradıcı liderliklə siyasi varisliyi uyğunlaşdırması təcrübəsi orijinal və səmərəlidir. Azərbaycan lideri iki miqyasda praktiki müsbət nəticəverici təcrübəni ortaya qoymuşdur. Birinci, milli miqyasda siyasi yaradıcılıq-siyasi varislik vəhdətinə nail olmuşdur. İkinci, milli səviyyədə əldə etdiyi təcrübəni uğurla Türk dünyası (TDT timsalında) miqyasına proyeksiya etmişdir.

Burada maraqlı məqam ondan ibarətdir ki, TDT səviyyəsində siyasi varisliyin Azərbaycan təcrübəsi bütövlükdə Türk dünyası üçün faydalı olan formada transformasiya edilmişdir. İlham Əliyevin siyasi təcrübəsinin bu aspekti liderliyin kreativliyi kontekstində ciddi politoloji əhəmiyyət kəsb edir. Şübhəsiz ki, onun geniş tədqiqinə böyük ehtiyac yaranmışdır. Başqa səbəblərlə yanaşı, həm də ona görə ki, dünya miqyasında milli səviyyədə siyasi varisliklə liderliyin yaradıcılığını uğurlu sintez edə bilmək fəlsəfəsini İlham Əliyev bir neçə dövlətin mövcud olduğu təşkilat miqyasına qədər genişləndirmişdir.

Proses və siyasi fəaliyyət olaraq İlham Əliyev bütövlükdə istənilən regional təşkilatın uğurlu ola bilməsi formullarından birini irəli sürmüşdür. Əlavə olaraq, Azərbaycan Prezidenti xüsusi tarixi sınaq keçmiş türk xalqlarının dövlətləri arasında münasibətlərin perspektivli formulunu yaratmışdır. Yeni tarixi mərhələdə və XXI əsri yeni geosiyasi çağırışları fonunda bu, strateji mahiyyət kəsb edir.

İlham Əliyev konkret hansı təcrübəni yaratmışdır? Milli miqyasda aparıcı qurucu və birləşdirici funksiyası yerinə yetirən "bir millət, iki dövlət" kəlamını məhz siyasi varislik prinsipi üzərində ölkədaxili miqyasda dövlət quruculuğunda bərqərar etmişdir. Bundan sonra aktiv fəaliyyəti və konkret təşəbbüsləri ilə azərbaycançılıq ruhunun ümumtürk miqyasına proyeksiyasını hər bir türk dövlətinin özünəxas milli maraqları kontekstində transformasiyasına nail olmuşdur. Onun əsas əlamətləri TDT üzvləri arasında qarşılıqlı etibar və etimadın yaranması, ayrıca türk dövlətlərinin müstəqil olmağa can atmasının yeni səviyyəyə yüksəlməsi və bunların fonunda ortaq türk dövlət, mədəniyyət və siyasi kimlik identikliyini formalaşdırmaq prosesinin yeni keyfiyyət göstəriciləri almasındadır.

Burada problemin nəzəri və metodoloji tərəfinin böyük əhəmiyyət kəsb etdiyini vurğulamaq üçün ümumfəlsəfi kontekstdə bir haşiyə çıxaq.

Ümumilikdə siyasi varisliyin kreativ liderliyin şərtlərindən biri olması müasir dövr üçün çox əhəmiyyətli məqamdır. Əgər hər hansı dövlətdə siyasi varislik proses kimi qırılsa, onda liderliyin kreativliyinin substantivliyi ilə məqsədi arasında ciddi ziddiyyət yaranır. Deməli, liderin siyasi varisliyi dövlətçiliyin inkişaf şərtlərindən biri kimi daim diqqətdə saxlamasının özü də yaradıcı yanaşmanın əlamətləri sırasına daxildir.

Görünür, bu kimi məqamlara görə, müasir politologiyada "siyasi liderliyin səmərəliliyi" anlayışı xüsusi yer tutur. Həmin anlayış siyasi liderliyin səmərəliliyinə və nəticələrinə təsir edən bütün faktor və şərtləri özündə ehtiva edir. Bununla liderlik o zaman kreativ xarakterli sayılır ki, konkret nəticələrinə görə səmərəli olsun.

Belə alınır ki, səmərəli siyasi liderlik reallıqda birbaşa siyasi varisliklə vəhdətdə olmalıdır. Bu anlamda "səmərəlilik" dövlət quruculuğu ənənəsi ilə müasirliyin optimal nisbətinin yekun ifadəsi kimi başa düşülür. Yəni səmərəlilik, əslində, dövləti inkişaf kontekstində müsbət nəticəverici hadisə kimi uğurlu olmağın yığcam ideya obrazıdır.

Bu anlamda siyasi varisliyin hakimiyyət varisliyinin növlərindən biri kimi özəlliklərinin müəyyən edilməsinin aktuallığı şübhə doğurmur. Konkret olaraq, onun əsas əlaməti siyasi kursun varisliyidir. Yəni siyasi varislik başlıca olaraq siyasi kursun növbəti lider tərəfindən qəbul edilməsi və inkişaf etdirilməsi ilə əlaqəlidir. Bu istiqamətdə o, hakimiyyətin bir adama ötürülməsi və idarəedən elitanın təsdiq olunmuş statusda saxlanması kimi varisliyin digər növlərindən fərqlənir.

Bununla yanaşı, siyasi kursun varisliyində məqsəd özəlliyi fəlsəfi baxımdan diqqəti çəkir. Həm də ona görə ki, varisliyin hansı anlamda qəbul edilməsi bütövlükdə dövlətçiliyə ciddi təsir edə bilir. O cümlədən dövlətin idarəedilməsinin transformasiyaları fərqli ssenarilər üzrə reallaşır. Belə alınır ki, bir sonrakı mərhələyə keçid etmiş istənilən dövlət və cəmiyyət siyasi varisliyin növündən asılı olaraq konkret idarəetmə üsuluna, daxili və xarici fəaliyyət xüsusiyyətlərinə malik olur.

Bu qısa xarakteristikadan bir vacib fəlsəfi qənaət əldə etmək olar. Siyasi varisliyin bir tərəfi onun hansı anlamda qəbul edildiyi ilə sıx bağlıdırsa, digər tərəfi varisin lider kimi dövlətçiliyin inkişafına kreativ yanaşması ilə bağlıdır. Əgər siyasi varisliyin mahiyyəti ilə liderin kreativliyi uyğun olursa, dövlət quruculuğunda uğura nail olmaq şansı yaranır. Əks halda, ölkə yeni ziddiyyətlər burulğanına düşə bilər.

Əlbəttə, bu cür harmoniyanın yaranması mahiyyətcə mürəkkəb prosesdir. Çünki liderin son dərəcə həssaslıqla dövlət quruculuğuna yaradıcı yanaşması və onu siyasi varislik çərçivəsində reallaşdırması lazım gəlir. Həmin kontekstdə fəlsəfi təfəkkür üçün liderliyin başqa parametrləri də aktuallıq kəsb edir.

Nəticədə kifayət qədər mürəkkəb mənzərə yaranır. Siyasi yaradıcılığın konkret dövlətlər üzrə politoloji təhlili sistem yanaşma tələb edir. Eyni zamanda, hər bir ölkənin sosial-mədəni, dövlət quruculuğu ənənəsi və qarşıya qoyduğu strateji məqsədləri prizmasında dəqiq qiymətləndirmə tələb edən proses təsiri bağışlayır. Bunun üçün yuxarıda vurğulanan faktorlarla yanaşı, Azərbaycan Prezidentinin fəaliyyətinin siyasi yaradıcılıq aspektdə mühüm parametrlərindən olan digər iki anlayış üzərində dayanmaq zəruridir.

Onlardan biri innovasiyalılıq, digəri isə liderin özgüvənidir. Hər iki anlayışın klassik anlam kontekstindən çıxarılaraq müasir dövrün çağırışları mühitində dərk edilməsi lazımdır. Ayrıca, Azərbaycanın müasir müstəqillik dönəminin fərqli xüsusiyyətləri nəzərə alınmalıdır. Prezident İlham Əliyev bu kontekstdə də böyük uğur əldə etmişdir. Bu prosesin əsas təkanverici gücü İlham Əliyevin siyasi kreativliyi yüksək olan strateji zəkaya sahib olması ilə bağlıdır! Məsələnin bu cəhəti üzərində geniş dayanaq.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 314** **Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

**Tibb müəssisələrində, təhsil müəssisələrində və sosial sahəyə aid müəssisələrdə şəxslərin qida normalarının təsdiq edilməsi və "Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 217-VIIQD nömrəli Qanununun tətbiqi və "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 170 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 437 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Tibb müəssisələrində şəxslərin orta sutkalıq qida normaları" təsdiq edilsin *(1 nömrəli əlavə)*.

**2.** "Təhsil müəssisələrində şəxslərin qida normaları" təsdiq edilsin *(2 nömrəli əlavə)*.

**3.** "Sosial sahəyə aid müəssisələrdə şəxslərin qida normaları" təsdiq edilsin *(3 nömrəli əlavə)*.

**4.** "Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 78, № 5 (II kitab), maddə 618, № 9, maddə 1067) ləğv edilsin.

**5.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərarın 1-3-cü hissələri nəzərə alınmaqla, müvafiq müəssisələrin cari ildə fəaliyyətinin təşkili üçün zəruri maliyyələşməni təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 315** **Bakı şəhəri, 22 oktyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 6 noyabr tarixli 174 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi, dövriyyəsi və onlardan hazırlanmış məhsulların daşınması zamanı hüquqi şəxslər, habelə qiymətli metallar və qiymətli daşlarla əməliyyatlar həyata keçirən fərdi sahibkarlar tərəfindən onların mühafizəsinin həyata keçirilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə Azərbaycan Respublikasının qoşulması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 fevral tarixli 500 nömrəli Sərəncamının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 6 noyabr tarixli 174 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 11, maddə 1176 (Cild I) ilə təsdiq edilmiş "Qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi, dövriyyəsi və onlardan hazırlanmış məhsulların daşınması zamanı hüquqi şəxslər, habelə qiymətli metallar və qiymətli daşlarla əməliyyatlar həyata keçirən fərdi sahibkarlar tərəfindən onların mühafizəsinin həyata keçirilməsi Qaydaları"na aşağıdakı məzmunda 11-ci və 12-ci hissələr əlavə edilsin:

"11. Emal edilməmiş almazın idxal və ixracı zamanı emal edilməmiş almazlar kənar müdaxilədən qoruyan və müdaxilə edildikdən sonra ilkin formaya qayıtmasını istisna edən konstruktiv quruluşa malik təhlükəsiz bağlamalarda daşınmalı, bağlamalara müvafiq eyniləşdirmə vasitələri (plomblar, möhürlər, ştamplar və s.) tətbiq olunmalıdır.

12. Emal edilməmiş almazın idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi zamanı mühafizənin təşkili Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin silahlı ekipajı tərəfindən ödənişsiz qaydada həyata keçirilir.".

**2.** Bu Qərar Azərbaycan Respublikasının "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə qoşulduğu gündən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Ərdoğan Tramp və Putini Türkiyəyə dəvət edib

**ABŞ Prezidenti Donald Trampın Rusiyanın dövlət başçısı Vladimir Putinlə Budapeştdə keçirilməsi planlaşdırılan görüşü təxirə salması və üstəlik, bu ölkənin iki iri neft şirkətinə qarşı sanksiyalar tətbiq ediləcəyini bildirməsi dünyada geniş rezonans doğurub. Əslində, dünya ölkələrinin liderləri Ukraynaya qarşı müharibənin dayandırılması istiqamətində səylərin heçə enməsini istəmirlər. Ona görə də bir çox nüfuzlu liderlər Tramp-Putin görüşünün təşkili üçün öz imkanlarını təqdim etməyə çalışırlar.**




Artıq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya və ABŞ arasında mümkün zirvə görüşünün keçiriləcəyi məkan kimi öz ölkəsini təklif edib. O, bu barədə oktyabrın 24-də jurnalistlərə verdiyi açıqlamada bildirib. Məlumatı RİA Novosti verib.

"Biz istənilən vaxt belə bir görüşə ev sahibliyi etməyə hazırıq. Bizim hər iki tərəflə yaxşı münasibətlərimiz var və hər iki tərəfin etimadını qazanmış ölkəyik. Bu, sülh yolunda bizə üstünlük verir və bu vəziyyətdən bəşəriyyətin rifahı üçün istifadə etmək niyyətindəyik", - deyə Ərdoğan bəyan edib.

Bununla yanaşı, Türkiyə prezidenti vurğulayıb ki, əsas məsələ Ukrayna münaqişəsinin həllidir ki, bu istiqamətdə istənilən dialoq faydalıdır.

Xatırladaq ki, oktyabrın 16-da ABŞ prezidenti bu həftə Budapeştdə Putinlə görüş keçirəcəyini açıqlamışdı. Lakin oktyabrın 22-də Tramp planlaşdırılan danışıqların baş tutmayacağını, bunun mənasız bir cəhd olduğunu elan etmişdi.

Oktyabrın 23-də Ağ Evin mətbuat katibi Karoline Leavitt bildirib ki, Putin-Tramp görüşü tam olaraq gündəmdən çıxarılmayıb, sadəcə, bunun müsbət nəticə verməsi lazımdır. Onun sözlərinə görə, Tramp administrasiyası dialoqun müsbət nəticə verməsini təmin etmək istəyir.

Dünən Macarıstanın Baş naziri Viktor Orban da bəyan edib ki, Rusiya-ABŞ sammiti gündəmdə qalır və gələcəkdə mütləq baş tutacaq. Bu barədə o, "Kossuth" radiosunda çıxışı zamanı məlumat verib: "Burada, Avropada əmindirlər ki, sülh sammiti hələ də gündəmdədir. Amma bu görüş bir həftədən sonra baş tutmayacaq, tarix qeyri-müəyyəndir. Lakin bunun baş verəcəyinə şübhə yoxdur".

Baş nazirin sözlərinə görə, Avropa liderləri bilirlər ki, ruslar amerikalılarla danışıqlar barədə razılığa gələcəklər.

Trampın qərarına münasibət bildirən Prezident Vladimir Putin də, öz növbəsində, qeyd edib ki, Budapeştdə Rusiya-ABŞ sammitinin keçirilməsi ideyası ABŞ tərəfinə məxsus olub və Trampın görüşü təxirə salması onun istəyidir.

Putin deyib: "Əlbəttə, bu, Rusiyaya qarşı qeyri-dost hərəkətidir. Bu, göz qabağındadır və təzəcə bərpa olunmağa başlayan Rusiya-ABŞ münasibətlərini gücləndirmir".

Putin bildirib ki, ABŞ-ın tətbiq etmək istədiyi yeni sanksiyalar Rusiyanın iqtisadi sağlamlığına ciddi təsir göstərməyəcək: "Lakin yaxın vaxtlarda baş tutmalı olan Budapeşt görüşünə gəlincə, bunun üçün hazırlıq lazımdır, ona görə də müzakirənin ləğvi yox, daha çox təxirə salınmasından söhbət gedir".

Putin ABŞ-ın Kiyevə "Tomaqavk" raketlərini verəcəyi ilə bağlı söhbətlərə də münasibət bildirib: "ABŞ hələ belə bir addım atmağa qərar verməyib. Bu, ciddi eskolasiya cəhdi olardı. Rusiya ərazisinə zərbə endirmək üçün bu cür silahlardan istifadə edilərsə, cavab çox güclü, hətta dəhşətli olacaq. ABŞ yeni sanksiyalarla Rusiyaya təzyiq göstərməyə çalışır, lakin heç bir özünə hörmət edən ölkə təzyiq altında iş görmür. Ona görə də ən əlverişli həll yolu uzunmüddətli perspektiv üçün ciddi dialoqa keçməkdir".

***Paşa ƏMİRCANOV***
***XQ***

# Qareginin qara günləri başladı

## *Katolikosun taxtdan salınması ehtimalı, nəhayət, gerçəkləşir*

**Erməni Apostol Kilsəsinin İkinci Qarabağ müharibəsindən, xüsusilə də 2023-cü ilin sentyabrında keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonrakı davranışı bu qurumun əsl mahiyyətini bir daha ortaya qoydu. Həmin hadisələrədək başda bütün ermənilərin patriarxı, katolikos II Qaregin olmaqla dini libas altında gerçək simalarını gizlədən digər kilsə mənsubları siyasi proseslərə açıq müdaxilə etməyə, dini ayin və mərasimləri siyasi revanşizmin alətinə çevirməyə cəhd göstərdilər.**



II Qaregin və onun ətrafındakı ruhanilər isə xalqın dini hisslərindən siyasi məqsədlər üçün istifadə etməyə, hökumətə qarşı etimadsızlıq yaratmağa çalışırlar. Müharibənin nəticələrini, regionda yaranmış yeni geosiyasi reallıqları qəbul etmək əvəzinə, kilsə yenə də Qarabağ klanına bağlı çevrələrin təsiri altında siyasi oyunlar oynayır. Kilsə hazırda siyasi intriqaların bir parçasına çevrilib. Bununla da xalqın mənəvi dayağı funksiyasını itirib.

Baş verənlərlə bağlı "Joxovurd" qəzetinin öz mənbələrinə istinadən yaydığı məlumat diqqəti cəlb edir. Qeyd olunur ki, II Qaregin həbs olunsa belə, katolikosluqdan imtina etməyəcəyini bəyan edib. Nəşrin yazdığına görə, II Qaregin bəyan edib ki, o, hətta həbsxanadan da kilsəyə rəhbərlik etməyə hazırdır və katolikosluqdan imtina etməyəcək. Yazıda o da bildirilib ki, katolikos hüquq-mühafizə orqanları tərəfindən mümkün həbsi də daxil olmaqla, istənilən təzyiqə qarşı dayanmağa hazır olduğunu vurğulayıb.

Qeyd etmək lazımdır ki, Ermənistan hakimiyyəti ilə kilsə arasındakı qarşıdurma bu il mayın sonlarında baş nazir Nikol Paşinyanın sosial şəbəkə hesabında yüksək vəzifəli ruhaniləri tənqid edən sərt açıqlamalarından sonra daha da kəskinləşib. Ardınca hökumət başçısı bütün ermənilərin katolikosunun seçilməsi prosedurunun dəyişdirilməsini təklif edərək, dövlətin bu prosesdə əsas rol oynamasını irəli sürüb. O, həmçinin katolikosu devirmək hərəkatına şəxsən rəhbərlik etmək niyyətində olduğunu açıqlayıb. Bundan sonra arxiyepiskoplar Baqrat Qalstanyan və Mikael Acapaxyan, yepiskop Mkrtıç Proşyan və Muğni kəndindəki Surb Gevorq monastırının rahibi Qaregin Arsenyan müxtəlif ittihamlarla həbs ediliblər. Həmçinin keçmiş ierey Aram Asatryanın Erməni Apostol Kilsəsi daxilində müxalifət mitinqlərində iştirak etməyə məcbur edilməsi barədə ifadələri əsasında da cinayət işi açılıb.

Bu istiqamətdə "Hraparak" qəzetinin yazdıqları da maraq doğurur. Qəzet qeyd edir ki, oktyabrın 18-də media orqanlarında arxiyepiskop Natan Ovannisyanla bütün ermənilərin katolikosunun keçmiş işçisi ieromonax Ağan Yerncakyan arasında baş verən söhbətin səs yazısı dərc olundu. Söhbət zamanı Ovannisyan II Qareginin onu hakimiyyətə qarşı etirazlarda iştirak etməyə məcbur etməsindən şikayətlənir: "Bundan dərhal sonra "kütləvi aksiyada iştirak etməyə məcburetmə" maddəsi ilə cinayət işi qaldırıldı. Lakin məlum olur ki, səs yazısının həqiqiliyi yoxlanıla bilmir və onun internetdə necə yayıldığı bəlli deyil. Əldə etdiyimiz məlumata görə, hakimiyyət demək olar ki, bütün yüksək vəzifəli ruhanilərin telefon danışıqlarını dinləyir və hamısına qarşı kompromat materialları saxlayır. Arxiyepiskop Natanın söhbətinin niyə ictimailəşməsinə gəldikdə isə, məlum olur ki, bu da məqsədli şəkildə edilib. O, Eçmiədzin Ana Taxtının xarici əlaqələr və protokol departamentinin direktoru, məcazi mənada desək, kilsənin xarici işlər naziridir. Digər kilsələrlə əlaqə saxlayan məhz Ovannisyandır. O, istənilən vaxt, hətta Qareginin həbsi və sair hallarda dünyanın müxtəlif kilsələrinə müraciət edə bilər. Bu baxımdan onlar beynəlxalq qalmaqaldan yayınmaq üçün onu "neytrallaşdırmağa" çalışırlar".

Situasiyanı şərh edən Din və Siyasət İnstitutunun direktoru Anton İqnatenko bildirib ki, Ermənistanın baş naziri və bütövlükdə respublika hakimiyyəti erməni kilsəsinin katolikosunu əvəz etmək səlahiyyətinə malik deyil, lakin Paşinyan alternativ mənəvi mərkəz yaratmağa ümid edir. O, öz fikrini bununla əsaslandırır ki, Paşinyan bir neçə gün öncə bəzi kilsələri Erməni Apostol Kilsəsindən müsadirə etməklə hədələmişdi. O, həmçinin bildirmişdi ki, mənəvi həyatın mövcud olduğu yer Ovanavank monastırıdır. Onun rahibi isə ierey titulundan məhrum edilmiş keşiş Aram Asatryan idi.

İqnatenkonun qeyd etdiyi kimi, dövlət və kilsə arasındakı münasibətlər Konstitusiya və "Vicdan azadlığı və dini qurumlar haqqında" qanunla tənzimlənir: "Bu, Rusiya qanunlarına bənzəyir; erməni kilsəsinin xüsusi rolu yalnız preambulada tanınır. Dövlət, xüsusən də baş nazir katolikosun dəyişdirilməsi təşəbbüsünü irəli sürə bilməz. Bunu anlayan Paşinyan əvvəldən katolikos II Qareginə qarşı kampaniyasını kilsənin sadiq övladı olan, ali primat və sonradan bir sıra digər iyerarxiyalar tərəfindən kilsə normalarının pozulmasından kədərlənən adi vətəndaş mövqeyindən başladı. İyul ayında Nikol Paşinyan II Qaregini vəzifəsindən uzaqlaşdırmaq planını açıqladı: kilsənin mərkəzindən – Eçmiədzindən katolikosu çıxarmaq, evli yerli keşiş təyin etmək, Milli Kilsə Şurasında müasir dildə kilsə xartiyasını qəbul etmək və nəhayət, yeni katolikos seçmək".

Lakin ekspertin qeyd etdiyi kimi, Erməni Apostol Kilsəsi bu planın həyata keçirilməsinin qarşısını ala bilib, ona görə də Paşinyan Ovanavankda alternativ kilsə mərkəzi yaratmaq variantına keçib: "Ermənistan hökumətinin başçısı vəzifəsindən kənarlaşdırılan keçmiş keşiş Asatryana dəstəyini bildirib. Bundan əlavə, baş nazir gələn bazar günü Ovanavankda Asatryanın keçirəcəyi liturgiyada iştirak etmək niyyətində olduğunu açıqlayıb".

Qeyd edək ki, Paşinyan həqiqətən də bazar günü – oktyabrın 26-da sosial şəbəkə hesabında Ovanavankda Asatryanın keçirəcəyi liturgiyada iştirak etmək niyyətində olduğunu bildirib. Nikolun bu açıqlaması ölkədə yeni situasiyanın formalaşmasına səbəb olub. Hökumət rəhbərinin bu addımı sıradan bir dini mərasimdə iştirak kimi görünmür. Əksinə, bu, son aylarda kilsə ilə dövlət arasında yaşanan gərginliyin məntiqi davamı, həm də siyasi və mənəvi nüfuzun yenidən bölüşdürülməsi cəhdi kimi dəyərləndirilir. Baş nazirin məqsədi açıq-açıq olmasa da, artıq sezilir: dövlətin nəzarətindən çıxmış, daxili siyasi proseslərə qarışan və "Qarabağ klanı"nın təsiri altında hərəkət edən kilsə rəhbərliyini tədricən kənarlaşdırmaq, onun yerinə yenilənmiş dini institut formalaşdırmaq.

Paşinyan hökuməti üçün indi əsas vəzifə kilsəni dağıtmaq deyil, onu yeniləməkdir. Yeni kilsə modeli daha çox milli dəyərlərə, dövlətçilik prinsipinə və ictimai barışa xidmət etməlidir. Hakimiyyət bu yolla həm dini institutun nüfuzunu qorumağa, həm də onun siyasi təxribat vasitəsinə çevrilməsinin qarşısını almağa çalışır. Ovanavank mərasimi də məhz bu niyyətin rəmzi kimi qəbul edilir. Paşinyanın orada görünməsi II Qareginin təsir dairəsinin sonunun yaxınlaşdığını göstərir.

Belə görünür ki, Ermənistan artıq təkcə siyasi deyil, dini idarəetmədə də yeni mərhələyə qədəm qoyur. Qaregin kənarlaşdırılması ehtimalı reallığa çevrilir, onun yerinə isə cəmiyyətlə daha yaxın, dövlətlə əməkdaşlığa açıq bir ruhani rəhbərin gətirilməsi planı formalaşır. Bu, həm kilsə daxilindəki klan maraqlarının zəifləməsi, həm də dini müstəvidə yeni ideoloji xəttin bərqərar olması deməkdir. Paşinyanın bu istiqamətdə atdığı addımlar təsadüfi deyil. Məqsəd həm mənəvi, həm də siyasi baxımdan ölkəni vahid idarəçilik sisteminə yönəltməkdir.

Əgər bu proses başa çatarsa, Ermənistan tarixində ilk dəfə kilsə və dövlət maraqları uzun fasilədən sonra bir nöqtədə birləşəcək. Köhnə təfəkkürün daşıyıcıları olan Qaregin və onun tərəfdarları tədricən arxa plana keçəcək, ölkənin dini siması isə modernləşmə və dövlətçilik zəminində yenidən formalaşacaq. Yeni kilsə ideyası artıq təkcə siyasi məqsəd deyil, həm də Ermənistanın gələcək ideoloji modelinin əsas sütunlarından birinə çevrilməkdədir.

**Politoloq Zaur Məmmədov** da bu fikirdədir ki, Ovanavankdakı mərasimdə baş nazirin iştirakı həm də siyasi jest



kimi dəyərləndirilir. Onun sözlərinə görə, bu, kilsə daxilində yeni qüvvələrə dəstək mesajıdır: "Artıq bəzi ruhanilərin Paşinyan hakimiyyətinə yaxın çevrələrdə daha çox görünməsi, dövlətin də onlara mənəvi dəstək göstərməsi müşahidə olunur. Yeni nəsil kilsə xadimləri müharibədən sonrakı dövrdə millətin mənəvi bərpasını dini ekstremizm və revanşizmdən uzaq, daha rasional xətt üzərində qurmaq niyyətindədir. Bu da onu göstərir ki, II Qareginin rəhbərlik etdiyi kilsə modelinin dəyişdirilməsi məsələsi gündəlikdən çıxmayıb".

Ekspert qeyd etdi ki, İkinci Qarabağ müharibəsindən sonra Ermənistanın mənəvi həyatında yaranmış boşluğu doldura bilməyən apostol kilsəsi indi daxildən parçalanma mərhələsindədir. Qaregin və çevrəsi uzun illərdir cəmiyyətdə birləşdirici deyil, bölücü rol oynayırlar: "Onun hər çıxışı siyasi mübahisəyə çevrilir, hər addımı revanşist dairələrin maraqları ilə səsləşir. Bu vəziyyət dövlətin ideoloji və mənəvi təhlükəsizliyinə ciddi təhdid kimi qiymətləndirilir".

***Səxavət HƏMİD***
***XQ***

# TDT nazirlərinin Bakı toplantısı

## *Qəbələ Zirvəsinin qərarları icraya yönəldilir*

**Dünən Bakıda Türk Dövlətləri Təşkilatının (TDT) üzv dövlətlərinin sənaye, elm, texnologiya və innovasiyalar nazirlərinin ikinci iclası keçirilib. Toplantıda Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, TDT Baş katibi Kumanıçbek Ömüraliyev, Qırğızıstan Respublikasının iqtisadiyyat və ticarət naziri Bakıt Sıdıkov, Türkiyənin sənaye və texnologiyalar naziri Mehmet Fatih Kacır və digər rəsmi nümayəndələr iştirak ediblər.**



İqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrlik etdiyi dövrdə TDT-nin mühüm nəticələrə nail olacağına əminliyini vurğulayıb. Bu ayın əvvəlində Qəbələ şəhərində Türk Dövlətləri Təşkilatının 12-ci sammiti keçirildiyi və Azərbaycanın növbəti il üçün təşkilata sədr qəbul edildiyini xatırladan nazir qarşıdakı dövrdə əməkdaşlığın daha da möhkəmləndirilməsi sayəsində mühüm nəticələr əldə ediləcəyini diqqətə çatdırıb.

Qeyd olunub ki, son illər TDT çərçivəsində çoxtərəfli münasibətlər yüksələn xətlə inkişaf edir ki, bu da ölkələrimizin iqtisadiyyatına əhəmiyyətli töhfə verir. Nazir Azərbaycanın bütün TDT üzv dövlətləri ilə strateji tərəfdaşlıq və ya müttəfiqlik münasibətləri qurduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, cari ilin 9 ayında Azərbaycanın TDT ölkələri ilə ticarət dövriyyəsinin artım dinamikası davam edib. Dövlət başçılarının bu müsbət tendensiyanı daha da gücləndirməyi hədəflədiklərini vurğulayan M.Cabbarov bildirib ki, bu kontekstdə Azərbaycan türk dövlətləri ilə iqtisadi əlaqələrin dərinləşdirilməsi və qarşılıqlı ticarətin sadələşdirilməsi istiqamətində mühüm addımlar atır.

Nazir daha sonra qeyd edib ki, qəbul edilmiş Qəbələ Bəyannaməsində dayanıqlı və rəqəmsal texnologiyaların inkişafı, eləcə də innovasiyaların iştirakçı ölkələrin sənaye strategiyalarına inteqrasiyası məsələlərinə xüsusi diqqət yetirilib. Bu isə türk dövlətlərinin iqtisadi inkişafının innovativ əsasını gücləndirmək baxımından mühüm addımdır.

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyev isə öz növbəsində qeyd edib ki, qurumun 2025–2026-cı illər üçün yenilənmiş Fəaliyyət Planı türk dövlətlərinin texnoloji inteqrasiyasının əsasını formalaşdırır. Onun sözlərinə görə, bu sənəd üzv ölkələr arasında süni intellekt, rəqəmsal və "yaşıl" texnologiyalar, standartlaşdırma, kosmik tədqiqatlar sahəsində əməkdaşlığı, həmçinin kiçik və orta biznesin dəstəklənməsini gücləndirməyə yönəlib.

Baş katib daha sonra deyib ki, nazirlər səviyyəsində görüş 12-ci TDT Sammitinin Qəbələdə uğurla baş tutmasından sonra keçirilir və türk dövlətlərinin strateji tərəfdaşlıqdan texnoloji inteqrasiyaya doğru mühüm addımını təşkil edir. Ötən il İstanbulda keçirilən ilk görüşdən bəri sənaye, elm, texnologiya və innovasiyalar sahəsində əməkdaşlığın əhəmiyyətli dərəcədə genişləndiyini vurğulayan K.Ömüraliyev əldə olunan nəticələr arasında 2024-cü il Fəaliyyət Planının icrasında işçi qrupların və alt qrupların irəliləyişi, süni intellekt və rəqəmsal transformasiya sahəsində təcrübə mübadiləsi, Türkiyə və İstanbulda "Technofest", Özbəkistanda isə "Innoweek" kimi beynəlxalq texnologiya festivalları vasitəsilə innovativ ekosistemin inkişafının yer aldığını diqqətə çatdırıb.

İclasın yekununda Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyev birgə bəyannamə imza atıblar.

# Azərbaycan "yaşıl enerji" ölkəsinə çevrilir



(əvvəli 1-ci səhifədə)

Bu münasibətlə keçirilən mərasimdə bildirilib ki, 2023-cü il oktyabrın 26-da istismara verilmiş "Qaradağ" GES Azərbaycanın bərpaolunan enerji sahəsində ilk irimiqyaslı beynəlxalq investisiya layihəsi kimi ölkəmizin dünyanın prioritet elan etdiyi "yaşıl enerji" keçidinə mühüm töhfəsidir. Ötən müddətdə burada istehsal olunmuş 1 milyard kilovat-saat elektrik enerjisi ölkə üzrə 220 milyon kubmetr təbii qaza qənaət imkanı yaradaraq atmosferə 400 min ton karbon qazı atılmasının qarşısını alıb.

Elə həmin mərasimdə stansiyanın uğurlu fəaliyyətini əks etdirən simvolik sertifikatın imzalanma mərasimi keçirilib. Sertifikatı Azərbaycan tərəfdən Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev və "Azərenerji" ASC İdarə Heyəti sədrinin müavini Rüstəm Qasımov imzalayaraq "Masdar" şirkətinin baş əməliyyat direktoru Əbdüləziz Alobaidliyə təqdim ediblər.

"Qaradağ" GES ildə, təxminən, 500 milyon kilovat-saat elektrik enerjisi istehsal etməklə 110 min ev təsərrüfatını "yaşıl enerji" ilə təmin edir. Stansiyanın direktoru Rəcəb Babaşovdan aldığımız məlumata əsasən, cari ilin 9 ayında burada 458 milyon 597 min 700 kilovat-saat elektrik enerjisi istehsal olunaraq şəbəkəyə ötürülüb. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 32 milyon 102 min 400 kilovat-saat çoxdur. "Qaradağ" GES-dən şəbəkəyə təhvil verilən gündəlik maksimal göstərici isə bu il iyunun 26-da qeydə alınıb – 2 milyon 821 min 500 kilovat-saat. Ümumilikdə isə, bugünədək stansiyada 1 milyard 8 milyon 577 min 880 kilovat-saat "yaşıl enerji" istehsal edilib.

Xatırladaq ki, "Qaradağ" GES layihəsinin icraçısı Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətidir. 2018-ci ildə Azərbaycan hökumətinin ölkədə bərpaolunan enerji üzrə pilot layihələr üçün elan etdiyi tenderin qalibi seçilən şirkət 2020-ci ilin yanvarında Azərbaycan Respublikasında sənaye miqyaslı günəş fotovoltaik (PV) layihəsinin inkişafı üçün icra sazişi imzalayıb. Yeri gəlmişkən, 230 meqavatlıq (MWac) Qaradağ Günəş PV stansiyası ölkənin dövlət-özəl tərəfdaşlığı kimi strukturlaşdırılmış ilk xarici investisiyaya əsaslanan müstəqil sənaye miqyaslı günəş layihəsidir.

Şirkət 2021-ci il aprelin 6-da Azərbaycan hökuməti ilə investisiya sazişi və "AzərEnerji" Açıq Səhmdar Cəmiyyəti ilə elektrik enerjisinin alqı-satqısı və ötürülməsi üzrə müqavilələr imzalayıb. Bir il sonra martın 15-də "Gülüstan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhali Mazroueinin iştirakı ilə "Qaradağ" GES-in təntənəli təməlqoyma mərasimi keçirilib.

2022-ci il avqustun 2-də Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiyanın Cayka Fondu və Abu-Dabi İnkişaf Fondu ilə kredit müqavilələri imzalanıb. Ümumi dəyəri 262 milyon dollar təşkil edən layihənin maliyyələşdirilməsinə ayrılan vəsaitin 153,7 milyon dolları "Masdar" şirkətinin öz sərmayəsidir. Bu da ümumi maliyyələşmənin, təqribən, 55 faizi deməkdir. Yerdə qalan 108,3 milyon dollarlıq vəsait isə banklardan alınmış kreditlərin payına düşür.

Həmin il avqustun 9-da 550 hektar ərazidə tikinti-quraşdırma işlərinə başlanılıb. İnşaat işləri ilə paralel olaraq buradan "AzərEnerji" ASC-nin "Cənub" yarımstansiyasınadək 330 kilovoltluq tək dövrəli 45 kilometrlik elektrik verilişi xətti çəkilib. Ümumilikdə isə, cəmi 8 ay ərzində inşaatçıların, energetiklərin və digər peşə sahiblərinin fədakar əməyi sayəsində Azərbaycan elektroenergetikasının daha bir parlaq səhifəsinə imza atılır. 2023-cü il oktyabrın 26-da ölkə energetikasının, enerjisistemin, hələlik, ən böyük "yaşıl" stansiyası istismara verilir. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı və xeyir-duası ilə "Qaradağ" Günəş Elektrik Stansiyasının təntənəli açılış mərasimi keçirilib. Mərasimdə Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl Cabir və digər rəsmi şəxslər iştirak ediblər.

Stansiyada quraşdırılan əsas qurğu və avadanlıqlar, xüsusən də 570 min 720 ədəd günəş paneli Çinin dünyaca məşhur şirkətlərinin istehsalıdır. Yeri gəlmişkən, günəş panellərinin hər birinin gücü 545-550 vatt təşkil edir ki, bu da stansiyanın tikintisi dövrü üçün ən müasir güclü panellər hesab olunur. Səmərəli iş əmsalına nail olmaq məqsədilə panellər xüsusi dəqiqliklə yerləşdirilib. Tam avtomatik rejimdə çalışan stansiyanın müxtəlif yerlərində sensorlar və metostansiyalar quraşdırılıb ki, bu da hava şəraitinə tam nəzarət etməyə imkan yaradır. Stansiyanın ərazisi vaxtaşırı olaraq əsən güclü küləklərin təsirinə məruz qaldığından panellərin səthi toz qatı ilə örtülür. Buna görə də onların həftədə ən azından iki dəfə təmizlənməsinə ehtiyac yaranır. Təmizlik işləri robot sistemi vasitəsilə həyata keçirilir. Onların sayı isə 631 ədəddir. Bu da ən son, müasir texnologiya sayılır. Həmin qurğulara quraşdırılmış günəş panelləri onları elektrik enerjisi ilə təchiz edir.

Stansiyanın bütün fəaliyyətinə mərkəzi idarəetmə otağından nəzarət olunur. Belə ki, buradakı birləşmə sxemi vasitəsilə bütün istehsal prosesi diqqətlə izlənilir. Burada stansiyanın fəaliyyət göstərdiyi bütün dövr ərzində istehsal olunan elektrik enejisi anbaan qeydə alınır. Mərkəzi idarəetmə otağında qurğu və avadanlıqların işi ilə yanaşı, küləyin sürətini, havanın temperaturunu və rütubəti tam ölçmək mümkündür.

Qeyd edək ki, "Qaradağ" GES-in uğurlu fəaliyyəti gələcəkdə ərazidə bir sıra əlavə genişləndirmə işlərinin aparılmasına zərurət yaradır. Artıq bununla bağlı Azərbaycanın Energetika Nazirliyi ilə məsləhətləşmələr, danışıqlar aparılır. Genişləndirmə işləri həyata keçiriləcəyi təqdirdə isə ötürücü şəbəkənin də imkanları artırılacaq.

# İslamabadda regional nəqliyyat konfransı



**Pakistanın paytaxtı İslamabad şəhərində nəqliyyat nazirlərinin regional konfransı keçirilib. 27 ölkənin iştirakı ilə keçirilən toplantıda ölkəmizi rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov təmsil edir.**

Rəqəmal İnkişaf və Nəqliyyat Nazirliyinin məlumatına görə, nazir müavini konfransda çıxış edərək Azərbaycanda və regionda nəqliyyat dəhlizlərinin inkişafı barədə məlumat verib. Bildirilib ki, Şərq və Qərb, Şimal və Cənub arasındakı kəsişmə nöqtəsində yerləşən Azərbaycan uzun illərdir, Avropanı Mərkəzi və Cənubi Asiya ilə birləşdirən mühüm tranzit mərkəzi kimi çıxış edir. Ötən müddətdə ölkəmiz böyük infrastruktur layihələrinə sərmayə yatırıb və multimodal nəqliyyat şəbəkəsi yaradıb. 2024-cü ildə ümumi tranzit həcmi 2019-cu illə müqayisədə 2,5 dəfə artaraq 14,5 milyon tona çatıb və bu yükün təxminən 30 faizi Orta Dəhliz vasitəsilə daşınıb.

Zəngəzur dəhlizinin əhəmiyyətindən danışan R.Hümmətov deyib ki, bu marşrut yalnız Şərq – Qərb istiqamətində deyil, həmçinin Şimal – Cənub və Cənub – Qərb əlaqələrinin gücləndirilməsində mühüm rol oynayır. Onun sözlərinə görə, dəhliz üzrə ildə 15 milyon ton yükün daşınması gözlənilir ki, bu da regional ticarət potensialını böyük ölçüdə artıracaq.

Qeyd edək ki, nəqliyyat nazirlərinin regional konfransı çərçivəsində nazir müavini Rəhman Hümmətov bir sıra ikitərəfli görüşlər keçirib. Həmin görüşlərdə əməkdaşlıq perspektivləri, eləcə də ölkəmizdə və regionda nəqliyyat sahəsində həyata keçirilən layihələr barədə ətraflı müzakirələr aparılıb.

# KOB sektorunda süni zəka

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) KOB sektorunda daha səmərəli strateji qərarların qəbulu üçün süni intellektə əsaslanan biznes analitikası sisteminin yaradılması üzərində düşünür. Bu fikri KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov Bakıda keçirilən "SOCGOV 2025: Süni zəka insan və transformasiya üçün" adlı beynəlxalq konfransda bildirib.**




Agentlik sədrinin sözlərinə görə, KOBİA süni intellekt sahəsindəki qlobal trendlərdən kənarda qalmır və fəaliyyətini iki əsas istiqamət üzrə qurub: "Birinci istiqamət süni intellektə əsaslanan həllərin agentliyin daxili biznes proseslərinə və KOB-lara yönəlmiş xidmət alətlərinə inteqrasiyası ilə bağlıdır. Bu məqsədlə e-KOB evi portalı layihəsi çərçivəsində işlər aparılır. Portalda rəqəmsal mühitdə süni intellekt üzərindən "biznes bələdçisi" alətinin yaradılması nəzərdə tutulur. Yaxın gələcəkdə KOB sektorunda qiymətləndirmə və strateji qərarların qəbuluna dəstək üçün süni intellektə əsas biznes analitikası sisteminin inkişafı istiqamətində də addımlar atılacaq".

KOBİA-nın ikinci istiqaməti süni intellekt texnologiyalarının KOB sektorunda tətbiqinin təşviqinə yönəldiyini bildirən O.Məmmədov bu istiqamətdə həm mövcud dəstək mexanizmləri, həm də tərəfdaş qurumlarla birgə layihələr çərçivəsində tədbirlər həyata keçirildiyini diqqətə çatdırıb. Qeyd olunub ki, KOB-lar cəmiyyətin süni intellekt texnologiyalarına hazırlıq səviyyəsini və bu sahədə bacarıqlarını artırmaq potensialına malikdir. Hazırda ölkəmizdə muzdlu işçi qüvvəsinin 44 faizinin KOB sektorunda çalışdığını bildirən agentlik sədri bunu geniş əhali kütləsinə çıxış və təsir imkanı baxımından mühüm göstərici kimi dəyərləndirib.

# "Xankəndi" gəmisi Xəzərə qayıdır



**Bakı Gəmiqayırma Zavodunda "Xankəndi" gəmisinin əsaslı təmiri başa çatıb. Zavodun peşəkar mühəndis və texniki heyəti tərəfindən aparılan genişmiqyaslı bərpa və təkmilləşdirmə işləri nəticəsində gəminin texniki göstəriciləri tam bərpa olunub, etibarlılığı və istismar müddəti artırılıb. Layihənin uğurla tamamlanması Bakı Gəmiqayırma Zavodunun yüksək istehsal potensialını, texniki imkanlarını və beynəlxalq standartlara uyğun fəaliyyətini bir daha təsdiqləyir.**

Xatırladaq ki, 2017-ci ilin sentyabr ayında istismara verilmiş "Xankəndi" Xəzər dənizinin 378 milyon ABŞ dolları dəyərində olan yeni flaqman gəmisidir. Ən son texniki nailiyyətləri özündə birləşdirən bu sualtı tikinti gəmisi məxsusi olaraq "Şahdəniz-2" layihəsi çərçivəsində Xəzər dənizində ən böyük sualtı hasilat sistemini quraşdırmaq üçün layihələndirilərək və inşa edilib.

Müasir sualtı hasilat texnologiyasını quraşdırmağa qadir olan bu mürəkkəb və əsl çoxfunksiyalı gəmi Azərbaycan Dövlət Neft Şirkəti, "Azərbaycan İnvestisiya Şirkəti" və "Keppel O&M" şirkətinin yaratdığı birgə müəssisə olan Bakı Gəmiqayırma Zavodunda layihələndirilib və inşa edilib.

Gəminin uzunluğu 155 metr, eni 32 metr və əsas göyərtə sahəsi isə 2 min kvadratmetr təşkil edir. Ümumi çəkisi 17 min 600 ton olan gəminin suya oturumu 6,5 metr olmaqla daşıma gücü 5 min metrik ton təşkil edir. Bu unikal su nəqliyyatında 6 ədəd 4,4 meqavat və 2 ədəd 3,2 meqavat gücündə generatoru olan 2 mühərrik bölməsi var. Gəmi 3,5 metr hündürlüyündə dalğalarda fəaliyyət göstərə bilmək üçün dinamik mövqeləndirmə sistemi, 600 metrədək dərinlikdə sualtı əməliyyatlar aparmaq üçün 900 metrik tonluq əsas kran, iki ədəd 18 nəfərlik dalğıc kapsulu sistemi, eyni sayda məsafədən idarə olunan sualtı aparat və möhkəmləndirilmiş avadanlıq endirmə şaxtası ilə təchiz edilib.

"Xankəndi" gəmisi lövbərlərə heç bir ehtiyac olmadan ən mürəkkəb işləri həyata keçirə bilər. Heyət və mütəxəssislər də daxil olmaqla gəminin göyərtəsi maksimum 175 nəfər üçün nəzərdə tutulub. İşçilərin əksəriyyəti isə yerli mütəxəssislərdir.

*Səhifəni hazırladı:*
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan–BMT tərəfdaşlığında yeni mərhələ




**Oktyabrın 24-də xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının 80 illik yubileyinə həsr olunmuş tədbirdə çıxış edib.**

Nazir çıxışında BMT-nin çoxtərəfli diplomatiyanın əsas dayaqlarından biri kimi mühüm rolunu vurğulayaraq təşkilatın 80 illiyi münasibətilə təbriklərini çatdırıb. O, Azərbaycanın BMT-nin fəal və məsuliyyətli üzvü kimi qurumun əsas orqanlarında, o cümlədən 2012–2013-cü illərdə Təhlükəsizlik Şurasında, həmçinin üç dəfə İqtisadi və Sosial Şurada təmsil olunduğunu qeyd edib.

Ceyhun Bayramov Azərbaycan Respublikasının qlobal arenada artan nüfuzunun və liderliyinin BMT-nin əsas təşəbbüslərinə verdiyi töhfələrlə daha da möhkəmləndiyini diqqətə çatdırıb. O, 2026-cı ildə Azərbaycanın BMT-nin iki mühüm tədbirinə – Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) və Ümumdünya Ətraf Mühit Gününə ev sahibliyi edəcəyini xatırladıb.

Ceyhun Bayramov bu il avqustun 8-də Vaşinqtonda imzalanmış Birgə Bəyannamənin və digər əldə olunmuş tarixi razılıqların regionda sülh prosesinin irəlilədilməsində əhəmiyyətli mərhələ olduğunu da qeyd edib.

Nitqinin sonunda nazir tərəfdaşlığı gücləndirərək yeni əməkdaşlıq istiqamətlərini araşdırmağa və daha sülhsevər, ədalətli və dayanıqlı dünya qurmaq üçün birgə səyləri artırmağa çağırış edib.

Tədbirin yekununda 2026–2030-cu illər üzrə Azərbaycan-BMT Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə sənədi imzalanıb.

*XQ*

# Türk dövlətlərinin Almaniyadakı səfirlərinin toplantısı



**Azərbaycanın Almaniyadakı səfirliyinin dəvəti ilə Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Almaniyadakı səfirlərinin toplantısı keçirilib.**

Toplantı Qəbələdə keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə müəyyən edilmiş hədəflərin həyata keçirilməsi istiqamətində səfirliklər arasında əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə təşkil olunub.

Görüşdə, həmçinin ortaq türk tarixi və mədəni irsinin Almaniyada təbliği istiqamətində nəzərdə tutulan tədbirlər, mədəniyyət və incəsənət sahələrində birgə fəaliyyət və layihələr, eləcə də digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev bildirib ki, türk dövlətləri arasında müxtəlif sahələrdə yaranan səmərəli əməkdaşlıq və qarşılıqlı dəstək münasibətlərin daha da möhkəmlənməsinə və qardaş xalqlar arasında birliyin güclənməsinə səbəb olur.

Sonda səfirlər ötən həftə Berlində açılan "MAMA - Ana Təbiət" sərgisi ilə tanış olublar. Məlumat verilib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti və IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyevanın ideya müəllifliyi ilə konseptual şəkildə hazırlanmış sərgi təbiəti passiv bir fon kimi deyil, əksinə, canlı, qidalandırıcı, davamlı və bərpaedici əsas qəhrəman kimi təqdim edir. MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsi Azərbaycan da daxil olmaqla, 31 ölkədən 50-dən çox sənətkarı bir araya gətirərək incəsənət vasitəsilə planetimizi gələcək nəsillər üçün qorumağa çağırır.

*XQ*

# Azərbaycan və Türk Dövlətləri Təşkilatı arasında əməkdaşlıq genişləndirilməlidir

**Oktyabrın 24-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevlə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüş zamanı tərəflər ölkəmizin TDT çərçivəsində sədrliyinin prioritetlərini, təşkilatın gündəliyində duran məsələləri və gələcək planları müzakirə ediblər.

Nazir Ceyhun Bayramov təşkilat çərçivəsində dostluq, qardaşlıq və bütün sahələrdə əməkdaşlığın gücləndirilməsinin əsas prioritet olduğunu, Azərbaycanın bu potensialın reallaşması istiqamətində Türk Dövlətləri Təşkilatının atdığı addımları, təşəbbüsləri və ideyaları daim dəstəklədiyini, təşkilatın katibliyinin və beynəlxalq təşkilatlarda müşahidəçi statusunun daha da gücləndirilməsinin və genişləndirilməsinin vacib olduğunu vurğulayıb.

Tərəflər ötən il Şuşada keçirilmiş qeyri-rəsmi Sammitdə qəbul edilmiş Qarabağ Bəyannaməsinin, habelə bu il Qəbələdə keçirilmiş sammit zamanı qəbul edilmiş qərarların təşkilat çərçivəsində çoxşaxəli əməkdaşlıq üçün əhəmiyyətini qeyd ediblər. Baş katib ölkəmiz tərəfindən təşkil edilmiş tədbirlərin uğurlu təşkilinə görə təbriklərini çatdırıb.

Azərbaycanın Qəbələ Sammiti zamanı irəli sürdüyü təşəbbüslərin icra edilməsi istiqamətində addımlar nəzərdən keçirilib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*XQ*

# 26 ailəyə də evlərinin açarları təqdim olunub



**Dünən köç karvanı ilə Xocalı rayonunun Seyidbəyli və Daşbulaq kəndlərinə çatan ailələrə yeni evlərinin açarları təqdim olunub.**

Seyidbəyli kəndində 18 ailə olmaqla 61 nəfər, Daşbulaq kəndində isə 8 ailə olmaqla 24 nəfər keçmiş məcburi köçkün doğma yurduna qovuşub.

Köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

*XQ*

*Xuntaçıların məhkəməsi*

# Ermənistanın hücumlarının faciəli nəticələri araşdırılıb

**(əvvəli 1-ci səhifədə)**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında sədr bildirib ki, bir sıra zərərçəkmiş şəxs məhkəməyə ərizə ilə müraciət edərək məhkəmə prosesində iştirak edə bilməyəcəklərini, ibtidai istintaqa ifadələrinin məhkəmə prosesində tədqiq olunmasını xahiş edib. Zərərçəkmişlərin iclasda iştirak edə bilməməsinə və ibtidai istintaqa ifadələrinin tədqiq edilməsinə etiraz edən olmayıb.

Sonra məhkəmə iclasında üzrlü səbəbdən iştirak edə bilməyən və bununla bağlı məhkəməyə müraciət etmiş zərərçəkmiş şəxslərin və zərərçəkmiş şəxslərin hüquqi varislərinin ifadələri elan olunub.

Zərərçəkmiş Vəliyev Fikrət Cavad oğlunun elan olunan ifadəsinə əsasən, 1992-ci il fevralın 25-də gecə saatlarında Ermənistan hərbçiləri Xocalı şəhərində evləri yandırarkən o, evinə gedib. Orada heç kimin olmadığını görüb və Kətik meşəsi istiqamətində qaçıb. Qarqarçayın üzərindəki körpünün altında çoxlu sayda Xocalı şəhər sakinlərini, o cümlədən arvadı Vəliyeva Ürüzə Xanlar qızını, bacısı Süräyya Vəliyeva və bacısı oğlu Əhmədov Anar İslam oğlunu görüb. O, ailə üzvləri və təxminən, 300 nəfər Xocalı sakini ilə birlikdə Kətik meşəsi istiqamətində hərəkət edib, Kətik kəndinə yaxınlaşarkən Ermənistan ordusu tərəfindən atəşə tutulmaları nəticəsində adlarını bilmədiyi bir neçə Xocalı sakini öldürülüb və yaralanıb. Bütün gecəni meşədə qaldıqları üçün Xocalı şəhər sakinlərinin əksəriyyətinin ayaqlarını don vurub, adlarını bilmədiyi bəzi şəxslər donvurmadan ölüblər. Həmin gecə bacısı və digər qohumları naməlum şəraitdə itkin düşüblər, onların yaşayıb-yaşamaması barədə heç bir məlumat yoxdur.

Dumanlı hava şəraiti ilə əlaqədar Ağdam rayonu istiqamətində gedən yolu tapa bilməyib, fevralın 27-də 230 nəfər Xocalı şəhər sakini ilə Dəhraz kəndinin yaxınlığından keçərkən Ermənistan hərbçiləri tərəfindən atəşə tutulublar. Bağırova Zəhra Sarı qızı, Telman, Mehti və adlarını xatırlamadığı 4 nəfər burada ölüb, 3 nəfər isə yaralanıb. O və digərləri girov götürülərək həmin kənddə yerləşən tövlədə saxlanılıb və burada işgəncələrə məruz qalıblar. Həmin vaxt Ermənistan hərbçisinin girovların arasından olan uşağa təpiklə vurması nəticəsində onun başı zərblə divara dəyib. Uşağı qorumaq üçün onu yerdən götürüb qucağına alsa da, həmin hərbçi Azərbaycan dilində "sizin hamınızı öldürəcəyik" deyib. Üzərilərində olan pul vəsaitləri, qızıl-zinət əşyaları qarət edilib, soyuq fermada ac-susuz saxlanılıblar. Bundan əlavə, Ermənistan hərbçiləri girovların arasından gəncləri - Usubəli Qarayevi, Zakir, Əliyar və Elşad Usubovları, Rövşən Həsənovu, Vüqar Hüseynovu, Ülfət Əliyevi, Tofiq Zeynalovu, Elşad Həsən oğlunu, Ələddin Paşayevi, Siyavuş Halay oğlunu, Rövşən Qaçay oğlu və Şahin adlı Xocalı sakinlərini seçib çölə çıxarıblar. Sonra atəş səsləri, ardınca isə avtomobil səsi eşidilib, hazırkı vaxtadək həmin şəxslər itkin düşmüş sayılır.

Elan olunan ifadələrə əsasən, zərərçəkmiş şəxslər Hümbətəliyev Rüfət Bəxtiyar oğlu, Cavadov Natiq Şahin oğlu, Baxşəliyev Nizami Fizuli oğlu və Nəbiyev Nadir İqor oğlu ifadələrində 2022-ci il sentyabrın 13-də Kəlbəcər rayonunun ərazisində düşmənin təxribatından bəhs ediblər. Qeyd edilib ki, həmin vaxt R.Hümbətəliyev, N.Cavadov və N.Baxşəliyev düşmənin açdığı atəşlər nəticəsində, N.Nəbiyev isə düşmənin basdırdığı minanın partlaması nəticəsində yaralanıblar. Elnur Rüstəmov, Qədim Xəlilov və Ümid İmamquliyev isə həlak olublar.

Zərərçəkmiş Mustafayev Siyasət Akif oğlunun hüquqi varisi qismində tanınaraq dindirilmiş Mustafayev Akif Məmməd oğlu ifadəsində bildirib ki, övladı 2020-ci il sentyabrın 27-də Ağdərə rayonunun Talış kəndi istiqamətində Ermənistan silahlı qüvvələrinin açdığı atəşlər nəticəsində həlak olub.

Digər zərərçəkmiş Həbibov Rahim Şirməmməd oğlu ifadəsində göstərib ki, o, "Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu"nun şöbə rəisi vəzifəsində işləyib və işi ilə əlaqədar "Şuşa-Xankəndi" 110 kV-luq yüksəkgərginlikli elektrik hava xəttinin çəkilməsinin planlaşdırılması məqsədilə 2023-cü il dekabrın 7-də əraziyə baxış keçirərkən mina partlayışı baş verib və xəsarət alıb.

Abbasov Alman Ənvər oğlu ifadəsində qeyd edib ki, o, Füzuli rayonunun Qarabağ kəndində yaşayır. 2020-ci il oktyabrın 9-da Ermənistan silahlı qüvvələri tərəfindən atılan artilleriya mərmilərindən biri onun yaşadığı evin yaxınlığına düşüb. Nəticədə evi və istifadəsində olan avtomobili yararsız vəziyyətə düşüb, özü, habelə Rəfiyev Elçin Məmməd oğlu, Şirinov Elşən Şahmar oğlu, Aslanov Yaşar Savalan oğlu və Əhmədov Tahir Telman oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alıblar.

Həsənzadə Cəsarət Gülağa oğlu ifadəsində göstərib ki, 2023-cü il sentyabrın 19-da Ağdərə rayonu ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılmış tankəleyhinə idarəolunan raket mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində o və yanında olan Akif Koroğluyev, Hüseyn Babayev və Amin Ələsgərov xəsarətlər alıblar, Füzuli Məmmədov isə həlak olub.

Balakişiyev Ehtibar Təvəggül oğlu qeyd edib ki, 2020-ci il oktyabrın 3-də Beyləqan şəhərinə 3 raket atılıb. Həmin raketlərdən birinin yol kənarına düşməsi nəticəsində xəsarət alıb.

Zərərçəkmiş İbrahimov Nadir Əli oğlu ifadəsində göstərib ki, 2020-ci il oktyabrın 4-də Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhəri, Əziz Əliyev küçəsinə atılan raket zərbəsinin təsirindən evi dağılıb. Həmin vaxt onunla birlikdə 1 yaşlı nəvəsi Emil İbrahimov və arvadı Süheyla İbrahimova ətrafda olan şəxslərin köməyi ilə dağıntılar altından çıxarılıblar. Hadisə nəticəsində hər üçü xəsarət alıb.

Digər zərərçəkmiş Həsənova Lalə Akif qızı ifadəsində bildirib ki, 2020-ci il oktyabrın 4-də yaşadığı Gəncə şəhəri, Nəriman Nərimanov prospektindəki evə Ermənistan silahlı qüvvələri tərəfindən atılmış raket zərbələrinin təsirindən özü və qızı Nigar xəsarətlər alıblar, oğlu İlyasın sol qolu və barmaqları sınıb. Zərbənin təsirindən evləri dağılaraq yararsız hala düşüb.

Zərərçəkmiş Teymurov Fərid Füzuli oğlunun hüquqi varisi Teymurov Füzuli Əjdər oğlu ifadəsində bildirib ki, oğlu Fərid 2020-ci il oktyabrın 7-də Suqovuşan kəndi ərazisində itkin düşüb, onun nəşi yalnız 2021-ci il yanvarın 2-də tapılıb.

Zərərçəkmiş Kərimov Elmir Rəhim oğlunun hüquqi varisi Kərimov Rəhim Həkim oğlu ifadəsində bildirib ki, oğlu 2020-ci il oktyabrın 1-də Talış-Suqovuşan istiqamətində Ermənistan silahlı qüvvələrinin atdığı minaatan mərmisinin partlaması nəticəsində həlak olub.

Zərərçəkmiş Quliyev Elçin Rövşən oğlunun hüquqi varisi Quliyev Rövşən Balay oğlu oğlunun 2020-ci il sentyabrın 29-da, zərərçəkmiş Cəfərov Oruc Vaqif oğlunun hüquqi varisi Cəfərov Vaqif Mahmud oğlu övladının 2020-ci il oktyabrın 1-də, zərərçəkmiş Nağıyev Baloğlan Müdəhət oğlunun hüquqi varisi Nağıyev Müdəhət Baloğlan oğlu övladının 2020-ci il oktyabrın 5-də, zərərçəkmiş Cəfərov Təbriz İlqar oğlunun hüquqi varisi Cəfərov İlqar Qərib oğlu ifadəsində övladının 2020-ci il oktyabrın 30-da Ermənistan silahlı qüvvələrinin Suqovuşan kəndi istiqamətində açdığı atəşlər nəticəsində həlak olduqlarını bildiriblər.

Məhkəmə iclası digər ifadələrin oxunması ilə davam etdirilib.

Məhkəmə prosesi oktyabrın 27-də davam etdiriləcək.

*XQ*

*Birinci Türkoloji Qurultay – 100*

# Azərbaycan 1 əsr əvvəl Türk dünyasının mərkəzi ölkəsi rolunda

**Dünya sürətlə dəyişir və bəşəriyyətin möhtəşəm elmi-texnoloji, iqtisadi və nəticə etibarilə həm də siyasi transformasiyalar ərəfəsində olduğu aydın sezilir. İzləməkdə olduğumuz tendensiyalar, dünya miqyasında dövlətlərarası münasibətlərin inkişafı istiqamətində formalaşmaqda olan yeni konfiqurasiyalar getdikcə daha maraqlı şəkil almağa başlayır. Hadisələrin gedişatı əminliklə söyləməyə əsas yaradır ki, türk dövlətləri üçüncü minilliyə vahid siyasət və mədəniyyət strategiyası üzrə hərəkət etmək, bu tendensiyanı uğur və qətiyyətlə davam etdirmək əzmi ilə daxil olurlar. Xalqlarımızın ənənəvi dəyərlərə sadiqliyi və eyni etnik köklərə malik olmaları ölkələrimizi sıx birləşdirir.**





100 il öncə Mustafa Kamal Atatürk Türkiyədə Cümhuriyyəti qurduğu illərdə Sovetlər Birliyinin bir gün dağılacağını, bu ölkədəki türk toplumlarının bağımsızlıqlarına qovuşacağını və Türkiyənin bu vəziyyətə hazırlıqlı olmasının vacibliyin bildirirdi. Atatürk bildirirdi ki, türklük davası bizim üçün şüurlu bir davadır. Qazinin "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" mesajını əsrin sonunda Ümummilli Lider Heydər Əliyev "Azərbaycan və Türkiyə bir millət, iki dövlət" deyə təsbit etdi. Bu iki türk böyüyünün cızdığı yolu 200 illik tariximizə Qələbə və Zəfər möhrü vuran Lider – İlham Əliyev Turan idealına doğru aparmaqdadır.

Prezident İlham Əliyevin "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı bu baxımdan bütün türk dünyası üçün mühüm əhəmiyyət kəsb edir. Bir il öncə Türk Dövlətləri Təşkilatı sammitində dünyaya "XXI əsr Türk dünyasının inkişafı əsri olmalıdır" mesajı verən Azərbaycan Prezidentinin bu sərəncamı yalnız yubiley xatırlaması deyil, bütövlükdə türk xalqlarının mədəni birliyinin gücləndirilməsi baxımından mühüm strateji əhəmiyyət daşıyır. Çünki Birinci Türkoloji Qurultay sıradan bir elmi toplantı deyildi. O, türk xalqlarının ortaq mədəni və dil birliyinə doğru atılmış ilk sistemli addım idi. Bu gün Qurultayın 100 illiyinin keçirilməsi artıq siyasi və iqtisadi birlik yolunda olan Türk dünyası üçün əvəzsiz ideoloji təməldir. Müasir dövrdə Türk Dövlətləri Təşkilatı çərçivəsində ortaq əlifba və orfoqrafiya məsələsi yenidən strateji məsələ kimi aktuallaşıb. Qazaxıstan və Özbəkistanın latın qrafikasına keçməsi, Türkiyə və Azərbaycanın mövcud təcrübəsi bu prosesin real əsaslarını gücləndirir.

Müasir türkoloji mühitdə Qurultayın ideyalarının yenidən elmi əsaslarla işlənməsi və ortaq yazı sisteminin tətbiqi Türk dünyasının inteqrasiyasına xidmət edən vacib istiqamətlərdəndir. Birinci Türkoloji Qurultay türk xalqlarının elmi, mədəni və dil birliyi istiqamətində atılmış strateji addım olub. Qurultay ideyalarının müasir dövrdə yenidən aktuallaşması bu birliyin dərinləşməsi üçün real imkanlar açır. Ortaq əlifba və orfoqrafiyanın yaradılması yalnız texniki məsələ deyil, həm də ortaq kimliyin möhkəmlənməsi baxımından böyük tarixi və ideoloji əhəmiyyət daşıyır. Qurultayın 100 il öncə təqdim etdiyi ideyalar bu gün Türk Dövlətləri Təşkilatının (TDT) timsalında gerçəkləşməkdədir. Belə ki, Qurultayın ortaq əlifbaya keçidlə bağlı ideyaları 2024-cü ildə Türk Dövlətləri Təşkilatı tərəfindən yaradılan Türk Dünyası Ortaq Əlifba Komissiyasının iclasında qəbul olunub. Prezident İlham Əliyev Türk dünyasını bizim ailəmiz adlandırdırır, Azərbaycanın Türk Dövlətləri Təşkilatına üzv ölkə kimi Türk dünyasında qərarların qəbulunda, birliyin, həmrəyliyin möhkəmlənməsində mühüm rol oynadığını daim vurğulayır. I Bakı Türkoloji Qurultayın nə dərəcədə möhtəşəm və mötəbər bir tədbir kimi tarixi əhəmiyyət daşıması haqqında əyani təsəvvür əldə etmək üçün aşağıdakı bilgilər xüsusilə diqqətçəkicidir: Qurultayda 131 nəfər nümayəndə iştirak etmiş, 17 iclas keçirilmiş, türklərin, bütövlükdə Türk dünyasının dili və tarixinə, etnogenezisi və etnoqrafiyasına, ədəbiyyat və mədəniyyətinə dair 38 məruzə dinlənilmişdi. Qeyd edək ki, Qurultay məşhur türkoloq Radlovun və İsmayıl bəy Qaspıralının şərəfinə keçirilib.

Qurultayda Bartold, Köprülüzadə, Ə.Hüseynzadə, Krımski, Poppe, Aşmarin kimi tanınmış türkoloq-şərqşünas alimlərin iştirakı da onun böyük əhəmiyyəti və mötəbərliyindən xəbər verirdi. Birinci Türkoloji Qurultay XX yüzillikdə türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni həyatında baş verən ən əlamətdar hadisələrdən biri kimi tarixə düşüb. Qurultayın işində Sovet Birliyi məkanında yaşayan türk xalqları ilə yanaşı xarici qonaqlar, ümumilikdə isə 131 nəfər nümayəndə - alimlər, dilçilər, tarixçilər, şairlər, yazıçılar və digər görkəmli müttəfəkkirlər iştirak edib. Türk xalqlarının mədəni inteqrasiyasında mühüm bir mərhələnin əsasını qoymuş bu möhtəşəm Qurultay ilk növbədə geniş vüsəti və böyük bir coğrafi məkanda yaşayan çoxsaylı türk xalqları üçün bir sıra taleyüklü məsələlərin qoyuluşu, işlənib hazırlanması və ardıcıl şəkildə gerçəkləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıyıb. I Bakı Türkoloji Qurultayında türk dillərinin aşağıdakı yeddi böyük problemi müzakirə obyekti oldu və müvafiq qərarlara imza atıldı:

*1. Əlifba məsələsi;*
*2. İmla-orfoqrafiya problemi;*
*3. Termin məsələsi;*
*4. Tədris-metodika məsələsi;*
*5. Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri;*
*6. Türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi;*
*7. Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri.*

Türk xalqlarının mədəni inteqrasiyasında xüsusi və mühüm bir mərhələnin əsasını qoymuş bu möhtəşəm Qurultay ilk növbədə geniş vüsəti və böyük bir coğrafi məkanda yaşayan çoxsaylı türk xalqları üçün bir sıra taleyüklü məsələlərin qoyuluşu, işlənib hazırlanması və ardıcıl şəkildə gerçəkləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıyır. Belə ki, məhz bu mötəbər məclisdə keçmiş Sovetlər Birliyi məkanında yaşayan türk xalqlarının tarixi, ədəbiyyatı, dili, əlifbası, etnoqrafiyası və mədəniyyəti ilə bağlı yaxın gələcək üçün düşünülmüş bir sıra mühüm və əhəmiyyətli qərarlar qəbul edilib, latın qrafikalı əlifbaya keçidin elmi-metodik prinsipləri ətraflı şəkildə işlənib hazırlanıb.

I Türkoloji Qurultayın Bakıda keçirilməsi tamamilə qanunauyğun idi, çünki həmin dövrdə bir sıra sahələrdə olduğu kimi, türkologiya elmində də Azərbaycan öndə gedirdi. Türkdilli xalqların qarşılıqlı ədəbi əlaqələrinin daha da genişləndirilməsinə stimul yaratmış Birinci Türkoloji Qurultay türkologiya problemlərinin öyrənilməsində misilsiz əhəmiyyətə malik olub. Belə ki, qurultaydan sonrakı uzun bir dövr ərzində türkdilli xalqların əlifbalarının poliqrafik və orfoqrafik əsasları, ədəbi dil, dilçilik xüsusiyyətləri, elmi terminologiya məsələləri, ana dilində dərsliklərin yazılması, lüğətlərin yaradılması istiqamətlərində xeyli iş görülüb.

Qurultay iştirakçılarının sonrakı fəaliyyəti faciəvi olub. Onun işində iştirak edən 100-dən artıq iştirakçı sonradan pantürkizmdə ittiham edilərək repressiyaya məruz qalıb. Əksər alim və müttəfəkirlər həbs və fiziki məhvlə üzləşiblər. Qurultayın mühüm nəticəsi olan türk xalqlarının latın qrafikalı əlifbaya keçidi isə 1939-cu ildə ləğv edilmiş və Sovet Birliyi ərazisində yaşayan türk xalqları üçün kütləvi olaraq kiril əlifbalı yazı tətbiq edilib.

100 il öncə Birinci Türkoloji Qurultayın Bakıda keçirilməsi həm Azərbaycanın geniş mənada türkologiyanın əsas mərkəzlərindən biri, həm də Türk dünyasını birləşdirən bir məkan olduğunu göstərir. Sirr deyil ki, tarixən Türk dünyası ilə bağlı ən mühüm qərarlar əsasən Bakıda qəbul olunub. Eyni zamanda Türkoloji Qurultay türk xalqlarının mədəni inteqrasiyasında yeni mərhələnin təməlini qoymuş tarixi hadisələrdən biri kimi tarixə düşüb. Qurultayda müzakirəyə çıxarılan ortaq türk xalqlarının dili, tarixi və ədəbiyyatı məsələləri bu gün də öz aktuallığını qoruyub saxlayır. Bu baxımdan Prezident İlham Əliyevin sərəncamının tarixi əhəmiyyəti böyükdür. Belə demək olarsa, bu qurultay Türk dünyasının rəmzlərindən, dəyərlərindən biridir və tarixdə çox mühüm yeri var.

Türk xalqlarının həyatında, taleyində mühüm rol oynayan bu mühüm hadisənin 100 illik yubileyinin keçirilməsi çox vacibdir. Çünki biz dövlətlərimiz arasında əlaqələri, münasibətləri daha da inkişaf etdirməliyik. Bunun üçün atacağımız addım da bu əlaqələrin qorunması, müxtəlif tədbirlərin, görüşlərin, konfransların keçirilməsidir. O mənada düşünürəm ki, Birinci Türkoloji Qurultayın 100 illiyinin keçirilməsi üçün cənab Prezident tərəfindən belə bir təşəbbüsün irəli sürülməsi tarixin unudulmaması, yadda saxlanılması, türk dövlətləri arasında birliyin, həmrəyliyin gücləndiriməsi baxımından olduqca vacib və önəmli məsələdir. Bu vacib məsələ bizim gündəliyimizdə olmalı və qalmalıdır.

Qeyd edim ki, Birinci Türkoloji Qurultay XX yüzillikdə türk xalqlarının, o cümlədən, Azərbaycan xalqının mədəni həyatında baş verən ən əlamətdar hadisələrdən biri kimi tarixə düşüb. Qurultayın işində Sovet birliyi məkanında yaşayan türk xalqları ilə yanaşı, xarici qonaqlar, ümumilikdə isə 100-dən artıq alim, dilçi, tarixçi, şair, yazıçı və digər görkəmli müttəfəkkirlər iştirak edib. Bu qurultay Türk dünyasının rəmzlərindən, dəyərlərindən biridir və tarixdə çox mühüm yeri var. Qeyd etmək lazımdır ki, Birinci Türkoloji Qurultayın qəbul etdiyi qərarlar arasında ortaq əlifba, ortaq ədəbi dil, ortaq terminologiya və digər əlaqəli məsələlər xüsusi əhəmiyyət kəsb edirdi. Bu məsələlər yalnız XX əsrdə deyil, müasir dövrdə də türkoloji elmin və türk xalqlarının mədəni inteqrasiyasının aktual problemləri kimi qiymətləndirilir.

Qurultay tərəfindən irəli sürülən ideyalar, ortaq yazı və dil prinsiplərinin yaradılması, elmi terminologiyanın sistemləşdirilməsi və türk xalqlarının ədəbi dilinin inkişafına dair tövsiyələr, bugünkü dövrdə də strateji və elmi əhəmiyyətini saxlayır və Türk Dövlətləri Təşkilatı Qurultayın 100 illiyində bu məsələləri yenidən gündəliyə gətirə bilər. Türkoloji Qurultayın 100 illiyinin qeyd olunması bir vəfa borcudur və bu qərarın Bakıda həyata keçirilməsi hadisənin tarixi və mənəvi dəyərini daha da artırır: "Türkoloji Qurultay ciddi qərarların müzakirə və qəbul olunduğu bir proses olub. Orada Azərbaycanın görkəmli ziyalıları ilə yanaşı, Türk dünyasının önəmli şəxsiyyətləri, o cümlədən Türkiyədən gəlmiş dahi mütəfəkkir Əli bəy Hüseynzadə və digər dəyərli şəxslər iştirak ediblər. Bu baxımdan tədbirin tarixi əhəmiyyəti böyükdür.

Azərbaycan bütövlükdə türk birliyinin strateji gələcəyini düşünən, onu qlobal sistemdə dayanıqlı güc mərkəzinə çevirməyə çalışan dövlət statusunda çıxış edir. Birinci Türkoloji Qurultayın 100 illiyinin qeyd edilməsi ilə bağlı Prezident İlham Əliyevin səsləndirdiyi təklif, əslində, Türk dünyasının ortaq kimliyinin yenidən bərpasına çağırışdır. Azərbaycan bu çağırışı XXI əsrin reallıqları fonunda gerçəkləşdirmək üçün həm ideoloji, həm elmi, həm də mədəni əsaslar yaradır. Türk dünyasının humanitar paytaxtı kimi Bakı bu gün dilin, ədəbiyyatın, incəsənətin və təhsil inteqrasiyasının yeni mərkəzinə çevrilib.

***Fəzail İBRAHİMLİ,***
***Milli Məclisin deputatı, professor***

## Baş prokurorun Braziliya səfəri başa çatıb



**Azərbaycanın Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Braziliyaya rəsmi səfərdə olub.**

Braziliyanın Baş prokuroru Paulo Qonet ilə keçirilmiş görüşdə ölkələrimiz arasında yüksək səviyyəli münasibətlər, hüquq-mühafizə orqanları arasında əməkdaşlığın möhkəmləndirilməsi, cinayətkarlıqla mübarizə, ətraf mühitin mühafizəsi və digər məsələlər müzakirə olunub. İspaniya Krallığının Baş prokuroru Alvaro Qarsia Ortiz ilə keçirilmiş görüşdə də cinayətkarlıqla mübarizə, ətraf mühitin mühafizəsi, iqlim cinayətlərinə qarşı birgə fəaliyyətin gücləndirilməsi məsələləru müzakirə edilib. Portuqaliyanın Baş prokuroru Amadeu Quera ilə keçirilmiş görüşdə isə Baş prokuror Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində ölkədə korrupsiyaya qarşı sistemli mübarizənin aparıldığını qeyd edib.

Səfər çərçivəsində Çin, Rusiya, Paraqvay və digər ölkələrin nümayəndə heyətləri ilə də görüşlər keçirilib.

***XQ***

## Bakıda "SOCGOV 2025" beynəlxalq konfransı






**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin təşəbbüsü ilə Bakıda "SOCGOV 2025: Süni intellekt insan və transformasiya üçün" mövzusunda beynəlxalq konfrans keçirilib.**

"Gülüstan" sarayında təşkil olunan konfransda hökumət rəsmiləri, Milli Məclisin deputatları, qeyri-hökumət, beynəlxalq təşkilatların nümayəndələri, yerli və beynəlxalq ekspertlər, 20-yə yaxın ölkədən 350 nəfərə yaxın şəxs iştirak edib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev tədbiri giriş sözü ilə açaraq bildirib ki, bu konfrans, eyni zamanda, DOST Agentliyinin yeni "SocGov" brendinin ilk dəfə təqdim olunması ilə sosial idarəetmədə innovasiyaların və düşüncə tərzinin yeni mərhələsinin başlanğıcını ifadə edir.

Prezident İlham Əliyevin sosial sahədə siyasətinin mərkəzində insan amilinin dayandığını bildirən nazir bunun nəticəsi olaraq son illərdə sosial sahədə ardıcıl və dərin islahatların həyata keçirildiyini, 2018–2025-ci illərdə reallaşdırılan 5 böyük sosial islahat paketinin nailiyyətlərini, sosial ödənişlərdəki ciddi artımları diqqətə çatdırıb. Sosial ədalətin, şəffaflığın təminatı, sosial sahədə xidmətlərin operativ göstərilməsi, inzibati metodlardan xidmət modelinə keçid istiqamətində aparılan işləri qeyd edən Anar Əliyev Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü olan DOST konsepsiyasının bu istiqamətdə mühüm əhəmiyyətini vurğulayıb.

Nazir süni intellekt texnologiyalarının tətbiqi istiqamətində nazirliyin Strategiyası çərçivəsində hazırlanmış üçillik Yol Xəritəsinə uyğun şəkildə işlərin aparıldığını qeyd edib. O, "Əlillik" altsistemində tətbiq edilən süni intellekt əsaslı funksionallıq vasitəsilə tibbi göndərişlərdə mətn analizinin həyata keçirildiyini, bu altsistemdə süni intellekt əsaslı məsləhət mexanizminin də hazırlanmaqda olduğunu bildirib.

Konfransda Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sədri Orxan Məmmədov, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Türkiyənin əmək və sosial müdafiə nazirinin müavini Ahmet Aydın və BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreeva çıxış ediblər.

Tədbir panel müzakirələri ilə davam edib.

***XQ***

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası

### *25 oktyabr*

• Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində operativ müşavirə keçirilib. Dövlətimizin başçısı müşavirədə çıxış edərək deyib: "Bir aya yaxındır ki, müharibə gedir. Bu müddət ərzində ölkəmiz döyüş meydanında böyük uğurlar əldə edib. Hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Gün ər-



zində müntəzəm olaraq mənə döyüş bölgələrində aparılan əməliyyatlar haqqında məlumat verilir. Demək olar ki, hər saat müxtəlif bölgələrdə baş verən hadisələrlə bağlı məlumat daxil olur, həm Müdafiə Nazirliyi və digər qurumlar məni məlumatlandırırlar.

100-dən çox yaşayış məntəqəsi – şəhərlər, kəndlər işğalçılardan azad edilibdir. Bu yaşayış məntəqələrində artıq Azərbaycan bayrağı ucaldılıbdır. Şəhər və kəndlərimizin videogörüntüləri Azərbaycan ictimaiyyətinə təqdim edilir və hər kəs görə bilər ki, vəhşi düşmən bizim



şəhər və kəndlərimizi nə günə qoyub. Ermənistan dövləti bu cinayətlərə görə məsuliyyət daşıyır və cavab verəcəkdir".

• Prezident İlham Əliyev rəsmi "Twitter" səhifəsində Azərbaycan Ordusunun Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad etdiyini bildirib.

• Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının "Fox News" televiziya kanalına müsahibə verib.

• Müdafiə Nazirliyinin məlumatına əsasən, cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun əsas istiqamətlərdə döyüş fəaliyyətlərini davam etdirərək nəzarətə götürülən əraziləri bir qədər də genişləndirib.



Qoşunlarımız cəbhənin Xocavənd, Qubadlı və Laçın rayonları ərazisində düşmənə ciddi zərbə vuraraq onun müqavimətini zəiflədib və müxtəlif istiqamətlərdə yeni mövqelərə irəliləyib. Ermənistan silahlı qüvvələrinin Ağdərə və Xocavənd istiqamətlərində yerləşən bölmələri canlı qüvvə baxımından çoxsaylı itkilərə məruz qalıb. Azərbaycan Ordusu düşmənin 3 tankını, 2 piyada döyüş maşınını, 6 artilleriya qurğusunu, 1 "Qiasint-B" topunu, 2 "Qrad" qurğusunu, 1 komanda idarəetmə məntəqəsini, 9 avtomobil texnikasını və bir neçə atəş nöqtəsini məhv edib.

• Müdafiə Nazirliyi Azərbaycan Ordusunun düşmənə qarşı yüksək dəqiqlikli silah növü tətbiq etməsi barədə video paylaşıb.

Xatırladaq ki, oktyabrın 24-ü gün ərzində və 25-nə keçən gecə cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun əsas istiqamətlərdə döyüş fəaliyyətlərini davam etdirərək nəzarətə götürülən əraziləri bir qədər də genişləndirib.

• Müdafiə Nazirliyi Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayıb.

• Düşmənin atəş nöqtələri məhv edilib.

• Ermənistan ordusu Goranboyun Meşəli kəndinə qadağan olunmuş raket atıb.

• Qubadlı istiqamətində gedən döyüşlərdə Ermənistan silahlı qüvvələrinin bölmələri hücum etməyə cəhd göstərib. Bölmələrimiz tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən 50 nəfərədək canlı qüvvə itirərək geri çəkilməyə məcbur edilib. Nəticədə düşmənin silah-sursatla dolu dörd avtomobil və bir zirehli texnikası ələ keçirilib.

• Cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə düşmənin 6 D-30 və 1 D-1 haubitsa topu, 2 PDM-2 zirehli texnikası, 1 avtomobil texnikası və xeyli sayda döyüş sursatı məhv edilib.

***Mustafa KAMAL***
***XQ***

# Qlobal informasiya məkanında Azərbaycanın səsi gur eşidilirdi

### *Dövlət başçısı ABŞ-ın "Fox News" televiziya kanalına müsahibəsində erməniпərəst dairələri yetərli cavablandırmışdı*



**Vətən müharibəsinin gedişində Ermənistanın təxribatları və işğal siyasətini ört-basdır etmək məqsədilə beynəlxalq mediada aparılan dezinformasiya kampaniyaları fonunda Azərbaycan dövlətinin əsas vəzifələrindən biri dünyaya həqiqətləri obyektiv şəkildə çatdırmaq idi. Bu baxımdan Prezident İlham Əliyevin dünyanın ən nüfuzlu televiziya kanallarına verdiyi ardıcıl müsahibələr strateji önəm daşıyırdı.**

Dövlətimizin başçısının 2025-ci il oktyabrın 25-də ABŞ-ın "Fox News" kanalına verdiyi müsahibə isə Azərbaycanın informasiya diplomatiyasının zirvə nümunələrindən biri kimi tarixə düşdü. Ölkə rəhbəri bu çıxışı ilə respublikamızın ədalətli mövqeyini müdafiə etməklə bərabər, həm də beynəlxalq ictimaiyyətin diqqətini erməni işğalının siyasi və hüquqi reallıqlarına yönəltdi.

"Fox News" kimi qlobal auditoriyaya malik ABŞ media platformasına müsahibə vermək respublikamız üçün mühüm diplomatik addım idi. 44 günlük Vətən müharibəsi dövründə Qərb kütləvi informasiya vasitələrinin bir qismi hadisələrə birtərəfli yanaşır, Ermənistanın təbliğat materiallarını təhrif olunmuş şəkildə yayımlayırdı. Belə bir şəraitdə Prezident İlham Əliyev dünyaya dəqiq faktlar, beynəlxalq hüquqa əsaslanan arqumentlər və siyasi reallıqlar əsasında müraciət edir, regionun tarixi, Ermənistanın işğal siyasəti, Azərbaycanın ədalətli mövqeyi barədə arqumentli, diplomatik və məntiqli ton nümayiş etdirirdi. Bu üslub təkcə dövlət rəhbərinin siyasi yetkinliyini deyil, həm də Azərbaycanın informasiya strategiyasının peşəkarlığını göstərirdi.

Prezident İlham Əliyevin çıxışının əsas xəttini beynəlxalq hüququn üstünlüyü təşkil edirdi. O, dəfələrlə Azərbaycanın hərbi əməliyyatlarının BMT Nizamnaməsinin 51-ci maddəsinə – özünümüdafiə hüququna əsaslandığını vurğulayır, Ermənistanın 30 ilə yaxın müddətdə işğal altında saxladığı torpaqların azad olunmasını ədalətin və beynəlxalq qanunların bərpasını şərtləndirdiyini bildirirdi. Dövlət başçısı, eyni zamanda, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə əsaslanaraq işğalçı ölkənin silahlı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir, eyni zamanda, müsahibənin hüquqi əsasını formalaşdırırdı.

Prezident İlham Əliyevin "Fox News" aparıcısının təxribat xarakterli suallarına verdiyi cavablar diplomatik çeviklik və intellektual üstünlük nümunəsi idi. Aparıcının qərəzli yanaşmasına baxmayaraq, dövlət başçısı nə emosiyaya qapılır, nə də müdafiəçi mövqe tuturdu. Ölkə rəhbəri faktlara əsaslanaraq fikir bildirir, hər bir iddianı tarixi və hüquqi faktlarla təkzib edirdi. Məsələn, jurnalistin Azərbaycanda, guya, "Dağlıq Qarabağ ermənilərinə təhlükə" yaranması ilə bağlı sualına cavab olaraq Prezident İlham Əliyev ölkəmizin çoxmillətli və tolerant bir dövlət olduğunu, respublikamızda müxtəlif etnik və dini qrupların sülh, əmin-amanlıq şəraitində yaşadıqlarını xatırladırdı. Bu arqument təkcə siyasi deyil, həm də mənəvi-sivil dəyər daşıyırdı. Prezident İlham Əliyev Qərb ictimaiyyətinin diqqətini Azərbaycanın heç vaxt etnik təmizləmə siyasəti yürütmədiyinə, əksinə, Ermənistanın torpaqlarımızı işğal etməklə soydaşlarımızı öz dədə-baba yurdlarından didərgin saldığı faktına yönəldirdi.

Ölkə rəhbərinin müsahibəsində diqqət çəkən ən mühüm məqamlardan biri də onun Qərbin ikili standartları ilə bağlı əhatəli cavabları idi. Məsələn, dövlət başçısı BMT qətnamələrinin bir çox hallarda dərhal icra olunduğunu, lakin Azərbaycan məsələsində bu sənədlərin 30 il kağız üzərində qaldığını bildirirdi. Bu, beynəlxalq ədalətsizliyin açıq ifadəsi idi. İlham Əliyev, eyni zamanda, Azərbaycanın münaqişənin dinc yolla həllinə həmişə sadiq olduğunu, lakin Ermənistanın danışıqları imitasiya etdiyini, işğalın ömrünü uzatmağa çalışdığını da diqqətə çatdırırdı. Beləliklə, müharibə Azərbaycanın seçimi deyildi, məcburi və gecikmiş ədalət aktı idi.

"Fox News" müsahibə informasiya diplomatiyasının klassik modeli kimi diqqət çəkdi. İlham Əliyev bu müsahibədə dövlət başçısı olaraq rəsmi mövqeyi ilə bərabər, həm də Azərbaycanın milli kimliyini, ədalətə inamını və beynəlxalq etibarını dünyaya çatdırdı. Onun prinsipial çıxışı Qərb ictimaiyyətində Azərbaycan reallıqlarına maraq yaratdı, mediada yeni diskussiya açdı. ABŞ, Avropa və Yaxın Şərq KİV-ləri bu müsahibədən sonra regiondakı proseslərə daha balanslı yanaşmağa başladı. Bununla da "Fox News" müsahibəsi dezinformasiya baryerini yararaq Azərbaycan həqiqətlərinin qlobal auditoriyaya çatdırılması baxımından dönüş nöqtəsinə çevrildi. Bu, eyni zamanda, Prezident İlham Əliyevin siyasətdən diplomatiyaya, diplomatiyadan isə liderliyə doğru gerçəkləşən uğurlu yolunu şərtləndirən kommunikasiya üslubu idi.

Yeri gəlmişkən, "Fox News" müsahibəsi zamanı Prezidentin ritorikası liderlik üslubunun bütün elementlərini özündə birləşdirirdi. Belə ki, cavablarda aydın və məntiqi arqumentlər, faktlara əsaslanan debat mədəniyyəti, hüquqi yanaşma, qətiyyət və özünəinam kimi amillər xüsusi diqqət çəkirdi. Bu, təkcə bir dövlət rəhbərinin öz xalqını müdafiə etməsi deyildi, bu, həm də beynəlxalq media qarşısında haqqın intellektual müdafiəsi idi. İlham Əliyev müasir dövrdə informasiya müharibəsində uğurun yalnız silahla deyil, sözlə, arqumentlə, faktla da mümkünlüyünü sübuta yetirirdi.

Bu fikrin təsdiqi olaraq müsahibənin bəzi məqamlarına da diqqət yetirmək istərdik. Məsələn, jurnalist işğalçının mövqeyini dəstəkləmək məqsədilə bildirdi ki, "Bir çox məlumatlara görə, sentyabrın 27-də – müharibənin bu ən son mərhələsində Dağlıq Qarabağ regionunda nisbi sülh, müəyyən növ diplomatik çərçivə var idi, insanlarda bu münaqişənin həlli ilə bağlı ideya var idi, lakin Sizin qüvvələr döyüşlərə başladı. Nəyə görə Siz indi hərəkətə keçməyə qərar verdiniz", – təxribat xarakterli sualına cavabında vurğuladı ki, göstərilən tarixdə döyüşlərə başlayan Azərbaycan olmayıb. İndiyə kimi heç bir ölkənin rəsmi nümayəndəsi bu məsələni bizim qarşımızda qaldırmayıb. Sentyabrın 27-də Ermənistanın hücuma keçməsində məqsədi isə danışıqlar prosesini tamamilə pozmaq olub. Onlar eyni hərəkəti iyul ayında da törədib. O zaman işğalçı bu iki ölkənin dövlət sərhədində Azərbaycana qarşı hücuma keçib və düşməni acı məğlubiyyətə uğradıb.

Prezident İlham Əliyev müsahibəsinin davamında Ermənistanın belə bir təxribatı 2020-ci ilin avqustunda da törətdiyini, Azərbaycanın mülki şəxslərinə və hərbi qulluqçularına hücum etmək üçün ölkəmizə diversiya qrupu göndərdiyini və nəhayət, işğalçının sentyabrın 27-də ağır silahlardan artilleriya bombardmanına başladığını, hücumun ilk saatlarında mülki şəxslər və hərbi qulluqçular arasında qurbanlar olduğunu diqqətə çatdırıb. "Bu vaxta kimi mülki şəxslər arasında 63 nəfər öldürülüb və 300 nəfər mülki şəxs yaralanıb. Beləliklə, bu hücuma başlayan Ermənistan, özünü müdafiə edən isə Azərbaycan idi", – deyə dövlətimizin başçısı bildirib.

Azərbaycan liderinin müsahibəsində digər bir məqam da diqqət çəkir. Bu, "Fox News" müxbirinin növbəti təxribat xarakterli sualı ilə bağlıdır. Belə ki, jurnalist deyir: "Siz BMT-nin, Rusiyanın, İranın, Amerika Birləşmiş Ştatlarının, Avropa İttifaqının, NATO-nun çağırışlarına müqavimət göstərirsiniz? Atəşkəs üçün çağırışlara nəyə görə müqavimət göstərirsiniz və faktiki olaraq elan olunmuş atəşkəsi pozursunuz?". Azərbaycan lideri isə cavabında ölkəmizin daim atəşkəsə hazır olduğunu, oktyabrın 10-da Moskvada Azərbaycan, Ermənistan və Rusiyanın Xarici İşlər nazirlərinin atəşkəs barədə birgə bəyanat verdiklərini, lakin buna baxmayaraq, növbəti gün işğalçının öz ərazisindən – Ermənistandan ölkəmizin ikinci ən böyük şəhərinə, toqquşmaların baş verdiyi ərazidən çox uzaqda yerləşən Gəncəyə ballistik raketlə hücum edərək 10 mülki şəxsi qətlə yetirdiyini və 30-dan çoxunu yaraladığını, daha sonra bu şəhərə ikinci ballistik raket hücumu ilə 15 insanı qətlə yetirdiyini diqqətə çatdırıb.

Erməniпərəst müxbir bu məqamda dövlətimizin başçısının sözünü kəsərək təxribat xarakterli fikrindən dönmək istəmir: " Lakin Siz də atəşkəsi pozmusunuz". Azərbaycan lideri isə fakta əsaslanan sözləri ilə təxribatçı jurnalisti susdurur: "Xeyr, xeyr. Biz, sadəcə, cavab verdik. Çünki biz atəşkəs barədə iki dəfə razılaşmışdıq. Birinci dəfə ermənilər gecə vaxtı, gecə saat 1-də yatan şəhərə ballistik raket atdılar. İkinci dəfə atəşkəs yalnız iki dəqiqə davam etdi və bu dəfə də Ermənistan onu pozdu. Azərbaycanın atəşkəsi pozması barədə heç bir sübut yoxdur".

Göründüyü kimi, Prezidentin sözügedən müsahibəsi həm Vətən müharibəsinin gedişində obyektiv, ədalətli baxışı ifadə edir, həm də ABŞ ictimai rəyinə yönələn incə diplomatik mesaj kimi diqqət çəkirdi. İlham Əliyev bu zaman Azərbaycanın enerji təhlükəsizliyində oynadığı rolu, Qərblə tərəfdaşlığını və beynəlxalq antiterror siyasətindəki fəaliyyətini də xatırlatmaqla respublikamızın regional sabitlik üçün əvəzsiz tərəfdaş olduğunu vurğuladı. Bu, eyni zamanda, həm informasiya, həm də geosiyasi müstəvidə Azərbaycanın müstəqil və balanslı xarici siyasət xəttinin davamı idi. Müsahibə Qərb auditoriyasına açıq şəkildə Azərbaycanın nə Rusiya, nə də başqa güc mərkəzlərinin təsiri altına düşmədiyini, siyasətində isə əsas meyarın milli maraq və beynəlxalq ədalət olduğunu göstərdi.

Beləliklə, "Fox News" müsahibəsi 2020-ci il Vətən müharibəsinin informasiya cəbhəsində ən parlaq epizodlarından biri kimi tarixə düşdü. Bu çıxış Prezident İlham Əliyevin şəxsində Azərbaycan diplomatiyasının fakta, hüquqa və ədalətə əsaslanan yeni modelini ortaya qoydu. Bu müsahibə dövlətimizin başçısının təkcə döyüş meydanında deyil, həm də qlobal informasiya məkanında Azərbaycanın milli maraqlarını uğurla qorumağı bacaran liderliyini bir daha təsdiqlədi. 44 günlük savaş nəticəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, lakin bu qələbənin ideoloji və informasiya təməli məhz belə çıxışlar, belə diplomatik mübarizələr üzərində quruldu. "Fox News"-a müsahibəsi də bu baxımdan həm Azərbaycan həqiqətlərinin beynəlxalq səviyyədə tanıdılması, həm də liderlik məktəbi baxımından dəyərli bir nümunəyə çevrildi.

***Vaqif BAYRAMOV***
***XQ***

# Adı Ələsgərdi, əsli göyçəli...

## *Daşnak quldurlar aşığı sevimli yurdundan necə didərgin salmışdılar?*

**Sazı ilə, sözü ilə böyük şöhrət qazanan, fitri qabiliyyəti, haqdan verilən ilhamı ilə saza da, sözə də böyük şöhrət qazandıran Dədə Ələsgər "Pənc – Ali-əba" adlı şeirində deyirdi:**

***Günahım dəryadı, özüm qanmışam,***
***Tutduğum işlərə çox utanmışam.***
***Püşti-pənahına daldalanmışam,***
***Adım Ələsgərdi, əslim göyçəli.***

Beş bənddən ibarət olan bu qoşmada Aşıq Ələsgər ilahidən dərs aldığını, beş müqəddəs şəxsə – (Məhəmməd (s), Fatimə (ə), Əli (ə), Həsən (ə) və Hüseyn (ə)) - ə cani – dildən bağlı olduğunu bildirmiş, şeirin son bəndində isə həyatda onlara pənahlandığını, onlardan imdad və yardım istədiyini bildirmişdir. Böyük söz ustadı bu gözəl mədhiyyənin sonunda özünün də kimliyini nişan vermişdir: adım Ələsgərdi, əslim göyçəli.

Şifahi ədəbiyyatla bərabər yazılı ədəbiyyatın da əksər nümayəndələri doğulub boya-başa çatdıqları torpağı öz əsərlərində məhəbbətlə tərənnüm etmişlər. Hətta bir çox şairlər ədəbiyyat tarixinə öz nisbələri ilə – şairin doğulduğu yerin adı ilə düşmüşlər: Məsələn, Nizami Gəncəvi, Xəqani Şirvani, Sahib Təbrizi.

Qayıdaq aşığın həyatının ən faciəli dövrü olan 1918-ci ilin erməni soyqırımı dövrünə. O dövrə ki aşıq sevimli Göyçəsindən didərgin düşmüş, min bir əzab-əziyyətə dözməli olmuşdu. Cənubi Qafqazın müsəlmanlar yaşayan bir çox vilayətlərində müsəlmanlara qarşı ermənilər tərəfindən törədilən böyük qırğın, deportasiya, faciə dolu günlərdə, aylarda Aşıq Ələsgər həmyerliləri ilə bir yerdə ağır məclislər yola verdiyi qonşu Kəlbəcərə pənah gətirmişdi.

O zaman Azərbaycan müstəqil dövlət deyildi, Çar Rusiyasının ucqar bir əyaləti idi. Çar II Nikolay da taxtdan salınmış, Rusiyanı aclıq, yoxsulluq, vətəndaş müharibəsi bürümüşdü. Azərbaycanda da əhalinin böyük əksəriyyəti savadsız, dünyada və regionda gedən siyasi proseslərdən xəbərsiz idi. Bundan başqa, yoxsulluq, silah-sursat ehtiyatının olmaması, ayrı-ayrı bölgələrin bir-birindən xəbərsiz, məlumatsız olması da öz işini görmüşdü.

Birinci Dünya müharibəsində ruslara qoşulan ermənilər Osmanlı dövləti ərazisində türk şəhərlərinə, kəndlərinə hücum edir, silahsız dinc əhalini cinayətkarcasına qətlə yetirirdilər. Ermənilərin törətdikləri qətliamları və dövlət əleyhinə casusluq fəaliyyətlərini dayandırmaq üçün Osmanlı dövləti 1915-ci ildə "24 aprel Əmrnaməsi"ni elan etdi.

Həm Osmanlı dövləti ərazisindən gələn silahlı erməni zabitləri və əsgərləri, həm də Çar Rusiyası ordusunda təlim keçmiş erməni hərbçilər əldə etdikləri silahları günahsız, silahsız, əliyalın azərbaycanlı əhaliyə qarşı çevirdilər.

Tarixi mənbələrin verdiyi məlumata görə, 1917-ci ilin dekabrından 1918-ci ilin mart ayına qədər Andranikin rəhbərliyi altında erməni qoşun hissələri İrəvan, Eçmiədzin, Nor-Bəyazid qəzalarında 197 kəndi dağıtmış, əhalini öldürmüş və didərgin salmışlar. 1918-ci ilin martında Bakı, Şamaxı, Quba, Göyçay, Kürdəmir, Salyan, Lənkəran və digər bölgələrdə də bu qırğınları davam etdirmişlər. Naxçıvan, Gəncə və Zəngəzur vilayətlərində bu qırğın və talanların miqyası daha böyük olmuşdur.

Yeri gəlmişkən, bildirim ki, mənim də 33 ildir ki, Kəlbəcərdən məcburi köçkün düşdüyüm Göygöl rayonunun Balçılı kəndi vaxtilə 20 kənddən ibarət bir kiçik mahalın adı olmuşdur. 1918-ci ildə buraya, xüsusən də Dərə Balçılıda yerləşən kəndlərə ermənilər hücum etmiş, Ağyoxuş kəndində insanlıq dışı faciələr törətmişlər. Ancaq Ağyoxuş qırğınları nə qeydə alınıb, nə tarix kitablarına yazılıb, nə də mətbuata yol tapıb. Eləcə yaddaşlarda, xatirələrdə yaşayır.

Azərbaycanlı əhalinin var-yoxunun talan edilməsi, sağ qalanların isə öz yurd-yuvalarından didərgin salınması, bir sözlə, erməni daşnaklarının törətdikləri ən böyük qırğınlardan biri Göyçə mahalında həyata keçirilmişdir. Əhalisinin böyük əksəriyyəti azərbaycanlılardan ibarət olan Göyçə mahalında olan qırğınlar haqqında, əhalinin sağ qalan hissəsinin öz yurd- yuvalarından qovulması haqqında, köçkün düşməsi haqqında da tutarlı tarixi faktlar azdır. Ancaq bu faktların bir qismi nə yaxşı ki, bədii sözün hesabına itib-batmayıb, aşıqların, nağılçıların dilində nəsildən-nəslə ötürülərək yaşamaq hüququ qazanıbdır.

Bir elə gələn fəlakət, bir yurdu gözləyən afət o elin sənətkarından, söz ustasından yan keçə bilməzdi. Göyçə camaatı öz kəndlərindən, dədə-baba evlərindən baş götürüb dağlara üz tutdular. Hələ qarı-buzu əriməmiş uca dağ zirvələrini keçib Cavanşir mahalının indiki Kəlbəcər rayonunun onlara ən yaxın olan kəndlərinə çatmağa, tayqulaq Andranikin qaniçən quldur dəstələrindən canlarını qurtarmağa çalışırdılar.

Yazın ala-çalpovunda dağın boranına düşüb qırılan əhalinin ah-naləsini eşidəcək Allah bəndəsi olmadı. Qışdan 3 gün borc alan yaz fəsli həmin il qəzəblə, nifrətlə, həqarətlə dağın gədiyini aşmaqda olan ac-susuz, yorğun köç əhlini haqladı. Ona saymazlıq göstərən qarı nənənin keçilərini qırmaqla ürəyi soyumadı. Qışdan kirələyib aldığı tufan, boran, qasırğa adlı döyüşçüləri ilə bu talehsiz insanları qısnayıb dərin dərənin içinə doldurdu. İnsanlar bir-birinə qısıldılar, beş bir, on bir toplaşıb dərənin kənarındakı qayalara, kahalara, yarğanlara pənahlandılar.

Heyhat, təbiət ona bu dəfə pənah gətirənlərə həyan olmadı, onların malına da, canına da qıyan oldu. Soyuqdan, şaxtadan buz bağlayan insanların üstünə burum-burum qar ələdi. Donmaqda olan insanlara nəfəs çəkməyə imkan vermədi. Bu müsibəti hər şeyi görən Allah da sanki görmədi. Az sonra əsən qarlı, buzlu külək yamaclardakı, zirvələrdəki düyuyə bənzər narin qar dənələrini sovurub bu biçarə insanların sığındığı dərəni doldurdu. O tay, bu tay yamaclara qədər bu dərin dərə küləyin sovurub gətirdiyi qarla doldu. Bu qar laylarının altında qalan insanlar nə tərpənə bildilər, nə də tarın altından çıxa bildilər.

Aradan illər keçəcək. Kəlbəcərli şair Məmməd Aslan bu faciəli hadisəni eşidəcək, tükləri biz-biz duracaq. Ancaq sovet rejiminin çəkdiyi qalın pərdəni, keçilməz səddi tam çılpaqlığı ilə aça bilməyəciyini bilmiş, ürək yanğısını "Sümüklü dərə" şeiri ilə söndürməyə çalışmışdır. Bənzərsiz bədii dilə, üsluba malik olan şair 1969-cu ildə qələmə aldığı bu şeirdə başımıza gələn bu faciələrdən obrazlı bir dillə bəhs etmişdir. Göyçə mahalında mənfur ermənilərin törətdiyi vəhşilikləri o zaman üçün gənc və istedadlı şair cəsarətlə lənətləmiş, Sovet hökumətinin kəsəkəs vaxtı olmasına baxmayaraq xalqı öz keçmişinə, öz tarixinə sahib çıxmağa çağırmışdır:



***Mən dərə görmüşəm: moruq qoxulu,***
***Mən dərə görmüşəm:nərgiz yuxulu...***
***Bu dərə nə qədər müdhiş, qorxulu -***
***Sümüklü dərə.***

Aşıq Ələsgərin əsərlərindən Göyçə mahalında yaşayan azərbaycanlıların öz yurd-yuvalarından qovulana – 1918-ci ilə qədər də müəyyən çətinliklərlə üzləşdiyi məlum olur. I Dünya müharibəsinin törətdiyi qıtlıq, iqtisadi çətinlik kimi problemlərə ermənilərdən gələn milli zülm və ayrı-seçkilik də əlavə olunur. Qocaman sənətkar bir filosof uzaqgörənliyi ilə Göyçə mahalında iqtisadi çətinliklərin olduğunu, insanların həyat şəraitinin günbəgün pisləşdiyini bir sıra əsərlərində qeyd etdiyi kimi "Bahalıq" şeirində də realistcəsinə təsvir etmişdir:

***Satırlar iman, bahalıq.***
***Gen dünya bizim üçün***
***Olubdu zindan, bahalıq.***
***Günü-gündən dərdimiz***
***Eyləyir tüğyan, bahalıq.***

Müxəmməsin bu bəndindən aydın görünür ki, Göyçədə iqtisadi tənəzzül yaradan, "gen dünyanı bizim üçün zindan edən" "qeyri-yerin millətidir". Bu vəziyyəti yaradan yəqin ki, xarici ölkələrdən köçürülüb gətirilən erməni tacirləridir, iş adamlarıdır, ayrı-ayrı məmurlardır, "çinovnik, naçalnik və pristav"lardır. Ancaq eyhamla danışan aşıq bu adamların kimliyinə, milli mənsubluğuna aydınlıq gətirmir. "Ağaclı ağacını götürəndə suçlu suçunu anlayar",



atalar sözündə olduğu kimi suçlunun kimliyini anlamağı dinləyicinin öhdəsinə buraxır:

***Ələsgərin bu dərdini***
***Gedin, dərdbilənə deyin.***
***Ac, susuz, açıq, çılpaq***
***Sürürük dövran bahalıq.***

Qocaman sənətkar "Ələsgərin (əslində isə xalqın, millətin) dərdini" başbilənlərə, dərdbilənlərə deməklə xalqın bu acınacaqlı vəziyyətdən çıxış yollarını arayırdı. Ancaq heyiflər olsun ki, vəziyyət daha da pisləşdi. Göyçə mahalı öz yerindən yeridi, insanlar tərki-vətən oldular.

Tərtər çayının əsas qollarından biri olan Lev çayı öz başlanğıcını Qonurdağdan, Söyüdlüdən, kiçik Alagöllərdən axan bulaqlardan başlayır, Dəmirçidam, Cəmilli, Lev, Təkəqayası kəndlərinin dağlarından kiçik çaylar şəklində axıb gəlir, bu kəndlərin aşağı hissəsində bütöv bir çay halında birləşərək Qamışlı kəndini keçəndən sonra Tərtərə qarışır.

Lev çayının sağ sahili Söyüdlüdən Tərtərə qədər meşə örtüyü ilə bürünmüş yamyaşıl yamaclardan, astanalardan, talalardan, sərt qayalardan, dağlardan ibarətdir. Lev çayının bu sağ sahilində yalnız bircə kənd var idi: Qanlıkənd. Dörd tərəfi meşə ilə əhatə olunmuş bu kənd olduqca mənzərəli bir yerdə yerləşirdi. Kənd sakinlərinin çoxu isə dülgərlik və bənnalıq işlərinin məharətli ustaları idilər. 1905-ci ildə ermənilərin Dərələyəzdə törətdikləri qırğınlardan canını qurtaran bir neçə qohum ailəyə həmin Qanlıkənddən olan Mərdan oğlu Abbas tarixi Lev qalasının üst yanında – Qalaboynu adlanan ərazidə yaşamaq üçün yer verir.

Qalaboynu ilə Qanlıkəndin arası çox yaxın idi – iki kilometrdən də az idi. 1918-ci ildə Aşıq Ələsgərin Göyçədən qaçqın düşən ailəsini də Qanlıkəndin o vaxtkı kişiləri Qalaboynu adlanan yerdə yerləşdirir. Qısa vaxtda onlar köməkləşib Aşıq Ələsgərə bir ev tikirlər. Abbasın atası Mərdanın çayın kənarında olan dəyirmanını işlətmək işini də Aşıq Ələsgərə həvalə edirlər. Aşıq Ələsgər həm bu dəyirmandan aldığı haqq ilə ailəsini dolandırır, həm də Qanlıkənd və İlyaslar (Ellazallar) arasında olan qan düşmənliyinin davam etməsinin qarşısını almış olur.

1981-1984-cü illərdə təyinatla Kəlbəcər rayonunun Qanlıkənd kəndində müəllim işləyəndə dəfələrlə tarixi Lev qalasına, qalanın üst yanında Qalaboynu adlanan yerdə Aşıq Ələsgərin evinin kalafasına baxmışdım, sanki, qəmli düşüncələrindən doğan misraların əks-sədası yarpaqların pıçıltılarına qarışmışdı:

***Sürgün torpağına bənzəyir bu kənd,***
***Hər tərəf sakitlik, hər insan tənha.***
***Burda istədiyin dostla görüşmək***
***Ümidi qalıbdı yalnız Allaha.***

Arının, mal-qoyunun qırılması, balın-yağın qəhətə çəkilməsi, əkin-biçin işlərinin pozulması nəticəsində arpanın, buğdanın çətinliklə tapılması, hətta pulun dəyərdən düşdüyü bir zamanda dareqanın da, darının da hədsiz dərəcədə bahalaşması əhalinin çətin güzəranını bir qədər də çətinləşdirdi. Faktiki olmayan dövlətdən, başını itirmiş cəmiyyətdən əli üzülən qocaman sənətkar üzünü Allaha, peyğəmbərə tutur, "şahlar şahın"dan imdad istəyir:

***Zalım cəllad nə giribdi qəsdinə,***
***Xəbər verin övladına, dostuna.***
***Şahlar şahı sayə salsın üstünə,***
***Ələsgərtək bəxti qara dolansın!***

Aşıq Ələsgərin bu şeirdə - "Dolansın" rədifli qoşmasında gəldiyi qənaətlər, fikir və düşüncələr mahiyyət etibarilə Molla Pənah Vaqifin həyatının son illərində gəldiyi qənaət və nəticələrə uyğundur. M.P. Vaqif də "Görmədim" müxəmməsində Allahdan başqa bir kimsədə lütvi-inayət görmədiyini bildirmiş, "Bax" qəzəlində isə üzünü "Əhmədi-Muxtara, Ali-Əbaya" çevirməkdən başqa bir yol görmədiyini söyləmişdir.

Qaçqınlıq dövründə dediyi "Tapılmaz" rədifli qoşmasında Aşıq Ələsgər doğma elində və evində olan xoş günlərini yada salır, ermənilərin hücumları nəticəsində Göyçə mahalının bəy, sərdar ləyaqətində olan adamlarının öldürüldüyünü, ağ otaqların, əlvan yorğan-döşəklərinin yandırılıb talan olunduğunu ürək ağrısı ilə dilə gətirir:

***Bica işdi mən bu sözü deməyim,***
***Ölübdü sərdarım, tutulub bəyim.***
***Ağ otağım, əlvan yorğan-döşəyim,***
***O şövkəti-şan bu yerdə tapılmaz.***

Quranı, islam dininin əsaslarını mükəmməl bilən, öz əsərlərində Məhəmməd Peyğəmbərə, imamlara məhəbbət və sədaqətini bildirən Aşıq Ələsgər həyatının bu çətin və məşəqqətli anlarında belə öz iman və əqidəsində sabitqədəm qalır, dini baxış və inamını qoruyub saxlayır. "Bu yerdə tapılmaz" şeirinin son bəndində dini-tarixi şəxsiyyət olan 8-ci imamımız İmam Rzaya Xorasan şahına pənah aparmaqdan başqa çarə yolu görmür:

***Ələsgər, viranda xəstə düşgünən,***
***Eyham anla, sözün üstə düşgünən.***
***Şahi-Xorasana bəstə düşgünən,***
***Dərdinə dərman bu yerdə tapılmaz.***

"Dəyirmançı aşıq" dastan-rəvayətindən məlum olur ki, İrəvan tərəflərdə türk-müsəlman əhalisini qıran daşnaklar Göyçə mahalına da hücum edirlər. "Novruz bayramından 17 gün keçənə qədər Göyçənin igid oğulları ermənilərlə vuruşdular. Ermənilərə yenə qüvvə gəldi, müsəlmanların gülləsi qurtardığına görə, Göyçədən çıxmağa məcbur oldular". Aşıq Ələsgərin Çamırlı kəndindən olan Həsən, Heydər və Mustafa adlı dostları da ermənilərə qarşı döyüşlərdə həlak olurlar. Bu üç igid qardaşın ölüm xəbəri də qocaman aşığı möhkəmcə sarsıdır:

***Hanı Həsən, hanı Heydər,***
***Hanı sərdar Mustafa?***
***Sayəyi- mərhəmətindən***
***Bir müddət sürdük səfa.***

Azərbaycanlıların ov tüfənglərinin olmadığı halda ermənilərin ruslardan əldə etdikləri tüfənglərlə, hətta toplarla silahlanması, xalqımıza qarşı genosid siyasətini həyata keçirtməsi qocaman el sənətkarının əndişəsini daha da artırır.

"Arxalı köpək qurd basar" məntiqi ilə hərəkət edən ermənilər 1918-ci ilin yaz-yay aylarında nəinkin Azərbaycan xalqının yaşadığı şəhər və kəndləri habelə Azərbaycan xalqının yaylağa köçən təbəqələrini də top-güllə atəşinə tuturlar. Xalqımızın mal-qarasını da ələ keçirəndən sonra bahalıq, qıtlıq tüğyan eyləyir. "Dərd gələndə, batmanla gəlir", – deyib atalar. Batmanla gələn dərdləri Dədə Ələsgər bir operator dəqiqliyi, bir rəssam məharəti ilə təsvir edir:

***Sarınərdən top-tüfəngin atılı,***
***Qısır Murğuz Şah dağına çatılı.***
***Bir əmliyin min tümənə satılı,***
***Yenə xəzəl oldu pulların, dağlar.***

"Aşıq elnən nəfəs alar", "Aşığınkı toydur, mollanınkı vaydır,"- deyib atalarımız. Doğma türk obalarının, yurdlarının yağmalandığını, talan edildiyini görən qocaman el aşığı elsiz yaşamaqdansa eli ilə, obası ilə birgə hər cəfaya dözməyi, hətta ölməyi belə üstün tutur:

***Arsız aşıq elsiz niyə yaşadı?!***
***Ölsün Ələsgərtək qulların, dağlar!***

"Dağlar" rədifli qoşmasında Dədə Ələsgər elat camaatının səxavətli-əliaçıq olduğunu ağır məclislər qurduğunu, öz mal-dövlətini şülən çəkdiyini bildirir:

***Hanı mərd iyidlər, boş qalıb yurdu?***
***Səxavətdə Eldar nurəlanurdu.***
***Erkək kəsib, ağır məclis qururdu,***
***Şülən çəkilirdi malların, dağlar.***

Şeirdə qəmgin, ümidsiz düşüncələrlə bərabər, mərdlik, cəsarət, hünər notlarının da olması Aşıq Ələsgərin Azərbaycan xalqının gələcəyinə, igid oğullarımızın düşməndən qisas alacağına inam bəslədiyinin əyani sübutudur:

***Halıyam Eldarın var cümləsindən,***
***Gecə yatmır bir-birinin bəhsindən.***
***İyid nərəsindən, güllə səsindən,***
***Dəyməmiş tökülür kalların, dağlar.***

Göyçə əhalisinin doğma yurd-yuvalarından didərgin düşməsindən üç ildən artıq bir vaxt keçəndən sonra – 1921-ci ilin 2-ci yarısından etibarən camaat hissə-hissə öz doğma kəndlərinə, evlərinə dönməyə başladılar. Hər şeyi təzədən başlamaq, yenidən tikib-qurmaq lazım gəldi. Heç bir dövlət yardımı almayan zəhmətkeş insanlar min bir əzab-əziyyətlə dədə-baba yurdlarını abadlaşdırmağa başladılar.

Göyçənin digər kəndləri kimi, Ağkilsə kəndinin camaatı da öz ev-eşiyinə, öz yurd-yuvasına qayıdır. Ömrü boyu Allaha, peyğəmbərə, imamlara sidqi-dildən bağlı olan Aşıq Ələsgər üçillik intizardan sonra doğma evinə qayıdır və möcüzə ilə qarşılaşır. Kənddəki bütün evlər erməni vandalları tərəfindən yandırılsa da, Aşıq Ələsgərin evi yanmayıb, salamat qalmış imiş. Aşıq Ələsgərlə bağlı olan "Yanmayan ev" adlı xatirəsində Aşıq Talıbın söylədiyi əhvalat çox ibrətamizdir.

Camaat Göyçədən qovulandan sonra ermənilər kəndləri talamış, evləri yandırmışdı. Göyçəlilər Azərbaycanın ayrı-ayrı yerlərində yaşayırdılar. Bizim külfətimiz də Kəlbəcərin Qanlıkənd kəndindəydi. Qaçqınlar bir-birinin vəziyyətindən tez-tez halı olurdular. Allah keçənlərinizə rəhmət eləsin! Dədəmin də yanına göyçəlilərdən gəlib-gedən çox olurdu. Göyçəyə qaçandan bir az sonra Ağkilsədən kim idisə (huşumdan çıxıb) bizə gələnlər varıydı. Bir az söhbət eyləyəndən sonra, Ağkilsə kəndinin də tamam yanırıldığını söylədilər və bizim evin yanmasına təəssüfləndilər.

Dədəm dedi:

– Mənim evim yanmaz! Gələnlərdən biri dedi:

-Axı, gözümüzlə gördük. Kənddəki evlərin hamısı yanırdı. Sizin də evin bacasından tüstü-alov ərşə bülənd olmuşdu.

-Gözünüzlə görsəniz də mənim evimi erməni yandıra bilməz!

-Axı niyə yandıra bilməz?! O evin də üstü ağacdan deyil?! Dədəm bir az da uca səslə dedi:

- O evin ağaclarını ağzım oruc, yayın isti günlərində meşədən min bir əziyyətlə gətirmişəm. O ev yanmaz!

Söhbət bununla kəsildi.

Göyçəyə qayıdanda gördük ki, kənddə salamat qalan bircə bizim evdi. Dirəklərin dördünün də dibində qalaqlanan qamış külü göstərdi ki, evin yanması xəbərini verənlər yalan deməyiblər.

Belə şiddətli alova tutulan evin od almaması hamını heyrətləndirdi.



1988-ci ildə Ermənistan adlanan respublikadan azərbaycanlı əhali son nəfərinə qədər qovuldu. Ulu Göyçə elinin də əhalisi öz yurd-yuvalarını tərk edib Azərbaycana pənah gətirdilər. Aşıq Ələsgərin övladlarının evi də, ölməz sənətkarın məzarı da işğal altında qaldı.

Aradan az və ya çox illər keçəcək, azərbaycanlılar doğma yurd yerlərinə dönəcəklər. İnanırıq ki, 1918-1921-ci illərdə aşıq Ələsgərin evi yanmayıb salamat qaldığı kimi yaxın gələcəkdə, təxminən, 2030-cu illərin hansısa uğurlu bir ayında, günündə Göyçə mahalı da yenidən əzəli sakinlərini qarşılayacaq. O yerlərdə rəhmətə gedən əcdadlarımızın, o cümlədən Dədə Ələsgərin ruhu o torpağa dönən insanlarımızı salamlayacaq. O gün uzaqda deyil.

***Salman QARALAR,***
***şair-tədqiqatçı,***
***ələsgərşünas***

*Turan sevdalıları*

# Ramiz Əskər "professor tələbə" idi...



**...1978-ci ildir. Moskvada tələbəyik. Ramiz M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinin V, mən isə IV kurs tələbəsiyəm. Universitetin "vısotka" adlandırılan əsas korpusunda yerləşən tələbə yataqxanasının 13-cü mərtəbəsində ikimiz bir otaqda qalırıq.**

Bu qeydləri qələmə alarkən üstündən 47 il keçəndən sonra belə Moskvada Ramizlə birlikdə keçirdiyim günlərin, sadəcə, bəzi anlarını canlandırmağa çalışmışam. Dərhal deyim ki, bu zaman yaddaşımı zora salmağa heç bir lüzum qalmadı, ona görə ki, sabaha ümidlə, inamla yaşadığımız o unudulmaz anlar hələ də ən xırda təfərrüatları ilə yadımdadır.

...Haradasa dekabrın son günlərindən biridir. Axşam, təxminən, 20 radələridir. Təbii ki, bayırda hava 2-3 saat əvvəldən qaralıb. Otaq istidir, amma soyuq küləyin pəncərədə aramsız vıyıltısı eşidilir. Ramiz şəhərdən qayıtmadığı üçün narahat olmağa başlayıram.

Böyük ehtimalla Ramiz Ankaradan "Böyük teatr"a 2 həftəlik yaradıcılıq ezamiyyətinə gəlmiş türkiyəli tenorla (təəssüf ki, adını unutmuşam) bir yerdə olduğu üçün ləngiyə bilərdi. Axı, o, "İnturist"in xəttilə türkdilli əcnəbi qonaqlara tərcüməçilik edirdi. Türk və rus dillərini əla bildiyi üçün hörmətli qonaqları müşayiət etməyi ona etibar edirdilər.

Ramiz Moskvada Türkiyədən təşrif buyuran rəsmilər və mədəniyyət adamları barədə təəssüratlarını mənə həvəslə nəql edərdi. Qardaş ölkə barədə o illər informasiya qıtlığı vardı. Sovet mətbuatı da NATO üzvü olan Türkiyəni, əsasən, neqativ planda təqdim edirdi. Tez-tez yazırdılar ki, guya türklər öz vətənlərində yoxsulluq və işsizlik səbəbindən kütləvi surətdə Avropaya, xüsusilə Almaniyaya mühacirət edirlər və burada ən ağır, hətta həqarətli işlərdə çalışırlar.

Bu xəbərlər, təbii ki, bizi üzürdü, şənimizə toxunurdu. Biz türk qardaşlarımız barədə xoş xəbərlər eşitmək arzusundaydıq. Ramiz isə əsasən mətbuatın demədiyi, gizlətdiyi şeyləri deyirdi. Türkiyə barədə geniş, hərtərəfli biliklərə malik olduğu üçün tarixdən nümunələr gətirirdi. Onun qəlbində türklərin bu çətinliklərdən çıxacaqlarına dərin inam vardı və bu inam mənə də sirayət etmişdi.

...Artıq axşam saat 9-un yarısıdır. Ramizdən hələ də bir xəbər yox idi. Dözməyib dəhlizə çıxdım. Heç 5-10 dəqiqə keçmədi ki, Ramizin tanış aşırma sumkası ilə liftdən çıxdığını gördüm. Gözümə işıq gəldi, nigaranlığım yox oldu. Tez otağa qayıtdım. O, həmişəki kimi həmin gün harada, kimlərlə görüşdüyü barədə danışdı, bəzi mülahizələrini söylədi.

Bu arada mənimlə bir qrupda oxuyan Türkmənistandan olan tələbə yoldaşım Akməhəmməd Həmidov qapını ərklə döyüb içəri girdi və "professor"un (Orta Asiyadan olan tələbələr MDU-da Ramiz Əskəri bu adla çağırırdılar) söhbətləri üçün darıxdığını söylədi. Ramiz türkdilli respublikalardan olan bütün uşaqların xətrini çox istəyirdi, Akməhəmmədə isə xüsusi rəğbəti vardı.

Bir xeyli XVIII əsrdə yaşayıb-yaratmış böyük türkmən şairi Məhtimqulu Fəraqinin yaradıcılığı və onun türkmən ədəbi dilinə təsiri barədə danışdılar. Arada Akməhəmməd dedi ki, Məhtimqulu poeziyasının dili Füzulinin poetik dilinə çox yaxındır. Ramiz qonağın nəyə eyham vurduğunu yaxşı bilirdi. Bir çox türkmən ziyalıları Füzulini özlərinki hesab edirdilər. Azərbaycan alimləri və hökuməti guya qabağa düşüb Füzulini türkmənlərin əlindən alıblar. Yadımdadır, Ramiz daşdan keçən arqumentlər söylədi və sonda sanki bütün türkmən ziyalılarına müraciət edirmiş kimi dedi:

– Füzuli həm bizim, həm sizindir, geniş mənada Böyük Turanın şairidir.

Bunun ardınca Ramiz həm Məhtimquludan, həm də Füzulidən əzbərdən bir neçə qoşma və qəzəl söylədi. Akməhəmməd heyrətlə ona baxırdı. O, Ramizin geniş erudisiyası və fenomen yaddaşına, sadəcə, heyran qalmışdı.

Yeri gəlmişkən, Akməhəmməd Həmidov müasir türkmən ədəbiyyatının ən tanınmış simalarından biridir. Onun türkmən xalqının həyat tərzindən, arzu və qayğılarından bəhs edən çox sayda hekayə və povestləri rus, türk, türkmən dillərində dəfələrlə nəşr olunub. Yeri gəlmişkən, Akməhəmmədin bir neçə hekayəsini türk dilinə Ramiz özü tərcümə edib və Türkiyədə nəşr olunaraq yayılmasına dəstək verib.

...Akməhəmməd gedəndən sonra Ramiz o illərdə MDU-nun fizika fakültəsinin tələbəsi Solmazın onu soruşub-soruşmadığı ilə maraqlandı. Dedim ki, bir neçə saat əvvəl gəlmişdi, sənin türk tenora tərcüməçilik etdiyini biləndə dedi ki, Ramiz türkləri görəndə hamını unudur.

Ramiz, təbii ki, eyhamı anladı və dedi:

– Solmaz haqlıdır. Bir neçə gündür ki, ondan hal-əhval tuta bilməmişəm.

Solmaz xanım dedi ki, Ramiz şəhərə çıxanda nazik geyinməsin...

Ramiz gülümsündü və bu dəfə heç nə demədi...

Onlar bir-birilərini sevirdilər və Bakıya gedən kimi toy etmək fikrində idilər. Bir ildən sonra mən Bakıya məzun kimi qayıdanda artıq evli idilər. Ramiz öz sevgisinə dönük çıxmamışdı və buna görə gözümdə bir mərtəbə də ucaldı. Ramiz və Solmaz xanımın ailəsində Vətən üçün gözəl, tərbiyəli, zəkalı övladlar böyüdü. Onların hər birinin xoş sorağını eşidəndə ürəyim dağa dönür.

Yeri gəlmişkən, Ramiz Əskər ölümündən 3-4 il əvvəl Aşqabadda keçirilən nüfuzlu beynəlxalq simpoziumda iştirak edərkən Akməhəmməd Həmidovla görüşmüşdü. Akməhəmməd simpoziumun təşkilatçılarına şəstlə deyib ki, "mən bu kişini hələ onun tələbəlik illərində "professor" deyə çağırırdım. İndi, o, həqiqətən, Bakı Dövlət Universitetinin professorudur, kafedra müdiridir. Azərbaycan xalqının yox, Böyük Turanın oğludur!

Ramiz, həqiqətən, türk xalqlarının dilləri və ədəbiyyatlarının dərin bilicisi idi. O, soykökü bir olan bu mədəniyyətlərin bir-birinə yaxınlaşması üçün titanik işlər görürdü. Təkbaşına Mahmud Kaşğarinin 4 cildlik "Divani-Lüğət-it türk" əsərini tərcümə edib nəşr etdirmişdi. Əlişir Nəvai və Məhtimqulunun bütün külliyyatlarını dilimizə çevirib. Bütövlükdə, Turanla bağlı onlarla kitab yazıb, dəyərli hesab ediyi elmi, publisistik yazıları dilimizə çevirib.

Bir sözlə, professor Ramiz Əskər Böyük Turan sevdalısı idi və təkcə doğma Azərbaycanda deyil, bütövlükdə, türk xalqlarının ziyalıları arasında böyük hörmət sahibi idi. Günlər, aylar, illər ötdükcə, Ramiz Əskərin bir insan kimi mənim üçün çox əziz və əvəzsiz olduğunu daha dərindən hiss edirəm. Ruhu şad olsun!

***Məsaim ABDULLAYEV***
***XQ***

# TDT ölkələrinin turizm dünyası

**Böyük bir coğrafi ərazidə, faktiki olaraq, 2 qitədə yerləşən türk dövlətləri üçün turizmin davamlı inkişafı xüsusi önəm daşıyır. Təqdirəlayiq haldır ki, son vaxtlar Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində bu sahəyə diqqət artıb. Mütəxəssislərin fikrincə, bu, türk xalqları arasında mədəni və humanitar əlaqələrin güclənməsinə səbəb olacaq.**





Türkiyənin turizm sahəsindəki zəngin təcrübəsi TDT dövlətləri üçün nümunə rolunu oynayır. Qardaş ölkəni ildə orta hesabla 60 milyona yaxın əcnəbi qonaq ziyarət edir. Turistlərin sayına görə Türkiyə Avropada Fransa, İtaliya, İspaniyadan geri qalsa da, qardaş ölkədə bu istiqamətdə artan dinamika müşahidə olunur.

Azərbaycan hökuməti də ölkəmizdə turizmin hərtərəfli inkişafını dəstəkləyir. Son illər bu sahədə bir çox irı layihələrin icra olunmasına start verilib. Ölkəmizdə müasir otellərin sayı artır, xidmət səviyyəsi durmadan yüksəlir. Azərbaycanda çox sayda beynəlxalq tədbirlərin keçirilməsi də turizmin sürətli inkişafına təkan verir.

Yeri gəlmişkən, bir müddət əvvəl "Xalq qəzeti" redaksiyasına 2 türkiyəli jurnalist təşrif buyurmuşdu. Baş redaktor Əflatun Amaşov onları mənimlə tanış etdi. Məqsədlərinin Azərbaycanda turizmin inkişafını təşviq etmək olduğunu dedilər.

Məlum oldu ki, həmkarım Mövlud Yeni Türkiyə Qəzetçiləri Konfederasiyası başqanının beynəlxalq əlaqələr üzrə yardımçısıdır. 40 ilə yaxın davam edən uğurlu peşə fəaliyyətinin çox hissəsini "Tərcüman", "Axşam", "Sabah" kimi nüfuzlu qəzetlərin redaksiyalarında keçirib, bu mətbu nəşrlərdə parlaq araşdırma yazıları dərc etdirib.

Mövlud Yeni hazırda Türkiyədə kifayət qədər populyar olan "mygazete.com" saytının sahibidir. O, Azərbaycanda turizmin perspektivləri barədə söz düşəndə əvvəlcə bunları dedi:

–Bilirsinizmi, turizm sektoru bu gün neft qədər gəlirli, həm də də ekoloji cəhətdən zərərsiz, yəni "bacasız istehsal sahəsi olmaqla", sevimli ölkələrimizin iqtisadiyyatının inkişafına əlavə dinamizm və sanballı maliyyə faydaları gətirmək gücünə malikdir.

Mövlud bəyin bu sözlərindən sonra digər türkiyəli həmkarım Emin bəy də öz növbəsində söylədi ki, bir halda ki, hədəf bəllidir, niyyətimiz xeyirxah məqsədlərə xidmət edir və real imkanlara söykənirsə, niyə bu sahədə qüvvələrimizi birləşdirib layiqli uğur qazanmayaq.

Emin bəy sonra qeyd etdi ki, belə bir amili də unutmaq olmaz ki, çağdaş dünyada bütün sahələrdə, eləcə də turizm sektorunda rəqabət çox güclüdür. Bu istiqamətdə yeni yaranmış fürsətləri qaçırmaq zərər gətirər. Biz əl-ələ verib zamanın çağırışlarını qarşılamağı bacarmalıyıq.

Bu fikirlərdən sonra qonaqlar bir sıra önəmli rəqəm və göstəriciləri dilə gətirdilər. Bildirdilər ki, son 5 ay ərzində Türkiyədən Azərbaycana cəmi 170 min turist səfər edib. Bu göstərici mövcud potensialla müqayisədə çox aşağıdır. Daha böyük irəliləyişə nail olmaq isə mümkündür və vacibdir.

Mövlud bəy öz növbəsində, dərin inam hissi ilə dedi:

– 85 milyon əhalisi olan Türkiyədən nədən qardaş ölkəyə hər il azı 1 milyondan çox turist gəlməsin?! Niyə türkiyəli ziyarətçilər gözəl və bənzərsiz Şuşanın təmiz havasından udub, İsa bulağının saf suyundan içməsinlər? Nə üçün Xəzərin "cənub mirvarisi" Lənkəranın, "şimal gözəli" Qubanın məğrur dağları kimi qürurlu insanları ilə ünsiyyətdə olmasınlar? Nədən dünyanın ən ləziz mətbəxləri ilə yarışmaq gücündə olan Şəki nemətlərinin ləzzətini damaqlarında hiss etməsinlər?! Hansı turist Zaqatalanın bərəkətli vadilərində becərilən qızılgüllərin gözəlliyinə heyran qalmaya bilər?!

Bəli, Azərbaycan başdan-başa gözəlliklər diyarıdır! Təkcə Mövlud və Emin bəy deyil, başqa çox sayda türkiyəli həmkarlarımız da "can Azərbaycan"ın böyük turizm imkanlarını təbliğ və təşviq etmək, marketinq ilə bağlı məsələlərin həllinə dəstək verməyə hazırdırlar.

Belə bir vacib amili də nəzərdən qaçırmayaq ki, rəsmi media orqanları ilə yanaşı, geniş izləyici auditoriyası olan sosial şəbəkələrin, internet televiziya kanallarının imkanlarını da bu xeyirxah missiyanın həllinə yönəltmək olar və lazımdır.

Bu gün təkcə Türkiyə və Azərbaycan deyil, Orta Asiyada yerləşən digər türk dövlətləri – Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanda da turizmin inkişafı prioritet vəzifələrdəndir.

Məlumat üçün bildirək ki, turistlərin sayına görə, Qazaxıstan regionda liderlik edir. 2024-cü ildə bu ölkəyə 15 milyon turist səfər edib. İkinci yerdə Özbəkistan gəlir. Ötən il bu qədim türk diyarını 8 milyon turist ziyarət edib. Bu, əvvəlki ildə olduğundan 20,1 faiz çoxdur. Özbəkistanın Buxara və Səmərqənd kimi qədim şəhərləri əcnəbi qonaqların xüsusilə böyük maraq göstərdikləri tarixi məkanlardır.



# İssık-göl – qırğız ruhunun aynası

**Dünyanın ən gözəl, gözoxşayan qapalı su hövzələrindən biridir İssık-göl! Qırğızıstanda Tyan-Şan dağlarında yerləşir. Duzlu göldür, kənara heç bir axımı yoxdur. Duzluluğu, təxminən, 6 promildir. Gölün ən dərin yeri isə 937 metrdir. İssık-göl qırğız dilində "İsti göl" deməkdir.**

İssık-gölün səciyyəvi özəlliklərindən biri budur ki, dəniz səviyyəsindən 1607 metr yüksəklikdə yerləşməsinə və qışda şiddətli soyuqlara məruz qalmasına baxmayaraq, duzluluq səbəbindən nadir hallarda donur. Həm də gölə isti yeraltı sular axır. Bu da, təbii ki, öz növbəsində onun donmasına imkan vermir.

İssık-gölün ən uzun hissəsi 178 kilometr, ən enli hissəsi isə 60 kilometrdir. Cənubi Amerikadakı Titikaka gölündən sonra dünyanın ikinci ən böyük dağ göludür.

Sovet dövründə İssık-göl məşhur istirahət mərkəzinə çevrilmişdi, indi də onun sahillərində çox sayda sanatoriyalar, pansionatlar və istirahət evləri var. Onların çoxu Çolpon-Ata şəhəri və onun ətrafında cəmləşib.

İssık-göl qırğız şair və müğənnilərinin daim ilham mənbəyidir və bu gün də belədir. Bu mövzuda ən gözəl şeirlərdən birini isə cəmi 35 il ömür sürmüş məşhur qırğız şairi Alıkul Osmonov yazıb. Şeir 1938-ci ildə qələmə alınıb. Orada deyilir:

İssık-göl, sən mənim sevgim, sevincim,
İlhamın misramı dalğalandırır.
Səmadan süzülən zərrin şəfəqlər
Masmavi ləpəni yırğalandırır.

İssık-göl, sən mənim sönməyən sevdam,
Sözümün canında ləpələnirsən.
Gözləri oxşayan gözəlliyinlə,
Ömrümə-günümə səpələnirsən.

İssık-göl, varlığın yaşadır məni,
Bəxtimdən razıyam - şükür, varımsan.
Yorulmaq bilməyir şıltaq ləpələr,
Sən mənim can dostum, nazlı yarımsan.

Mənim nazlı gölüm, gül üzümüzə –
Səninlə birlikdə gözəldir həyat.
Hüsnünə yaraşan nəğməsi, yoxsa
Zəif şairləri süpürləyib at!

# Türk Hava Yolları təyyarələrini yeniləyir

**Yadımdadır, 1980-ci illərin sonunda bir dəfə İstanbuldan Moskvaya uçurduq. Yanımda hazırda Sankt-Peterburq adlanan, o dönəmdə Leninqrad deyə çağırılan şəhərdən olan bir ziyalı, alim xanım əyləşmişdi. Biləndə ki, bizim uçacağımız təyyarənin heyəti türk pilotlarıdır, xanım xeyli sevindi.**




Yol yoldaşımın arqumenti bu oldu ki, türklər səriştəli və məsuliyyətli insanlardır. Bu sözlər, təbii ki, mənə çox xoş oldu. Həqiqətən, vaxtında və çox rahat mənzilbaşına çatdıq.

Bu günlərdə isə qlobal mediada belə xəbər yayılıb ki, "Türk Hava Yolları" (THY) aviaşirkəti 2035-ci ilə qədər inventarını tamamilə yeni nəsil təyyarələrlə təchiz etməyi hədəfləyir. Bununla bağlı aviaşirkət məlumat yayıb.

Məlumatda qeyd edilib ki, THY İdarə Heyəti 2029–2034-cü illər arasında təhvil alınmaq şərti ilə Amerika təyyarə istehsalçısı "Boeing"dən 75 ədəd "B-787-9" və "B-787-10" tipli təyyarənin alınmasına qərar verib.

Açıqlamada, həmçinin 150 ədəd "737-8/10 MAX" tipli təyyarənin alınması məsələsində də "Boeing" ilə aparılan danışıqların tamamlandığı qeyd olunub. Bu sifarişlərin dəqiqləşməsi mühərrik istehsalçısı "CFM International" ilə aparılan danışıqların uğurla başa çatması nəticəsində mümkün olub.

Sonda bu an qəlbimizdən dilimizə axan bir arzunu səsləndirmək qalır: sənmaz həmişə aydın olsun, qardaş türk pilotlar!

# 5 metrlik qazax qadın yaylığı



**Qazaxıstanın Türkistan vilayətində 30-dan çox türk xalqının naxışları ilə bəzədilən, qadınların ənənəvi baş geyimi olan saukele hazırlanıb. Bu nadir eksponatın hündürlüyü 5 metrdən çoxdur və 600 kvadratmetr ərazini əhatə edir.**

Yeri gəlmişkən, sözügedən saukele beynəlxalq Qlobal Rekordlar Kitabına (Global Book of Records) daxil edilib və xüsusi sertifikatla təltif olunub. Qazaxıstan Rekordlar Kitabının rəsmi nümayəndəsi Kuandyk Kudabergenov dünyada heç kimin belə ölçüdə baş geyimi yaratmadığını qeyd edərək bildirib ki, layihənin Ginnesin Rekordlar Kitabına daxil edilməsi üçün qeydiyyat aparılıb.

Layihənin müəllifi Akmaral Daulbayevanın sözlərinə görə, milli baş geyimi xalqın birliyinin və mənəvi varisliyin rəmzidir.

***Səhifəni hazırladı: Məsaim HACIXANLI***
***XQ***

# Azərbaycan avtomobil istehsalını da mənimsəyir

## İrili-xırdalı problemlər olmasa, daha böyük uğur qazanılar





**Dövlət Statistika Komitəsinin 2025-ci ilin yanvar-mart aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri ilə bağlı hesabatında cari ilin birinci rübündə respublikada 1302 (ötən ilin müvafiq dövrü ilə müqayisədə 695 ədəd və ya 2,1 dəfə çox) minik avtomobilinin istehsal edildiyi bildirilib. Ümumilikdə, hesabat dövründə ölkədə 144 milyon manatlıq maşın və avadanlıqlar, avtomobil, qoşqu və yarımqoşquları istehsal olunub. Beləliklə, 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə maşın və avadanlıqların istehsalı 20,9 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı isə 3,1 faiz çoxalıb.**

Müsbət dinamika cari ilin I yarısında da qeydə alınıb. Bu dövrdə respublikada 2132 ədəd (əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 100 ədəd və ya 4,9 faiz çox) minik avtomobili istehsal edilib. Bu il iyulun 1-də 36 ədəd hazır məhsul ehtiyatı olub.

Statistik məlumata əsaslanaraq deyə bilərik ki, cari ilin I yarısından sonra isə ölkədə minik avtomobili istehsalı azalıb. Belə ki, yanvar-avqust aylarında ötən ilin eyni dövrü ilə müqayisədə 318 ədəd və yaxud 12,1 faiz az – 2309 ədəd minik avtomobili buraxılıb. Yanvar-sentyabr aylarında da azalma qeydə alınıb. Belə ki, ötən ilin analoji dövrü ilə müqayisədə minik avtomobillərinin istehsalı 2546 ədəd (29,7 az) olub.

Bəs avtomobil istehsalında qeydə alınan göstəricilərin tarımına müsbət təsir edən İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyindəki sənaye zonalarında bu sahədə vəziyyət necədir? İZİA-nın mediada yayılan məlumatına görə, ötən il sənaye zonalarında 6 minə yaxın avtomobil istehsal edilib. 2018-ci ildən 2024-cü il də daxil olmaqla, ümumilikdə, sənaye zonalarında 442,5 milyon manatlıq avtomobil istehsalı həyata keçirilib. Təkcə ötən il ərzində Hacıqabul Sənaye Parkında 107,5 milyon manatlıq 3761 ədəd avtomobil, Neftçala Sənaye Məhəlləsində isə 54,65 milyon manatlıq 2182 ədəd avtomobil (ötən ilin müvafiq dövrü ilə müqayisədə, təqribən, 34 faiz çox) istehsal edilib. Sənaye zonalarında sözügedən dövrdə "Chevrolet", "Isuzu", "VGV", "UAZ", "Lada", "Khazar" və s. markalı avtomobillər buraxılıb.

### Milli brendin inkişafı niyə ləngiyir?

Yerli avtomobil istehsalına başlanıldığı vaxtdan indiyədək – 15 ilə yaxın bir müddət ərzində respublikada satış tempi yüksəlməyib. Başqa sözlə, istehsalda artım müşahidə olunmasına baxmayaraq, istifadədə tədrici azalma nəzərə çarpıb. Hətta bir vaxtlar müəssisələrdə yerli istehsala maraq göstərilirdisə, indi bu prosesin əksi baş verib.

Xatırladaq ki, 2000-ci illərin sonu – 2010-cu illərin əvvəllərində Azərbaycanda sənaye diversifikasiyasına yönələn yeni mərhələ başlanmışdı. Hədəf neftdən asılılığın azaldılması, yerli istehsalın təşviqi, qeyri-neft sektorunda rəqabətqabiliyyətli məhsulların yaradılması idi. Bu baxımdan avtomobil sənayesinə xüsusi diqqət yetirilməsi təsadüfi deyildi. Ona görə də 2010-cu illərin əvvəllərində Neftçala, Naxçıvan və Gəncə kimi şəhərlərdə avtomobil istehsalı müəssisələrinin yaradılması, xüsusilə "NAZ Lifan", "Khazar", "AzSamand" kimi brendlərin meydana çıxması ölkədə yeni bir sənaye sahəsinin inkişafını şərtləndirdi. Dövlət isə bu layihələrin iqtisadi modernləşdirilməsi xəttini bir istiqaməti kimi dəstəkləndi. Məqsəd həm daxili bazarın tələbatını ödəmək, həm də gələcəkdə regional ixrac imkanları əldə etmək idi.

Hazırda həmin vaxtdan uzun bir müddət keçdikdən sonra sözügedən sahədə tamamilə fərqli bir mənzərə yaranıb. Statistika göstərir ki, yuxarıda vurğulandığı kimi, avtomobil zavodlarının istehsal gücü nisbətən artsa da, daxili bazarda satış tempi yüksəlməyib. Əksinə, bir çox illərdə satışda azalma qeydə alınıb.

Bu paradoksun yaranmasının əsas səbəblərindən biri yerli avtomobillərin bazar mövqeyinin formalaşmasındakı müəyyən çətinliklər olub. Belə ki, müştəri davranışları baxımından Azərbaycan bazarı daha çox xaricdə istehsal edilən avtomobillərə yönəlib. İdxal olunan avtomobillərin həm keyfiyyət, həm dizayn, həm də servis baxımından daha üstün mövqe tutması yerli brendin bazarda yer qazanmasını çətinləşdirib. Digər tərəfdən, avtomobil zavodlarının bir çoxu demək olar ki, montaj mərkəzləri səviyyəsində fəaliyyət göstərib. Yəni həmin müəssisələrdə istehsal deyil, yığma prosesi həyata keçirilib. Bu da məhsulun yerli dəyər payını azaldıb, iqtisadi cəlbediciliyi zəiflədib.

### İstehsalda qeyri-sabitlik

Yerli avtomobil sənayesinin əsas problemlərindən bəhs edərkən əvvəlcə onu qeyd edək ki, sözügedən sahədə istehsala başlandığı ilk illərdə dövlət sifarişləri və güzəştli satınalmalar sayəsində müəssisələr müəyyən dinamika qazansa da, bu tendensiya qısaömürlü oldu. Başqa sözlə, dövlət qurumlarının yerli avtomobil almasına dair məsələyə əvvəl müsbət münasibət bəslənilsə də, sonradan bu, tədricən unuduldu. Bir çox dövlət təşkilatlarında yenidən xarici markalara üstünlük verilməsinə başlanıldı. Bu da təbii ki, bazarda yerli brendə olan etimadı azaltdı. Bundan başqa, istehsalçı şirkətlərin kapital dövriyyəsi zəif, innovasiya xərcləri isə aşağı oldu. İstehsalın modernləşməsi, dizayn və mühərrik keyfiyyətinin artırılması istiqamətində də ciddi irəliləyiş baş vermədi.

Avtomobil bazarında sosial imic və status amili də mühüm rol oynayır. Belə ki, bir sıra ölkələrdə, eləcə də respublikamızda avtomobil çox vaxt təkcə nəqliyyat vasitəsi deyil, həm də sosial göstərici kimi dəyərləndirilir. Bu səbəbdən əhali yerli brendə maraq göstərsə də, "prestiş" baxımından xarici markalara üstünlük verir. Bu davranış modeli yerli avtomobillərin geniş istehlakçı kütləsi tərəfindən qəbul olunmasını ləngidir. Bundan əlavə, servis və ehtiyat hissələrin çatışmazlığı, satış sonrası xidmətlərin zəif təşkili də alıcıların inamını azaldır. Məsələn, bəzi zavodların ehtiyat hissələri ilə bağlı idxalında fasilələr yaranır, bu isə istifadə rahatlığını məhdudlaşdırır.

Əlbəttə, bir sıra iqtisadi amillər və bazar mühiti də yerli avtomobil istehsalına mənfi təsir göstərir. Belə ki, 2015–2020-ci illərdə manatın məzənnə dəyişikliyi, idxal strukturunun dəyişməsi və avtomobil bazarına qoyulan vergi tənzimləmələri bunun bariz ifadəsidir. İdxal rüsumlarının tədricən azaldılması, xüsusilə ikinci əl avtomobillərin gətirilməsinə qoyulan sərt məhdudiyyətlərin olmaması da yerli istehsalçı üçün ciddi rəqabət yaradır. Eyni zamanda, yerli avtomobillərin maya dəyəri yüksək olduğundan bazarda rəqabət qabiliyyəti azalır. Xammal və komponentlərin böyük hissəsinin idxal olunması isə istehsal qiymətini qaldırır. Nəticədə istehlakçı ya daha ucuz ikinci əl avtomobillərə, ya da keyfiyyət baxımından üstün olan xarici modellərə diqqət yetirir. Beləliklə, yerli brend iqtisadi baxımdan orta təbəqəni cəlb edə bilmir.

### Texnoloji məhdudluq və innovasiya çatışmazlığı

Qabaqcıl avtomobil sənayesinə malik ölkələrdə yüksək texnologiyalar, rəqəmsal idarəetmə sistemləri, ekoloji mühərriklər və elektron komponentlər üzərində qurulan zavodlardan fərqli olaraq Azərbaycan müəssisələrinin çoxunda bu sahədə texnoloji müstəqillik çatışmır. Zavodlarda əsasən xarici tərəfdaşların lisenziyaları əsasında montaj işləri görülür, lakin texnologiyanın lokallaşdırılması və yerli innovasiya mərkəzlərinin yaradılması istiqamətində addımlar atılmır. Bunun nəticəsində hər hansı bir texnoloji yenilənmə və ya model dəyişiklikləri xarici tərəfdaşın qərarından asılı vəziyyətdə qalır. Ona görə də respublikada dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsinə ciddi ehtiyac duyulur.

Deməli, respublika iqtisadiyyatında qeyri-neft sənayesinin inkişafına yönəlmiş Dövlət proqramları, o cümlədən "Sənayenin inkişaf Strategiyası", "2022–2026-cı illər üçün sosial-iqtisadi inkişaf Strategiyası" kimi sənədlər yerli istehsalı prioritet kimi müəyyənləşdirsə də, avtomobil sənayesində konkret stimullaşdırmaya zəruri ehtiyac var. Bu sahədə uzunmüddətli investisiya cəlbi mexanizmləri, ixrac güzəştləri, elmi-tədqiqat mərkəzlərinin yaradılması və dövlət-özəl tərəfdaşlığı modellərinin genişləndirilməsi zəruridir.

Ekspertlərin fikrincə, qeyd edilən problemlərin həlli üçün yeni mərhələyə keçid vacibdir. Çünki dünya avtomobil sənayesi də hazırda "yaşıl" keçid dövrünü yaşayır. Elektrik avtomobilləri, hibrid sistemlər, enerji səmərəliyi və "ağıllı" idarəetmə texnologiyaları yeni standartlar əsasında müəyyənləşir. Azərbaycanın avtomobil sənayesinin bu tendensiyaya qoşulması da artıq qaçılmazdır. Neftçala və Gəncə avtomobil zavodlarının potensialı təkcə ənənəvi avtomobil istehsalı ilə məhdudlaşdırılmamalı, "e-mobility" istiqamətinə keçid üçün dövlət-özəl layihələr hazırlanmalıdır. Eyni zamanda, yerli universitetlər və texnoparklar bu sahədə tətbiqi tədqiqatlara cəlb olunmalı, mühəndis kadrların hazırlanması üçün xüsusi proqramlar həyata keçirilməlidir.

Bu məqamda avtomobil sənayesi mütəxəssislərinin gələcək üçün təklifləri də diqqət çəkir:

***– istehsalın lokallaşdırılması əsas məsələlərdən biridir. Belə ki, avtomobil hissələrinin azı 40–50 faizinin ölkə daxilində istehsalına şərait yaradılmalıdır. Bu, həm maya dəyərini azaldar, həm də milli brend anlayışını gücləndirər;***

***– ixracyönümlü modelə üstünlük verilməlidir. Daxili bazarın məhdudluğu səbəbindən regional bazarlara, məsələn, Gürcüstan, Orta Asiya və Yaxın Şərqə çıxış strategiyası hazırlanmalıdır;***

***– elektrikli avtomobil təşviqi diqqətdə saxlanılmalıdır. Dövlət qurumları üçün elektrik nəqliyyat vasitələrinin alınmasına dair kvotaların tətbiqinə üstünlük verilməlidir;***

***– maliyyə dəstəyi mexanizmlərinin tətbiqi istiqamətində yerli avtomobil alıcılarına aşağı faizli kredit və lizinq imkanları təqdim edilməlidir;***

***– nəhayət, servis və satış sonrası infrastrukturun geniş servis şəbəkəsi, ehtiyat hissə logistikası və uzunmüddətli zəmanət mexanizmlərinin yaradılması alıcının etimadını bərpa edə bilər.***

Bütün bu sadalananların həyata keçirilməsi ilə bazar mexanizmləri, innovasiya və rəqabətlilik baxımından ciddi problemlər tez bir zamanda həllini tapar, eyni zamanda, dövlət dəstəyi davamlı, siyasət isə uzunmüddətli istiqamətdə formalaşarsa, milli avtomobil brendi də dirçələr. Əks halda, bu sahə yalnız montaj sənayesi səviyyəsində qalar və "yerli avtomobil" anlayışı iqtisadi reallıqdan çox nostalji dəyər kimi xatırlanar.

### Elektromobil istehsalının sabahı

Dünya iqtisadiyyatı hazırda enerji transformasiyasının ən həlledici mərhələsini yaşayır. "Yaşıl keçid" təkcə bərpaolunan enerji mənbələrinin inkişafını deyil, həm də nəqliyyat sektorunun köklü şəkildə yenidən qurulmasını tələb edir. Bu baxımdan elektrikli avtomobillərin istehsalı və istifadəsi artıq qlobal iqtisadi tendensiyanın əsas istiqamətlərindən biridir.

Azərbaycan da bu prosesdən kənarda qalmır. Enerji ixrac edən ölkə olaraq hazırda həm də enerji texnologiyalarının istehsalçısı kimi formalaşma mərhələsinə qədəm qoyur. Elektrikli nəqliyyat vasitələrinin yerli istehsalı da iqtisadi və strateji baxımdan mühüm addımdır.

Xatırladaq ki, son 10 il ərzində dünyada elektrikli avtomobil bazarı sürətlə genişlənib. 2024-cü ilin sonuna olan göstəricilərə əsasən, dünyada satılan hər 5 avtomobildən biri artıq elektrik mühərrikli olub. Avropa İttifaqı, ABŞ və Çində bu prosesə böyük dövlət dəstəyi var, subsidiyalar, vergi güzəştləri, şarj infrastrukturuna investisiyalar və ixrac stimulları ilə bazar getdikcə genişlənir. Bu baxımdan Cənubi Qafqaz regionu, xüsusilə də Azərbaycan yeni sənaye bazası formalaşdırmaq üçün əlverişli mövqeyə malikdir. Respublikamızın enerji infrastrukturu, alternativ enerji potensialı (külək, günəş və su), eləcə də artıq nəqliyyat-logistika mərkəzi kimi tanınması elektrikli avtomobil sənayesinin inkişafı üçün strateji üstünlük yaradır.

Qeyd edək ki, Neftçala və Gəncə avtomobil zavodları, habelə Sumqayıt Texnologiyalar Parkı sözügedən sahədə ilkin istehsal potensialına malikdir. Bu müəssisələrdə mövcud montaj xətlərini müəyyən modernləşdirmə yolu ilə elektrik mühərrikli avtomobillərin yığılmasına uyğunlaşdırmaq mümkündür. Belə ki, əgər dövlət və özəl sektor birgə investisiya mexanizmi formalaşdırsa, 2026–2030-cu illər arasında ölkədə ilk tam elektrikli avtomobil modellərinin istehsalı reallaşa bilər.

Bu məsələdə əsas hədəf daxili təminatın ödənilməsindən sonra ixrac bazarına çıxmaq olmalıdır. Gürcüstan, Qazaxıstan, Özbəkistan və Qırğızıstan kimi ölkələrdə elektrikli avtomobil bazarı hələ formalaşma mərhələsindədir. Azərbaycan istehsalçısı üçün isə yerləşdiyimiz region, necə deyərlər, ilk dalğa bazarı ola bilər.

### İqtisadi səmərəlilik və yatırım

Beynəlxalq təcrübəyə əsasən, elektrikli avtomobil zavodlarının ilkin investisiya həcmi, təxminən, 150–200 milyon dollar civarındadır. Bu, Azərbaycan üçün real və mümkün göstəricidir, xüsusilə xarici investorlar və dövlət fondlarının, eləcə də Azərbaycan İnvestisiya Holdinqi, İqtisadi Zonalar Agentliyinin iştirakı ilə həyata keçirilə bilər.

İstehsal olunan hər bir elektromobilin ixrac potensialı da yüksəkdir. Məsələn, Orta Asiya bazarında elektrik avtomobilinin orta satış qiyməti 20–25 min dollar səviyyəsindədir. Azərbaycan bu bazarda rəqabətə girmək üçün həm coğrafi, həm logistika, həm də siyasi üstünlüklərə malikdir.

Əlbəttə, bu sahənin inkişafı müəyyən riskləri də ehtiva edir. Batareya xammalı (litium, kobalt) idxalından asılılıq, bazarın hələ formalaşmaması səbəbindən ilkin dövrlərdə satış problemi, texnoloji dəyişikliklərin sürəti və uyğunlaşma çətinlikləri bunun bariz ifadəsidir. Lakin bu risklərin dövlət-özəl tərəfdaşlığı, innovasiya fondu və uzunmüddətli planlaşdırma ilə aradan qaldırılması mümkündür.

Beləliklə, milli avtomobil istehsalı bir vaxtlar iqtisadi modernləşmənin simvolu idi, indi isə "yaşıl sənaye" erasına keçidin əsas vasitələrindən biridir. Elektrikli avtomobil layihələri təkcə nəqliyyat sahəsinin deyil, həm də ölkənin texnoloji və intellektual potensialının güclənməsi deməkdir. Bu istiqamətdə atılacaq addımlar Azərbaycanın iqtisadi təhlükəsizliyinin möhkəmlənməsini, sənaye siyasətində yeni bir səhifənin açılmasını və gələcəyin "ağıllı", "təmiz" və milli avtomobilinin reallığa çevrilməsini şərtləndirir.

***V.BAYRAMOV***
***XQ***

*Ekspert rəyi*

**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**



Ölkəmizdə fəaliyyət göstərən avtomobil müəssisələrinin əksəri ehtiyat hissələrini xaricdən alır. Xaricdən gətirilən hissələrin respublikada yığılması isə baha başa gəldiyindən və bu, məhsulun bahalaşmasına təsir göstərdiyindən yerli istehsaldan daha çox xarici brendlərə üstünlük verilir. Buna görə də qarşıda duran əsas vəzifə Azərbaycan avtomobillərinin özünü yerli bazarda sübut etməsidir. Dövlət müəssisələri və vətəndaşlar bu avtomobillərin alıcılarına çevrilməlidir. Əks təqdirdə, bu problem illərlə davam edəcək.

Elektrikli avtomobil istehsalına keçid isə respublikamız üçün bir neçə mühüm iqtisadi üstünlük yaradacaq. Bu, ilk növbədə, Azərbaycanın idxaldan asılılığını azaldacaq, eyni zamanda, ölkəmizin avtomobil idxalına ildə 1 milyard dollara yaxın vəsait xərcləməsini aradan qaldıracaq. Bütün bunlarla yanaşı, elektrikli avtomobil istehsalı ilə respublikamızda yüksək texnoloji dəyər zənciri yaranacaq. Başqa sözlə, elektrikli avtomobillərin istehsalı ilə mühərrik, batareya, proqram təminatı, elektron idarəetmə sistemləri kimi komponentlər birləşəcək, bununla da ölkəmizdə müasir texnoloji istehsal mədəniyyəti formalaşacaq.

Onu da qeyd edim ki, elektrikli avtomobil istehsalına keçid yeni iş yerlərinin və təhsil imkanlarının yaradılmasını şərtləndirəcək, mühəndislik, energetika və proqramlaşdırma sahəsində yeni ixtisaslara tələbat yaradacaq. Bütün bunlarla bərabər, ekoloji səmərəlilik artacaq, şəhərlərdə karbon emissiyasının azalması, ekoloji standartların yaxşılaşması iqtisadiyyatın dayanıqlı inkişaf göstəricilərini yüksəldəcək.

Yeri gəlmişkən, bu məqamda mühüm bir məsələni də xatırlatmaq zəruridir. Belə ki, elektrikli avtomobil istehsalının səmərəliliyi yalnız istehsalla bitmir. Əsas məsələ şarj infrastrukturunun yaradılmasıdır. Hazırda Azərbaycanda bu istiqamətdə müəyyən addımlar atılıb, Bakı, Gəncə və Qəbələdə bir neçə şarj məntəqəsi fəaliyyət göstərir. Lakin genişmiqyaslı bazar üçün bu rəqəm kifayət deyil. İqtisadi baxımdan, hər 50 kilometr məsafədə bir şarj məntəqəsinin olması optimal sayılır. Bu məqsədlə xüsusi "Yaşıl yol" proqramı çərçivəsində dövlət və özəl tərəfdaşlıq layihələrinin həyata keçirilməsi nəzərdə tutulur.

Mütəxəssislər bildirirlər ki, bu məsələdə elektrik enerjisi təminatının sabitliyi və alternativ mənbələrin cəlbi də önəmlidir. Qarabağ, Naxçıvan və Abşeron regionlarında günəş və külək enerjisi potensialı bu sahə üçün təbii enerji bazası yaradır. Eyni zamanda, elektrikli avtomobil sənayesi yüksək texnoloji sahə olduğu üçün innovasiya və texnologiya tərəfdaşlığı amili də diqqətdə saxlanılmalıdır. Bu baxımdan Azərbaycan üçün strateji texnoloji əməkdaşlıq zəruri məsələlərdən biridir. Türkiyə ilə "TOGG" layihəsi çərçivəsində əməkdaşlıq, Çin şirkətləri ilə birgə batareya texnologiyalarının istehsalı, həmçinin Avropa şirkətlərindən lisenziya transferi bu prosesin əsas perspektiv istiqamətləridir.

Elektrikli avtomobil bazarının genişlənməsi üçün dövlətin fiskal və normativ siyasəti xüsusi önəm daşıyır. Belə ki, əgər bu sahə üçün vergi güzəştləri, ixrac stimulları və investisiya kreditləri tətbiq edilsə, yerli istehsal daha cəlbedici ola bilər. Məsələn, elektrik mühərrikli avtomobillərin istehsalında istifadə olunan komponentlər üçün idxal rüsumunun azaldılması və ya aradan qaldırılması, istehsalçıya 5–7 illik vergi güzəşti verilməsi mühüm iqtisadi motiv yarada bilər. Bundan başqa, dövlət qurumlarının avtomobil parkında tədricən elektrik modellərinə keçid planı hazırlanmalıdır. Bu, daxili tələbi stimullaşdırar və istehsal üçün sabit bazar formalaşdırar.



*Həsən Həsənov – 85*

# Dövlət xadiminin sənət hesabatı

## *“Qürbətdən gələn məktublar”da Vətən sevgisi*

**Azərbaycan Akademik Milli Dram Teatrında görkəmli ictimai-siyasi, dövlət xadimi, tarixçi və dramaturq Həsən Həsənovun “Qürbətdən gələn məktublar” tamaşası sevimli soydaşımızın sənət hesabatı olaraq nümayiş olundu. Tamaşa görkəmli ictimai xadimin anadan olmasının 85 illiyinə həsr olunmuşdu. Tamaşadan əvvəl çıxış edən Milli Məclisin vitse-spikeri, akademik Rafael Hüseynov Həsən Həsənovun həyat yolu, ictimai-siyasi fəaliyyəti haqqında geniş və müfəssəl çıxış etdi və Həsən Əziz oğlunun həm də “xalqın əziz oğlu” olduğunu vurğuladı.**

Tamaşanın quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyovdur. Qürbət mövzusu bu əsərdə Azərbaycan maarifçilik hərəkatının öncülü, dramaturgiyamızın əsasını qoymuş Mirzə Fətəli Axundzadənin və oğlu Rəşidin həyatı fonunda təqdim edilir. Bu tarixi şəxsiyyətlərin həyatı hamımıza məlumdur. Bilirik ki, Mirzə Fətəlinin oğlu









Rəşid bəy yol mühəndisi idi. Sankt-Peterburqda təhsil almışdı, Belçikaya oxumaq üçün getsə də, təhsilini yarımçıq qoyub Tiflisə qayıtmışdı, atasının məsləkinə uyğun olaraq Rusiya imperiyasının məmurlarından olmuşdu.

Rəşid bəy Brüsseldə təhsil aldığı dövrdə oradan mütəmadi olaraq atasına məktublar yazırdı. Həsən müəllim pyesi məhz bu məktublar əsasında qələmə alıb. Mən bu tamaşanı ideoloji dram janrı kimi qəbul etdim. Romantik məhəbbət Rəşidin milli düşüncəsi kontekstində konfliktə cəlb olunur. Əməkdar artist Elşən Cəbrayılov bu rolun öhdəsindən uğurla gəlir. Bundan əvvəl onu Qoqolun “Müfəttiş” tamaşasında Xlestakov rolunda görmüşdüm və bu gənc aktyorun oyun tərzinə heyran olmuşdum. Bilənlər bilir, məlumatı olmayanlara xatırladaq ki, Elşən unudulmaz aktyorumuz Şahin Cəbrayılovun oğludur.

Elşən Rəşidi coşqun temperamentlə, romantik teatr poetikasının estetik prinsipləri əsasında oynayırdı. O, öz əqidə, məslək mübarizəsində kifayət qədər qətiyyətli olmağına baxmayaraq, romantik duyğularını da gizlətmir. Aktyor obrazın ifası üçün seçdiyi romantik boyaları realist ifadə vasitələri ilə sintezdə təqdim edir.

Aktyor ansamblında hər ifaçı öz rolundakı ideya yükünü və məqsədi düzgün icra etməklə tamaşanın bədii konsepsiyasına və rejissorun ali məqsədinə yaradıcılıqla bütövlük verməyə səylə çalışırdı. Tamaşada psixoloji dramatizm qabarıq verilmişdi. Müəyyən fərqli aktyorluq üslublarına rəğmən ifaçıların hamısı obrazları daxili ehtirasla, dinamik coşqunluqla, emosional dramatizmlə oynayırdı.

Atalar və oğullar problemi Mirzə Fətəli ilə oğlundan da yan keçməyib. Lakin bu konflikt dərinləşməyib. Rəşid bəy atasının maarifçilik missiyasını dərindən dərk edirdi və təbii olaraq gənclikdən doğan radikalizmlə bəzən atasının fikirləriylə razılaşmırdı. Həzrət Əlinin məşhur bir deyimi var: “Uşaqlar valideynlərindən daha çox öz zəmanələrinə bənzəyirlər”. Rəşid bəy də öz zəmanəsinin övladı idi. Bu zaman isə olduqca ziddiyyətli idi və onun da qismətinə belə bir mürəkkəb dövr düşmüşdü.

Rəşid bəyin xaricə oxumağa getməsi səhnəsi yadımıza Mirzə Fətəli Axundzadənin “Hekayəti Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadükuni məşhur” komediyasında Şahbaz bəyin Parisə oxumağa getməsilə bağlı situasiyanı salır. Tubu xanım (Xalq artisti Laləzar Mustafayeva) oğlunun xaricə getməsini istəmir. Onun burada Firəngiz (Əməkdar artist Vəfa Zeynalova adlı sevgilisi var, onlar bir-birlərini sevirlər. Lakin Mirzə Fətəli (Xalq artisti Əli Nur) oğlunun elm dalınca getmək istəyini təmkinlə qarşılayır.

Rəşid Brüsseldə Fransuaza adlı qızla tanış olur və aralarında eşq münasibətləri yaranır. Rəşid vətəndə qoyub gəldiyi Firəngizi də unuda bilmir. Onun mənəvi tərəddüdləri, daxili çırpıntıları Elşən Cəbrayılovun ifasında son dərəcə təbii idi.

Patrik obrazını yaradan istedadlı aktyor Elçin Əfəndi də özünəməxsus oyun plastikası nümayiş etdirir. O, tamaşadan əvvəl ayağını zədələmişdi, yeriməkdə çətinlik çəkirdi. Düşünürdük ki, bəs səhnədə necə gəzəcək? Tamaşa boyu onun ayağının zədəli olması zərrə qədər hiss olunmadı. Səhnənin cazibə qüvvəsi öz sözünü demişdi.

Xalq artisti Əli Nurun ifasında Mirzə Fətəli Axundzadəni ailə daxilində görürük. Lakin aktyor böyük dramaturqun millətin gələcək taleyi ilə bağlı narahatlığını, iztirab və intizarını mimikalarıyla, səhnə mizanlarıyla son dərəcə ustalıqla göstərə bilir, pauzadan, gərgin sükutdan yerində, məqamında istifadə edir. Əli Nur səhnədə sükutun da haqqını verir, o sükutu mənalandırır. Şübhəsiz, Əli Nur geniş diapazonlu aktyordur və bu tamaşada da Mirzə Fətəlinin yaşantılarını öz içindən keçirərək, özününküləşdirərək tamaşaçıya təqdim edir. Böyük dramaturqun son nəfəsində oğluna dedikləri də tamaşaçını son dərəcə mütəəssir edir: “Mən islama deyil, cəhalətə, xurafata qarşı mübarizə aparmışam, oğul”.

Ömrünü xalqın maariflənməsinə həsr etmiş Mirzə Fətəlinin gələcəklə bağlı narahatlıqları aktyor ifasında son dərəcə təbii boyalarla canlandırılır.

Mirzə Fətəlinin xalqın taleyində oynadığı rol bu tamaşada öz bədii əksini tapır. Kəlağayı isə tamaşada son dərəcə uğurlu tapıntıdır və milli element olaraq Rəşid bəyin nə qədər vətənə, milli gələnəklərə bağlı olduğunu simvolizə edir. Kəlayağı şərqlə qərb arasındakı vacib elementdir, dramaturq bu faktordan ustalıqla istifadə edərək Rəşid bəyin milli duyğularını önə çəkir.

Rejissor Axundzadənin xurafatla mübarizəsinin məqsəd aydınlığını aktyor ansamblının ümumi oyun prinsipində tam dolğunluğu ilə realizə edə bilib. İdeya qabartmaları Nəcəfin, Rəşidin, Axundzadənin replikalarında özünü büruzə verir. Nəticədə, dərin məna yükü daşıyan forma-kompozisiya alınıb.

Qürbət arxetipi Mirzə Fətəlinin və Rəşid bəyin xarakterini açmaq, tamaşanın mahiyyətini anlamaq baxımından son dərəcə mühüm əhəmiyyət daşıyır.

Bir sözlə, “Qürbətdən gələn məktublar” Azərbaycan Milli teatrının ən yaddaqalan tarixi tamaşalarından biridir.

***Kənan HACI,***
***yazıçı-dramaturq***

# COP29-un hədəflərinə elmin töhfəsi



**Azərbaycan Milli Elmlər Akademiyasında “COP29: Qlobal və milli çağırışlar, elmin vəzifələri” kitabının təqdimat mərasimi keçirilib.**

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli çıxışında bildirib ki, Azərbaycana böyük uğurlar gətirən COP29 BMT tərəfindən bu günədək dünyanın müxtəlif ölkələrində keçirilmiş beynəlxalq səviyyəli tədbirlərin zirvəsində dayanır. Bu mötəbər mərasimin ölkəmizdə yüksək təşkilatçılıqla keçirilməsi Azərbaycanın qlobal miqyasda iqlim dəyişmələri və ətraf mühitin qorunmasında liderlik rolunu nümayiş etdirib.

Akademik “Yaşıl dünya naminə həmrəylik ili” və Azərbaycanda keçirilmiş BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yekunlarına həsr olunmuş kitabın elmi və siyasi əhəmiyyətini vurğulayıb. O, 2024-cü ildə AMEA-da “Yaşıl dünya naminə həmrəylik ili” və COP29-la bağlı həyata keçirilmiş layihələr, görülmüş işlər, nəşr fəaliyyətləri və qarşıda duran perspektivləri əks etdirən bu nəşri Akademiyanın həm elmi fəaliyyətinin hesabatı, həm də beynəlxalq tədbirin çağırışları fonunda akademik vəzifələri ümumiləşdirən mühüm sənəd kimi yüksək dəyərləndirib.

Daha sonra AMEA-nın vitse-prezidenti, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik İradə Hüseynova, Bakı Dövlət Universitetinin Botanika və bitki fiziologiyası kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Elşad Qurbanov, Vəhşi Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyinin rəhbəri Elşad Əsgərov, AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Elçin Qaliboğlu və digərləri çıxış edərək nəşrin yalnız elmi ictimaiyyət üçün deyil, həm də geniş oxucu kütləsi, xüsusilə gənc tədqiqatçılar, doktorantlar və tələbələr üçün dəyərli elmi mənbə olacağına, yeni tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsinə təkan verəcəyinə əminliklərini ifadə ediblər.

Sonda iştirakçılar Akademiya şəhərciyi ərazisində salınmış AMEA-nın Nadir ağaclar parkına baxış keçiriblər.

Xatırladaq ki, nəşrin layihə rəhbəri və “Ön söz”ün müəllifi AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, elmi redaktoru AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova, tərtibçisi AMEA-nın vitse-prezidentinin xidmətinin elmi katibi aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Afiq Məmmədovdur.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Sorma nədən Vətən yaxşı...

**“Şair, sorma nədən Vətən yaxşıdır, adı gəlcək könlüm dastana döndü” deyən şəhid Xudayar Yusifzadə 44 günlük Vətən müharibəsində özü də dastana döndü.**



Xudayar ölümündən 2 gün əvvəl, 2020-ci il oktyabrın 20-də döyüş zamanı Əliağa Vahidin "Vətən yaxşıdır" şeirinə yazılan eyniadlı mahnını ifa etmiş və bunu telefon vasitəsilə lentə almışdır. Mahnının sözlərində dediyi kimi,

***Dumanlı dağların başında durdum,***
***Dumandan özümə bir xiymə qurdum,***
***Keçdi xəyalımdan öz gözəl yurdum,***
***Dumanlar içində duman görünür.***

Həmin video qısa müddət ərzində sosial medialarda paylaşılaraq trendə çevrildi. Onun şəhid olmasından sonra isə həmin video daha geniş yayıldı və Xudayar həmin mahnı ilə daha çox tanındı. Xudayarın ifasında məşhurlaşan təsnif xalq arasında "Xudayar təsnifi" olaraq məşhurlaşdı.Təsnifin bəstəkarı xanəndə Əlibaba Məmmədovun təşəbbüsü ilə "Xudayar təsnifi" adlandırılmışdır. Hələ o vaxtlar sağ ikən Əlibaba müəllim Xudayarın ifası haqqında deyirdi: “Mən yüzlərlə bu cür vətənpərvər musiqinin müəllifiyəm. O təsnifi böyük qəzəlxan Əliağa Vahidin sözlərinə bəstələmişəm. Şəhid Xudayar Yusifzadənin videosunu izlədim, çox gözəl səsi var imiş, heyif o səsdən. Bir tərəfdən təsnifin dillər əzbəri olması məni sevindirir, digər tərəfdən isə Xudayarın vaxtsız itkisi məni çox kədərləndirir. O görüntülər hamıdan çox mənə təsir etdi. Nə deyim, Vətən sağ olsun!”.

Xudayar kiçik yaşlarından Ağdamın sənət adamlarının ifasını dinləməyi xoşlayarmış. Bəzən Səxavət Məmmədovun “Azad bir quşdum” mahnısını özünəməxsus bir şəkildə ifa edirmiş. Səsinin məlahətli və çəkici olduğunu görən hər kəs onun gələcəkdə məşhur bir xanəndə olacağını deyirmiş. Elə ailə üzvləri də bu niyyətlə onu Bərdə şəhər 1 saylı musiqi məktəbində xanəndəlik sinfinə aparır. Məktəbə qəbul üçün seçim turlarında uşaqların hamısına “Şuşanın dağları” mahnısını öyrənmək tapşırılır. Bir neçə gün sonra seçimə qatılan Xudayar “Azad bir quşdum”, ardınca isə “Şuşanın dağları” mahnısını ifa edir. Xudayarın ifasından sonra müəllimlər ondan niyə tapşırılmayan “Azad bir quşdum” mahnısını ifa etdiyini soruşurlar. O, hazırcavablığı ilə “Müəllim, Şuşanın başı dumanlı dağlarını görmək üçün azad bir quş olmaq lazımdır. Amma o da gənc yaşında torpağa düşür” cavabını verir.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının giziri olan Xudayar Yusifzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı əvvəlcə Füzuli rayonunda sərhəd məntəqəsində xidmət edib, daha sonra isə Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərə qatılıb. Oktyabrın 22-də Zəngilan döyüşləri zamanı Ağbənd istiqamətində şəhid olub. Bərdə şəhərinin Şəhidlər xiyabanında dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamlarına əsasən Xudayar Yusifzadə ölümündən sonra “Azərbaycan Bayrağı” ordeni, “Vətən uğrunda”, “Zəngilanın azad olunmasına görə” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.

Bərdə şəhərinin Bülbül adına 1 nömrəli Uşaq İncəsənət Məktəbində büstü qoyulub.

Təəssüf ki, müharibə Xudayarın arzularını ürəyində qoydu. Özündən geriyə yadigarı qalmasa da, bütün Azərbaycan onu özünə övlad bilir, gözəl səsi, nurlu siması, gülüşü ilə yaddaşlara həkk olundu. Adı dillər əzbəri olan şəhidimiz Xudayar Yusifzadənin və onun silahdaşlarının qəhrəmanlığı sayəsində torpaqlarımız Ermənistanın işğalından azad edildi, 30 illik həsrətə son qoyuldu.

Xudayar Yusifzadə daim yaddaşlarda yaşayacaq. Azərbaycan Tarixi Muzeyinin Vətən müharibəsi fondunda şəhid Xudayar Yusifzadəyə məxsus Dövlət Sərhəd Xidmətinə aid olan hərbi mərasim geyimi və fotoşəkilləri qorunur. Materiallar şəhidin anası Radə Qurbanova tərəfindən təhvil verilib.

***Müşfiq MİRZƏ***
***XQ***

*Firidun Şuşinski – 100*

# Muğam və Xalq musiqisi ifaçılığının fədakar tədqiqatçısı

**Bu günlərdə Azərbaycan muğam və Xalq musiqisi ifaçılığı tarixinin məşhur tədqiqatçısı, Əməkdar incəsənət xadimi Firidun Şuşinskinin anadan olmasının 100 illiyi tamam olur. Hər bir xalq öz musiqisinin pərəstişkarı olduğu kimi, onun tarixini öyrənməyə, bu sahənin yaradıcılarını arayıb-axtarmağa, təbliğ etməyə can atır. Bu baxımdan milli musiqi tariximizin geniş araşdırılması və təbliğində Firidun Şuşinski bütöv bir heyətin görəcəyi işin öhdəsindən təkbaşına gəlib.**



Firidun Məhəmməd oğlu Həsənov (Şuşinski) 20 oktyabr 1925-ci ildə Qarabağın tacı sayılan Şuşada dünyaya göz açıb. Atası ləl-cəvahirat pərəstişkarı olduğu üçün ona el arasında “qızıllı Məhəmməd bəy” deyərdilər. Firidunun adını əmisi Şəmil görkəmli ədəbiyyatşünas-alim, yazıçı-publisist, xain əli ilə güllələnmiş Firidun bəy Köçərlinin şərəfinə qoyub. Şəmil Firidun bəy Köçərli ilə qonşu, həm də dost idi.

1920-ci ildə Gəncədə bolşeviklərə qarşı üsyan qalxır. Gəncə üsyanı yatırıldıqdan sonra XI ordunun xüsusi şöbəsi tərəfindən bir sıra ziyalılarla yanaşı, Firidun bəy Köçərli də güllələnir. Şəmil 5 il sonra dünyaya gəlmiş oğluna böyük maarifçi-ədəbiyyatşünasın adını qoyur.

Firidun Şuşinski ilk təhsilini Şuşada alsa da, orta məktəbi və üçillik musiqi təhsilini Füzulidə başa vurmuşdu. Fitri istedadı olan Firidun bir çox alətlərdə – tar, kaman, kanon, piano, hətta skripkada professional şəkildə ifa edə bilirdi. O, həmçinin nəfəsli alətlərdə də sərbəst çalırdı. Uşaqlıqdan musiqiyə həvəs evlərində tez-tez xanəndələrin, musiqi ifaçılarının olması səbəbindən yaranmışdı.

Firidun 16 yaşında məktəbi bitirir. Lakin İkinci Dünya müharibəsi başlandığından ali təhsil almaqdan imtina edir. Müharibəyə getmək üçün könüllü olaraq hərbi komissarlığa ərizə ilə müraciət edir. Az sonra onun bu istəyi baş tutur. O, müharibənin sonuna qədər alman faşistlərlə döyüşür və ordunun qalib əsgəri kimi bir çox orden və medallarla Vətənə dönür. Müharibədən qayıdan kimi təhsilini davam etdirmək qərarına gəlir. 1946-cı ildə sənədlərini Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə verir. Fitri istedadı olan Firidun çox zaman onu düşündürən sualların cavabını təhsil aldığı universitetin professor və müəllim heyətindən ala bilmirdi. Günün əksər vaxtını kitabxanalarda, arxivlərdə keçirən Firidun onu maraqlandıran sualların cavabını məhz orada axtarardı.

Cəfakeş araşdırıcı ali məktəbdən sonra həyatını Azərbaycan musiqi mədəniyyətinin mühüm bir dövrünü, XIX və XX əsrlərdə Qarabağda yetişən müğənni və xanəndələrin həyat və yaradıcılığını öyrənməyə həsr edib, çoxlu arxiv sənədləri, tarixi faktlar toplamış, onlar haqqında mükəmməl məlumat əldə edib.

1948-ci ilin may ayında Bakının ali məktəblərinin birində elmi konfrans keçirilməsi nəzərdə tutulduğu üçün təşkilat komitəsi yaradılmışdı. Elmi konfransa münasibət ciddi olduğundan təşkilat komitəsinə Heydər Hüseynov, Abdulla Qarayev, Mirəli Qaşqay, Məhəmməd Əfəndiyev, Mehdi bəy İrəvanski, Zülfəli İbrahimov, Əli Sultanlı, Cəfər Xəndan, Səməd Vurğun, Qasım Cəfəroğlu kimi alimlər daxil idi. Firidun tələbə elmi cəmiyyətinin sədri olduğuna görə bu konfransa daha ciddi hazırlaşmışdı. Onun mövzusu “Vaqif və Qarabağ” idi. Bu mövzunu ona tarixçi-alim Əlövsət Quliyev təklif etmişdi.

Mövzu Firidun üçün çox doğma idi. Çünki hələ I kursda oxuyarkən o, Şuşanın tarixi ilə maraqlanır və doğma torpağı haqqında sənədlər toplayırdı. Bir də məlum idi ki, Molla Pənah Vaqif şair olmaqla yanaşı, həm də görkəmli dövlət xadimi və Qarabağ xanı İbrahimxəlil xanın baş vəziri olmuşdur. Mövzularla tanış olan təşkilat komitəsinin üzvü, şair Səməd Vurğun “Vaqif və Qarabağ” mövzusunun müəllifi ilə görüşmək istəyini bildirir...

**Görüş zamanı şair Firiduna üz tutub:**

– Qarabağlı balası, məruzən çox xoşuma gəldi.

Firidun bəyin bir alim-tədqiqatçı kimi hünəri ondan ibarət idi ki, o, tarix elminin nəzəri problemlərini dərindən mənimsəməklə xalqın mənəvi dünyasına müdaxilə etmiş, çıxardığı sərvət isə musiqi tariximizin öyrənilməsi olmuşdu. Firidun bəy köhnəlmiş yollarla addımlamağı sevməyən tədqiqatçılardan idi. Ona yaxşı məlum idi ki, musiqi tariximiz geniş şəkildə tədqiq edilməmişdir və bu sahədə bir boşluq var. Gənc tədqiqatçı bu ağır yükü çiyninə götürəndə özündə təpər tapdı. Çox çəkmədi ki, respublika qəzetlərində ayrı-ayrı xanəndələr, musiqiçilər haqqında məqalələr dərc edilməyə başladı. O, həmçinin radio və televiziyada xalq sənətkarları haqqında şirin, duzlu söhbətləri ilə tez bir zamanda ətrafına geniş tamaşaçı kütləsi topladı. Bununla da, Firidun Şuşinski musiqimizin tədqiqatçısına çevrildi. O, nəinki Azərbaycanın, hətta SSRİ-nin bir çox şəhərlərində tədqiqat işi aparmaqla musiqi tariximizin açılmamış səhifələrini vərəqləməyə başladı.

Firidun müəllim tədqiqatla yanaşı, həmin dövrdə Azərbaycanın qəhrəman oğulları, mədəni abidələrimizin qorunub-saxlanması haqqında da mətbuatda vaxtaşırı yazılarla çıxış edirdi. Bu məqalələr “F.Məhəmmədoğlu”, “F.Həsənov”, “Firidun Həsənov”, “Firidun Şuşinski”, “F.Şuşinski”, “Firidun Şuşalı” “Firidun bəy Şuşalı” imzaları ilə dərc olunurdu. O, mətbuat aləmində “Şuşinski” kimi tanınsa da, ömrünün sonlarında məqalələri “Şuşalı” imzası ilə dərc edilirdi.

Musiqi tədqiqatçısının ilk kitabı 1962-ci ildə nəşr etdirdiyi “Şuşa” əsəridir. 1962-ci il Azərbaycan ədəbiyyatında mühüm bir hadisəyə çevrilən “Şuşa” kitabı çapdan çıxmışdı. (“Şuşa” əsəri isə ayrıca mövzudur). F.Şuşinskinin musiqi tariximiz haqqında ilk əsəri 1964-cü ildə nəşr etdirdiyi “Cabbar Qaryağdıoğlu” kitabıdır. Əsər Azərbaycan vokal sənətinin əvəzolunmaz sənətkarı C.Qaryağdıoğlunun həyat və yaradıcılığına həsr olunub. Qeyd edək ki, əsər bir neçə dəfə çap olunub.

Bu əsərdən sonra bir-birinin ardınca o, “Seyid Şuşinski”, “Xan Şuşinski” monoqrafiyalarını nəşr etdirib. Nəhayət, uzunmüddətli ciddi axtarışlardan sonra Azərbaycan musiqi aləmini təhlil-tədqiq edən, az qala, unudulmaqda olanları üzə çıxaran, nəinki keçmiş SSRİ-də, hətta xaricdə böyük əks-sədaya səbəb olan “Azərbaycan xalq musiqiçiləri” adlı kitabı nəşr edilib. Bu kitab barədə Xalq şairi Xəlil Rza Ulutürk “F.Şuşinski bütöv bir elmi kollektivin görməli olduğu işi, çətin və şərəfli vəzifəni təkbaşına görən”, Azərbaycanın qəhrəman oğlu, akademik Ziya Bünyadov isə əsəri “böyük bir akademiyanın tədqiqat işi” adlandırıb.

Azərbaycanda muğam tariximizin ilk və son tədqiqatı Firidun müəllimin adı ilə bağlıdır. Respublikamızda elə bir musiqi tədqiqatçısı yoxdur ki, Firidun müəllim kimi sırf musiqi tədqiqatı ilə məşğul olsun. Az-çox varsa da, həmin şəxslər heç kimdən maddi kömək görməyən arxivlərdə, muzeylərdə aylarla, illərlə işləyən Firidun müəllimin yazdığı əsərlərdən bəhrələnmişlər.

Lakin F.Şuşinskinin yaradıcılığına, onun tənqidi çıxışlarına qarşı çıxanlar da olub. Onlar yeni bir üsula əl atıblar. Onun əsərlərində erməniləri “təbliğ” etdiyinə görə tənqid edirlər. Firidun bəyi bu barədə suçlayanlar unudurdular ki, ermənilər əsrlər boyu xoşumuza gəlmək üçün qapımızda nökər olar, hər bir hərəkətimizə göz qoyar, öz “sadiqliklər”ini göstərmək üçün dəridən-qabıqdan çıxardılar. Onlar nəinki XIX əsrin əvvəllərində, hətta keçən əsrin sonlarına qədər toylarımızı, şənliklərimizi, musiqiçilərimizlə birgə aparar və bu yolla da pul qazanardılar. Firidun bəyə ermənipərəst deyənlərin nəzərinə çatdırıram ki, mətbuatın, televiziyanın və yaxud respublikanın arxivlərində saxlanılan keçən əsrə aid şəkillərə baxsalar, mütləq ermənilərin yaltaq sifətləri ilə rastlaşacaqlar. Həmin şəxslər unutmasınlar ki, televiziya ekranlarında hər hansı bir sənətkardan söz açılırsa, onun ifası verilirsə, orda kamança, balaban çalan, ya da dəf vuran erməni olacaq. Məgər buna da F.Şuşinski günahkardır?

Bu gün tədqiqatçılar muğamdan və onun yaradıcılarından danışanda və yaxud musiqi haqqında hər hansı bir məqalə hazırlayanda məhz F.Şuşinskiyə müraciət etmək məcburiyyətində qalırlar. Azərbaycanın qüdrətli bəstəkarı Fikrət Əmirov yazırdı: “Mən iki Firidun tanıyıram. Birinci ziyalıların 95 faizini lağa qoyan, satira qırmancına dolayan Firidunumuzdur. İkinci Firidun alim, vətəndaş, böyük əməlpərvər musiqişünas və jurnalist qardaşımızdır. Əslində, bi iki, Firidunu bir-birindən ayırmaq olmaz”.

F.Şuşinski daim arayıb-axtaran, çətinlikdən qorxmayan, maraqlı hadisələrin mənbələrinə qədər gedib çıxan tədqiqatçı idi. Yüksək peşəkar zövqə malik olan F.Şuşinski musiqidən, xanəndədən söhbət açanda o dövrün ovqatını, koloritini yaratmaq üçün şairlərdən, tarixçilərdən, yazıçılardan tutarlı sübutlar gətirir, oxucunun xəyalında tamam başqa bir aləm canlandırmağa nail olurdu. Materialı dərindən bildiyindən o, hər hansı sənətkar haqqında ürəklə və məhəbbətlə, inamla və ilhamla danışırdı.

Yorulmaz müsiqi tədqiqatçısı 1997-ci ildə 72 yaşında dünyadan köçüb. Firidun Şuşinsinin həyatı bahasına qoyub getdiyi zəngin elmi-mədəni irs isə bu gün müsiqi mədəniyyətimiz barədə misilsiz mənbə sayılır, geniş öyrənilir və gənc nəslə öyrədilir.

***Aslan KƏNAN,***
***Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, tədqiqatçı***

*Kino və zaman*

# Milli kinomuz Azərbaycan coğrafiyasını əhatə edə bilirmi?

## *Yaxud dünya böyük ekranda ölkəmizi necə görür?*




**Kino və seriallar beynəlxalq miqyasda milli kimliyi, mədəni dəyərləri və turizm potensialını nümayiş etdirmək üçün güclü vasitələrdəndir. Məsələn, qardaş Türkiyədə çəkilən seriallar, Qara dəniz sahillərindən Kapadokiyaya qədər bölgələrin adət-ənənələrini, mətbəxini və ləhcəsini qlobal səviyyədə təbliğ edir.**

Türkiyənin regional təbliğat strategiyası isə etnoqrafik detallara daha çox diqqət yetirir. Seriallarda Rizə bölgəsinin ləhcəsi, Qaziantepin mətbəxi və ya Kapadokyanın unikal təbiəti sadəcə fon deyil, hekayənin ayrılmaz hissəsinə çevrilir. Cənubi Koreyada isə "Hallyu" (Koreya dalğası) ilə birlikdə dramalar ölkənin qastronomiyasını, geyimini və kiçik, unikal memarlığa malik şəhərlərini populyarlaşdırır ki, bu da "ekran turizminin" bilavasitə nəticəsidir.

Kino sənayesi vasitəsilə bölgələrin və təbiətin təbliği sahəsində ən uğurlu nümunələrdən biri Yeni Zelandiyadır. "Üzüklərin ağası" və "Hobbit" trilogiyalarından sonra ölkənin turizm şüarı illərlə "Orta dünya" olaraq qaldı. Bu fantastik filmlər sayəsində Yeni Zelandiya təbiət turizmi üçün qlobal istinad nöqtəsinə çevrildi. Eyni şəkildə, Böyük Britaniyada "Harry Potter" filmləri və "Outlander" serialı Şotlandiyanın dağlıq ərazilərində və tarixi qalalarında turizm axınını kəskin artırmış, Kelt mədəniyyətini dirçəltmişdir.

Xalqımızın zəngin mədəniyyətinin, respublikamızın turizm potensialının inkişafı üçün Türkiyə və digər qlobal modellərdən nümunə götürərək kino və serial istehsalında bölgələrə fokuslanma strategiyası tətbiq edilməlidir. Lakin Azərbaycanda kino və seriallar əsasən Bakıda çəkilir. Bölgələr, çox vaxt, sadəcə qısa səhnələr üçün fon olaraq qalır, yerli adətlər, mətbəx və ləhcələr əsas süjet xəttinə daxil edilmir. Halbuki, Azərbaycanın hər bölgəsi ssenari üçün zəngin və tükənməz material bazasıdır.

**Mövzu ilə bağlı müsahibimiz, yazıçı-ssenarist Elxan Xanəlizadə regionlarda kino çəkilişlərinin maliyyə və yaradıcılıq maneələrindən söhbət açdı:**



– Regional layihələrin həyata keçirilməsi böyük maliyyə vəsaiti tələb edir. Bu baxımdan, belə filmləri sifariş edəcək stabil büdcəyə malik prodüser mərkəzlərinin və ya şəxsi sifarişçilərin olmaması əsas maneədir. Televiziyalar hazırda serial sifariş versələr də, çəkilişlərin demək olar ki, yalnız Bakıda olması regional təbliğat imkanlarını məhdudlaşdırır.

Məsələn, Gəncə Azərbaycanın ən böyük teatrlarından birinə sahib olsa da, orada peşəkar aktyorların sayı kifayət qədər deyil. Bu hal, regional layihələr üçün aktyor heyətinin Bakıdan bölgələrə getməsi zərurətini yaradır ki, bu da layihənin logistika və maliyyə xərclərini əhəmiyyətli dərəcədə artırır. İkinci əsas çətinlik isə yaradıcı proseslə və regional məzmunun autentikliyi ilə bağlıdır. Bakıda olan ssenaristin regiona xas incəlikləri (Şəki, Naxçıvan, Lənkəran) dərindən bilməsi üçün uzun müddət bölgədə yaşaması və xərclərinin ödənilməsi praktikası formalaşmalıdır. Əlavə olaraq, hər bir bölgənin spesifik ləhcəsi var. Azərbaycan aktyorlarının həmin ləhcələri tam mənimsəyib ekranda inandırıcı şəkildə təqdim edə bilməsi də ciddi çətinliklər yaradır. Hazırda kiçik epizod və ya qısametrajlı filmlər çəkilsə də, genişmiqyaslı regional layihələr üçün həm prodüser mərkəzləri formalaşmalı, həm də yerli teatrların və kadrların potensialı artmalıdır.

44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi bu sahədə qürurverici və ümidverici bir dönüş nöqtəsi yaratdı. Bu gün Qarabağın ən gözəl guşələrindən olan Laçında kinostudiyanın yaranması regional audiovizual məkanın dirçəlişinə zəmin hazırlayır. "Hoçazfilm" yaradıcılıq studiyası bu dirçəlişin rəmzidir.

Laçın şəhərində iki inzibati binadan və beynəlxalq standartlara cavab verən çəkiliş pavilyonundan ibarət olan "Hoçazfilm" işğaldan azad edilmiş ərazilərdə yaranan ilk regional audiovizual mərkəzdir. Studiyanın adı Laçın rayonunun əsas rəmzlərindən sayılan Hoçaz qayalıqlarının adından götürülüb. "Hoçazfilm"in əsas missiyası Qarabağ regionunun işğal və işğaldan sonrakı dövrlərinin salnaməsini yaratmaq, bölgədə keçiriləcək mədəni-kütləvi tədbirləri işıqlandırmaq və regionun milli brendlərini təşviq etməkdir.



2023-cü il avqustun 25-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun açılışında iştirak etmişlər. Dövlət başçısı çıxışında qeyd etmişdir ki, xüsusilə indi Qarabağ müharibəsi ilə bağlı, ümumiyyətlə, mövzular çox ola bilər, həm müharibənin özü, həm müxtəlif epizodlar, həm də müxtəlif əməliyyatlar film mövzusu olmalıdır. Birinci xanım Mehriban Əliyeva Vətən müharibəsindən sonra regional kinonun inkişafının yalnız mədəni yox, həm də milli-tarixi bir missiya olduğunu vurğulamışdır.

**"Hoçazfilm" yaradıcılıq mərkəzinin rəhbəri, Azərbaycan Kinematoqrafçılar İttifaqının İdarə Heyətinin üzvü, kinorejissor Amil Amal regional kinonun inkişafı üçün inzibati qərarların və strateji təminatın vacibliyinə diqqət çəkərək kino sənayesinin hazırda yalnız Bakıdan idarə olunmasının istehsalat prosesinə təsirini vurğuladı:**



– Təəssüf ki, kino mərkəzi kimi bütün idarəetmə funksiyaları Bakıda cəmləşib. Serialların 99 faiz çəkilişi və filmlərin post-prodakşn işləri paytaxtda həyata keçirilir. Bu, “Azərbaycanfilm” kinostudiyasının və müstəqil kino şirkətlərinin Bakıda yerləşməsi ilə əlaqəli olsa da, regional inkişafa mane olur. Çox istərdim ki, Mədəniyyət Nazirliyinin kino şöbəsi və ya Azərbaycan Respublikası Kino Agentliyi kimi mühüm qurumlardan biri Qarabağda, məsələn, Xankəndidə yerləşsin.

İşğaldan azad olunmuş ərazilərdə idarəetmə sisteminin lokallaşdırılması ümumi mədəni inkişafa təkan verəcək. Bu mənada "Hoçazfilm" kinostudiyası regionda yaradılan ilk kino qurumudur . “Hoçazfilm” çəkilişlərin çoxunu Qarabağda həyata keçməyə çalışır. Çünki kino həm də bir salnamədir, bir tarixdir və o kadrlarda Qarabağ torpaqları olmalıdır. Məsələn, bir ildə möhtəşəm şəkildə qurulan Laçın şəhəri Azərbaycanın ən gözəl məkanlarından biridir və orada çəkilən melodrama həm gözəl təbiəti, həm də yeni infrastrukturu təqdim edə bilər.

Azərbaycan coğrafiyası kino sənayesi üçün tükənməz bir bazadır. Səhradan tutmuş, dağlıq regionlara, mağaralara qədər bütün məkanlardan məqsədəuyğun və düzgün şəkildə istifadə olunmalıdır. Bu baxımdan Mədəniyyət Nazirliyinin və Kino Agentliyinin üzərinə böyük məsuliyyət düşür. Filmlərin və serialların regional məzmununun artırılması Azərbaycana çoxşaxəli faydalar gətirəcək. Unudulmaqda olan regional ləhcələr, xalq sənətkarlığı və mətbəx ənənələri populyarlaşacaq və gələcək nəsillər üçün qorunacaq. Bölgələrin zəngin fərqliliklərinin qeyd edilməsi xalqımızın zəngin mədəniyyətə sahib olmasını bir daha təsdiqləyərək, milli kimliyi gücləndirəcək.

**Ssenarist, yazıçı, Azərbaycan Kinematoqrafçılar İttifaqının üzvü Nicat Dadaşov regionlarda filmlərin çəkilməməsinin səbəbini iqtisadi amillərlə əlaqələndirərək konkret həll yolları da təklif etdi:**



– Hazırda sektorun maliyyə bazası zəifdir. Regional çəkilişlər Bakıdakıdan fərqli olaraq, əlavə nəqliyyat, yaşayış, avadanlıq daşınması və loqistika xərcləri deməkdir. Prodüsserlər, xüsusilə də aşağı büdcə ilə işləyərkən, riskləri azaltmaq üçün filmləri paytaxtda çəkməyə məcbur olurlar. Bölgələrdə yüksək standartlara cavab verən səs studiyaları, post-prodakşn mərkəzləri və ixtisaslaşmış çəkiliş heyəti azdır.

Azərbaycanın regionları (Qarabağın, Şəkinin, Qubanın) turizm üçün hazır dekorasiyalardır və regional dialektlərimiz, zəngin mətbəx mədəniyyətimiz unikal bir kəşfdir. Bu çətinlikləri aradan qaldırmaq üçün Regional Çəkilişlərə Dəstək Fondu yaradılmalı və bu fond Bakıdan kənarda çəkilən hər bir film və seriala əlavə maliyyə və ya “cash rebate” (xərclərin geri qaytarılması) mexanizmi təklif etməlidir. Beləliklə, kino sənayesi, turizm və yerli icmalar arasında sıx əməkdaşlıq mexanizmləri qurulmalıdır.

***Arzu ƏLİYEVA***
***XQ***

